بسم الله الرحمن الرحيم

# QURAN VƏ SÜNNƏ

**Bakı-2006**

**Kitabın adı:**
QURAN VƏ SÜNNƏ (5)

**Tərtib və redaktə:**
Aygün Əlizadə

**Səhifələdi:**
Gülnarə Daşdəmirova

**Mətbəə:**
**“DELTA QRUP”** MMJ

**Format:**
70x100. 16/1

**Çap üsulu:**
ofset

**Tirac:**
1000 ədəd

*İran İslam Respublikasının*
*Azərbayjan Respublikasındakı*
*Səfirliyinin Mədəniyyət*
*Mərkəzinin sədri*
*Seyyid Əli Əkbər Ojaqnecad*

# «" QURAN VƏ SÜNNƏ" KONFRANSINDA ÇIXIŞI»

بسم الله الرحمن الرحيم

Məqaləyə başlamazdan əvvəl möhtərəm, əziz ağalar və xanımların müqəddəs ramazan ayında etdikləri ibadət, dua və minajatlarının Allahın məhzərində qəbul olunmasını diləyirəm, o jümlədən bu konfransda iştirak edən, məqalə təqdim edənlərə öz dərin təşəkkürümü bildirirəm. Bu gün təşkil olunmuş konfransın mövzusu çox dərin və geniş bir mövzudur. Bu barədə nə qədər mütaliə olunsa, məqalə və kitablar yazılsa, yenə də azdır. Hər bir mövzunun bir əsası var, bir də foruatı-ikinji tərəfləri. Bu fərlər, yəni ikinji tərəflər əsasın dərk olunmasında çox mühümdür. Mənim mövzum «Əhli-beytlə Quranın rabitəsi» adlanır. Bəhsə keçməzdən əvvəl iki mühüm mətləbi sizlərin diqqətinizə çatdırmalıyam. Mətləblərdən birinjisi budur ki, Quran bəşəriyyətin ehtiyajlarını ödəyə bilən yeganə hərtərəfli və mükəmməl bir kitabdır. Bunu Quran ayələrinin özü də sübut edir.

الَر كِتَابٌ أُحْكِمَتْ آيَاتُهُ ثُمَّ فُصِّلَتْ مِن لَّدُنْ حَكِيمٍ خَبِيرٍ

«Əlif, Lam, Ra. *(Mən bütün əşyaları görən Allaham. Mənim kitabım həmin bu hərflərdən təşkil olunmuşdur, amma eyni zamanda möjüzədir. Mənim kitabımın möhkəm və bu jür mütəşabih ayələri vardır. Bu hərflər Allahla Onun peyğəmbəri Məhəmməd – səlləllahu əleyhi və alihi və səlləm – arasında olan rəmzlərdir. Bu Quran)* ayələri *(kəlmələrinin fəsihliyi, quruluşunun möhkəmliyi, məzmununun xəta, ixtilaf və nəsxdən qorunması ilə)* möhkəmlənmiş, sonra isə hikmətli və xəbərdar *(Allah)* tərəfindən *(surələr, ayələr, hökmlər, əxlaqi göstərişlər və digər müxtəlif maariflərlə)* ətraflı şəkildə izah edilmiş bir kitabdır.»[1]

İkinji mətləb budur ki, Quran yeganə səmavi kitabdır ki, heç bir təhrifə uğramamışdır. Bizim səhih hədislərə əsasən etiqadımız budur ki, Quran təhrif olunmamışdır. «Səhihi-Müslüm», «Səhihi-Buxari»də Quran ayələrinin bir qisminin təhrifi haqqında hədislər mövjud olsa da, biz deyirik ki, Quran Peyğəmbərə nejə nazil olubsa, o da Əhli-beytə təhvil verib. Əli (ə) və digər imamlar Quran hafizi idilər və Quranın onların nəzarətindən çıxıb təhrif olunması fikri düzgün deyil.

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ

***«Həqiqətən bu zikri (Quranı) Biz nazil etdik və şübhəsiz, onu (təhrifdən, nəsx olunmaqdan və müddətinin sona çatmasından) Biz Özümüz qoruyarıq.»***[2]

Bu mühüm mətləbləri qeyd etdikdən sonra digər əhəmiyyətli məsələ Quranı tanımaqdır. Biz Quranı üç jəhətdən tanımalıyıq. Birinji bilməliyik ki, Quran İslam dininin möjüzəsidir. Məlum olduğu kimi hər bir dinin peyğəmbəri və o

---

[1] *Щуд суряси, айя1*
[2] *Щижр суряси, айя 9*

peyğəmbərin də insanlara haqq olduğunu sübut etmək üçün möjüzəsi vardır. Əlbəttə, İslam Peyğəmbərinin möjüzələri çox olmuşdur. Məsələn, tövhid aləminə təsərrüf etmək, ölüləri diriltmək və sairə. Lakin Quran İslam Peyğəmbərinin əbədi və ən mühüm möjüzəsidir. Bu barədə ayələr çoxdur. Onlardan İsra surəsinin 88-ji ayəsini sizin diqqətinizə çatdırmaq istəyirəm.

قُل لَّئِنِ اجْتَمَعَتِ الإِنسُ وَالْجِنُّ عَلَى أَن يَأْتُواْ بِمِثْلِ هَـذَا الْقُرْآنِ لاَ يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا

***«De: «Şübhəsiz, əgər insan və jin tayfası bu Quranın (kəlmə və məna baxımından) bənzərini gətirmək üçün bir yerə toplaşsa, hətta bir-birlərinə kömək və arxa olsalar belə, onun bənzərini gətirə bilməzlər (çünki onu vüjud, qüdrət və elm baxımından bütün varlıq aləmini əhatə etmiş bir qüvvə yaratmışdır).»[1]***

İkinji tərəf odur ki, bütün bəşəriyyət etiraf etməlidir ki, onun elmi məhduddur. Bəs insanlar elmdə olan naqisliklərini nə ilə aradan qaldıra bilərlər? Sualın javabı belədir: O da Quranın vasitəsilə olmalıdır. Bu barədə Quran özü deyir:

وَلَوْلاَ فَضْلُ اللّهِ عَلَيْكَ وَرَحْمَتُهُ لَهَمَّت طَّآئِفَةٌ مُّنْهُمْ أَن يُضِلُّوكَ وَمَا يُضِلُّونَ إِلاُّ أَنفُسَهُمْ وَمَا يَضُرُّونَكَ مِن شَيْءٍ وَأَنزَلَ اللّهُ عَلَيْكَ الْكِتَابَ وَالْحِكْمَةَ وَعَلَّمَكَ مَا لَمْ تَكُنْ تَعْلَمُ وَكَانَ فَضْلُ اللّهِ عَلَيْكَ عَظِيمًا

***«Əgər Allahın lütf və mərhəməti sənin halına şamil olmasaydı, həqiqətən onlardan bir dəstə səni (hökm çıxarmaqda) azdırmaq qərarına gəlmişdi. Halbuki onlar özlərindən başqasını azdırmaz və sənə heç bir zərər-ziyan vura bilməzlər. Allah (səma)***

[1] *Исра суряси, айя 88*

***kitab(ını) və hikməti (şəriət elmləri və əqli maarifi) sənə nazil etdi və bilmədiklərini sənə öyrətdi. Allahın sənə lütf və mərhəməti həmişə böyükdür.»***[1]

İnsan bunu dərk etməlidir ki, bütün çətinliklərində onun yeganə pənahı Qurandır.

Digər mühüm məsələ möhkəm və mütəşabih ayələri bilməkdir. Möhkəm aylərdə təfsir, şərh, izaha heç bir ehtiyaj yoxdur. Yəni Quran ayələri nejə buyurursa, onu qəbul etməliyik. Mütəşabih ayələr dedikdə isə bir ayədən iki məna, hətta daha çox məna çıxartmaq mümükün olan ayələr nəzərdə tutulur. Bu ayələrin həqiqi mənasını Quranın özündən soruşmaq lazımdır.

هُوَ الَّذِيَ أَنزَلَ عَلَيْكَ الْكِتَابَ مِنْهُ آيَاتٌ مُّحْكَمَاتٌ هُنَّ أُمُّ الْكِتَابِ وَأُخَرُ مُتَشَابِهَاتٌ فَأَمَّا الَّذِينَ في قُلُوبِهِمْ زَيْغٌ فَيَتَّبِعُونَ مَا تَشَابَهَ مِنْهُ ابْتِغَاء الْفِتْنَةِ وَابْتِغَاء تَأْوِيلِهِ وَمَا يَعْلَمُ تَأْوِيلَهُ إِلاَّ اللّهُ وَالرَّاسِخُونَ فِي الْعِلْمِ يَقُولُونَ آمَنَّا بِهِ كُلٌّ مِّنْ عِندِ رَبِّنَا وَمَا يَذَّكَّرُ إِلاَّ أُوْلُواْ الألْبَابِ

***«Bu kitabı sənə nazil edən Odur. Onun (kitabın) bir hissəsi kəlmələri aşkar (və mənası aydın) olan «möhkəm» ayələrdir ki, onlar kitabın əsası və anasıdırlar (başqa ayələrdə olan qaranlıq məqamlar onların vasitəsi ilə aradan qaldırılır). Digər bir hissəsi «mütəşabih» (bir neçə mənası olan) ayələrdir (və onların mənası məzmununun genişliyi, məfhumunun dərinliyi və ondan nəzərdə tutulan məqsədlərin çoxluğu səbəbindən ilk nəzərdə aydın deyildir və onlar «möhkəm» ayələrin və sağlam ağlın köməyi ilə təfsir olunmalıdırlar). Amma qəlblərində (haqdan) dönüklük olan kəslər, fitnəkarlıq və təvil etmək (düzgün olmayan məna vermək)***

[1] *Ниса суряси, айя113*

***üçün bu kitabın mütəşabihinə tabe olarlar. Halbuki, onun təvilini (və həqiqi mənasının nə olduğunu) Allahdan başqa heç kəs bilmir. Elmdə qüvvətli olanlar (isə) deyərlər: «Biz (möhkəm və mütəşabih olmasından və bizim mənasını bilib bilməməyimizdən asılı olmayaraq) ona iman gətirdik, (onun) hamısı bizim Rəbbimiz tərəfindəndir».***

***Bunu (Bunu) sağlam ağıl sahiblərindən başqa heç kəs başa düşməz.»***[1]

Belə bir sual yaranır ki, Allah-Təala bu ayələri insanları çaşqınlığa salmaq üçün göndərmişdirmi? Bu sualın javabı çox sadədir. Allah-Təala Quranı göndərəndə onun təfsirçilərini də göndərmişdir. Adi həyatımızda da belədir.

Bildiyiniz kimi İmam Xomeyni (r) keçmiş SSRİ prezidentinə bir məktub göndərmişdi. O bu məktubu dünyada qəbul olunmuş diplomatik qaydalara görə səfir, yaxud xariji işlər naziri vasitəsilə göndərməmişdi. İmam həmən məktubu fəlsəfə alimi Javadi Amuli vasitəsilə göndərmişdi. Çünki məktubun fəlsəfi, irfani, ijtimai mətləblərini yalnız bu mətləblərdən agah olan adam açıqlaya bilərdi. İmam ona demişdi: «Bu məktubu apar, prezidentlə görüş, oxusun və oxuduqdan sonra qaranlıq qalan yerləri səndən soruşsun, sən də onun üçün izah et.»

Allah-Təala da Quranı Peyğəmbərlə göndərmişdir ki, qaranlıq qalan yerləri bizə izah etsin.

Quranın mütəşabih ayələri bizi məjbur edir ki, sünnətdən ayrılmayaq və onu əlimizdə əsas tutaq. İmam Əli (ə) İbn Abbası xəvarijlə mübahisəyə göndərəndə ona belə tapşırıq vermişdi.

«Onlarla mübahisə edərkən Quran ayələrinə istinad etmə. Çünki Quran ayələrinin çoxu zulvujuhdur. Onlarla razılıq əldə edə bilməyəjəksən. Əgər sən onlarla mübahisədə Peyğəmbərin sünnətini ortaya qoysan, bir nətijə alajaqsan və onda onların qaçan yeri olmayajaq.»

---

[1] *Али-Имран суряси, айя 7*

Dediklərimizdən bu nətijəni alırıq ki, Quran və sünnət bir-birindən ayrılmazdır və onlardın birini götürüb digərini kənarlaşdırmaq düzgün sayılmaz.

Quranın öyrənilməsində digər əsas mətləb təfsir, təvil və tətbiqdir. Bu kəlmələrin mənasını qısa deməк istəsək, belə deyərik: Təfsir odur ki, Quranın mənalarını izah edir. Təvil odur ki, məhfum mədluli-ləfzidən mədluli vaqeiyə gətirilsin. Yəni məhfum söz dəlilindən gerçək dəlilə gətirilir. Tətbiq isə misdaqlara söykənir. Hər üçü, həm təfsir, həm təvil, həm də tətbiq bizə izah olunmalıdır. Ali-İmran surəsində oxuyuruq:

**فَأَمَّا الَّذِينَ فِي قُلُوبِهِمْ زَيْغٌ فَيَتَّبِعُونَ مَا تَشَابَهَ مِنْهُ ابْتِغَاء الْفِتْنَةِ وَابْتِغَاء تَأْوِيلِهِ**

***«Ürəklərində əyrilik olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna verməк məqsədi ilə mütəşabih ayələrə uyarlar.»***[1]

Ayənin davamında məlum olur ki, bunu Allah, elmdə qüvvətli olanlar və zikr əhli bilirlər. Bəziləri bütün alimləri elmdə qüvvətli sayırlar. Amma ən böyük təfsirçilər Əhli-beytdir. Bunu hamı qəbul edir ki, Əhli-beytdən sonra Quranın ən böyük təfsirçisi İbn Abbasdır. Peyğəmbərin (s) həm Əbu Zərə, həm də İbn Abbasa vəsiyyəti vardır. Amma görək bu vəsiyyətlər bir-birinə oxşayırmı? Peyğəmbərin dedikləri Əbu Zərə höjjətdir. Amma İbn Abbasa vəsiyyətində hər jümləsindən sonra bir Quran ayəsi deyir. Yəni İbn Abbas Quranşünas olduğuna görə sözlərini Quran ayələri ilə əsaslandırır.

Bizim hədislərimizdə elmdə qüvvətli olanlar imamlardır. İmam Baqir (ə) buyurur: «Elmdə qüvvətli mənəm»

Üçünjü qrup isə əhli-zikrdir.

---

[1] *Али-Имран суряси, айя 7*

فَاسْأَلُواْ أَهْلَ الذِّكْرِ إِن كُنتُمْ لاَ تَعْلَمُونَ

***«(Özümüzün insanlarla olan əlaqələrimizi möhkəmləndirmək üçün) səndən önjə də (mələklər, qadınlar və jinlər deyil) yalnız vəhy etdiyimiz kişilər göndərdik. Buna görə də əgər bilmirsinizsə, zikr əhlindən (öz əsrinizin din mütəxəssislərindən) soruşun (ki, İslam Peyğəmbərinin göndərilməsinin təəjjüblü olmamasını biləsiniz)».***[1]

Əhli-zikr kimlərdir? Haris İmam Əlidən (s) soruşur ki, əhli-zikr kimlərdir? İmam javab verir: «Bizik əhli-zikr»

Büitün bunlar göstərir ki, Quranı Peyğəmbərin sünnəti və Əhli-beyt olmadan dərk etmək qeyri-mümkündür.

[1] *Нящл суряси, айя 43*

# Quran təfsirinin üsulları

Quran insan üçün hidayət kitabıdır ki, insanı fərşdən ərşə aparsın və onu İlahi xilafət sarayında oturtsun. Və öz vilayət jamından ona içirtsin. Və İlahi rizvan və qürb məqamında yerləşdirsin. Quran insanın üfüqi və şaquli hidayəti üçün nazil olmuşdur; şaquli rizvan və qürbə kimi yuxarı, üfüqi insan həyatının bütün sahələrini əhatə edir.

Quran da insanın hidayəti ölçüsündə əhəmiyyətə malikdir. Çünki bütün hidayət Quranın göstərdiyi yollardır.

Düşünjə qarmaqarışıqlığı və nəzər ayrılığı fəzasında bəziləri öz nəzəriyyələrini Quran adı ilə xarakterizə etmiş və Quran ayələrinə öz əqidələrini yeritmişlər. Halbuki biz Quranın qarşısında ustadın hüzurunda şagird kimiyik.

Quran insan üçün hazırlanmış süfrədir. Lazm və düzgün deyil ki, insan öz yeməyini Quran süfrəsində yerləşdirib Quran adı ilə təbliğ etsin. Hamı Quranı dərk etməkdə azad olsa da, başlanğıjda bəzi məsələləri nəzərə almaq lazımdır.

Bu məqalədə İlahi kəlamın dərki üçün lazımi şərait və müqəddiməyə qısa nəzər salınmışdır və ümid olunur ki, bu bəhslərin müzakirəsi və genişlənməsi üçün bir pənjərə olar.

**1. Ərəb dilini bilmək**.

Quranın dili fitrət dili mühtəvasından olmasına baxmayaraq, bütün insanlar üçün hidayət kitabıdır. Amma söz baxımından Quran ərəb dilində nazil olmuşdur. Buna görə təfsirçi gərək ərəb dilinin qaydaları, ərəb dilinin ədəbi üsulları, ərəb ədəbiyyatı nəzəriyyəsi, ərəb dilinin fəsahət və bəlağəti ilə tanış olsun ki, ayənin məqsədini başa düşə bilsin. Quranın bir mərhələsi hökmlər mərhələsidir ki, dil libası olmadan da, Allahın yanındadır. Lakin Quran ərəb dilində nazil olmuşdur.

الَر كِتَابٌ أُحْكِمَتْ آيَاتُهُ ثُمَّ فُصِّلَتْ مِن لَّدُنْ حَكِيمٍ خَبِيرٍ

***«Əlif, Lam, Ra. (Mən bütün əşyaları görən Allaham. Mənim kitabım həmin bu hərflərdən təşkil olunmuşdur, amma eyni zamanda möjüzədir. Mənim kitabımın möhkəm və bu jür mütəşabih ayələri vardır. Bu hərflər Allahla Onun peyğəmbəri Məhəmməd – səlləllahu əleyhi və alihi və səlləm – arasında olan rəmzlərdir. Bu Quran) ayələri (kəlmələrinin fəsihliyi, quruluşunun möhkəmliyi, məzmununun xəta, ixtilaf və nəsxdən qorunması ilə) möhkəmlənmiş, sonra isə hikmətli və xəbərdar (Allah) tərəfindən (surələr, ayələr, hökmlər, əxlaqi göstərişlər və digər müxtəlif maariflərlə) ətraflı şəkildə izah edilmiş bir kitabdır.»*** [1]

إِنَّا جَعَلْنَاهُ قُرْآنًا عَرَبِيًّا لَّعَلَّكُمْ تَعْقِلُونَ وَإِنَّهُ فِي أُمِّ الْكِتَابِ لَدَيْنَا لَعَلِيٌّ حَكِيمٌ

***«Biz bu kitabı bəlkə (bu kitabın təqdim edildiyi ilk ümmət olan) siz (onun həqiqətləri barəsində) düşünəsiz deyə ərəbjə olan bir Quran etdik. Həqiqətən bu (Quran) Bizim yanımızda ana kitabda (Lövhi-Məhfuzda) uja məqam və möhkəm quruluş, dəqiq məzmun və mətin bəyan sahibidir»*** [2]

---

[1] *Щуд суряси, айя 1*
[2] *Зухруф суряси, айя 3,4*

**2. Quranın sinonimlərinin mənasını bilmək**

Dilin mənşəyi və onda dəyişiklik dilçilik bəhslərindəndir ki, öz yerində araşdırılmalıdır. Qeyd etmək lazımdır ki, sözlərdən bəzisi zaman keçdikjə ilkin mənasını itirmiş və başqa mənada işlənmişdir. Məsələn, «səlat» sözü həqiqətdə dua mənasındadır, lakin indiki dövrdə namaz mənasında işlənir. Ona görə də həmin dövrdə işlənən sözün mənasını bilmək lazımdır ki, ayənin düzgün dərk olunmasına kömək etsin.

**3. Ayələrin şəni nüzuluna mürajiət, İslam tarixi, peyğəmbərlərin tarixi və Quranın nazil olduğu mühitin tarixini bilmək.**

Bildiyimiz kimi Quranda ayələrin çoxu peyğəmbərlərin əhvalatı və o dövrdə baş verən hadisələr haqqında qeyd olunmuşdur. Belə ki, Quran surələrindən bəzisi Yunus, Yusif, Nuh, Hud kimi peyğəmbərlərin adı ilə adlandırılmışdır. Hətta Ənbiya adlı müstəqil bir surə də mövjuddur. Peyğəmbərlərin tarixi ilə tanışlıq təfsir edilən ayələrin dərk olunmasına xüsusi aydınlıq gətirir. Və Həmçinin Quranda elə ayələr vardır ki, İslamın başlanğıjındakı hadisələr haqqındadır. Bədr, Uhud, Xəndəq və sairə kimi Peyğəmbərin döyüşləri, qiblənin dəyişməsi, Qədir-xum və başqa hadisələr bura daxildir.

Və Peyğəmbər Əkrəmin (s) tarixi və İslamın başlanğıjındakı hadisələrlə tanışlıq insana bu ayələri yaxşı anlamağa və o ayələrin fəzasına daxil olmağa kömək edir.

Digər tərəfdən bəzi ayələr xüsusi şəni-nüzula malikdir. Məsələn, Peyğəmbərdən bir sual soruşurlar və ya bir hadisə baş verir və sonra Allah-Təala insanın həmin hadisədə hidayəti və sualına javab olaraq həmin ayələri və ya ayəni nazil etmişdir ki, onların şəni-nüzuluna diqqət etmək insana ayələrin düzgün təfsirində kömək edir.

Əlbəttə, bu məsələni də qeyd etmək lazımdır ki, şəni-nüzulun sənədləri hədishünaslıq elmi baxımından yoxlanılmalıdır

ki, düzgün olduğu təqdirdə ayələrin dərk olunmasında istifadə olunsun. Əks halda təfsirçinin ayənin dlüzgün mənasından sapınmasına səbəb olar.

**4. Quranın bütün ayələrinin həmahəngliyinə diqqət**

Hər ayənin bir məsələni xüsusi şəkil, xüsusi baxış, xüsusi ahənglə çatdırmasına əsasən həmin ahəng və şəkdlə «siyaq» deyilir.

Məsələn, bir ayə şiddət məqamındadır, deyirlər onun siyaqı şiddətdir. Yaxud əgər ayə əta və mərhəmət haqqındadırsa, deyirlər siyaqı mərhəmətdir.

Və bəzi jümlələrin məqamlarında mənası fərqlənir ki, biz özümüz də danışıq dilində bəzi kəlmələri müxtəlif məqamlarda işlədirik. Siyaqa diqqət etmək jümlənin münasib mənasını başa düşməyə kömək edir.

**5. Məkki və Mədəni ayələri tanımaq (Quranın nazil olma tarixini bilmək)**

Quran ayələri bir baxımdan də iki yerə bölünür: 1) Məkki, 2) Mədəni

Quranşünas alimləri arasında bunların tanınmasında ixtilaf mövjuddur ki, bu iki istilahın təyinində üç nəzəriyyəyə diqqət yetirilir.

1) Zaman nəzəriyyəsi: Hijrətdən əvvəl nazil olan ayələr Məkki, hijrətdən sonrakılar isə Mədəni adlanır.

2) Məkan nəzəriyyəsi: Məkkədə nazil olan ayələr Məkki, Mədinədə nazil olanlar isə Mədənidir.

3) Xitab nəzəriyyəsi: Hansı surədə يَا أَيُّهَا الَّذِينَ آمَنُوا xitabı olsa,Mədəni, hansı surədə يَا أَيُّهَا النَّاسُ olsa, Məkkidir.

Əlbəttə, üstün nəzəriyyə həmin birinji nəzəriyyədir. Ayə və surələrin Məkki və Mədəni olmasına diqqət ayələrin nasix və mənsux olmasının düzgünlüyünü müəyyən etməyə səbəb olur, ayənin mənasının düzgün dərkini xeyli asanlaşdırır.

Nümunə olaraq aşağıdakıları deyə bilərik:

Məkki ayələrin zəkat kəlməsi zəkat istilahı mənasında deyil, mütləq sədaqət mənasındadır. Çünki zəkat hökmü Mədinədə nazil olmuşdur.

Mümkündür ki, bir surə Məkki olsun, amma onun içində bir ayə və ya ayələr Mədəni olsun ki, bu məsələyə diqqətsizlik ayənin mənasını düzgün dərk etməməyə səbəb olar.

Necə ki, bir müəllif bu məsələyə diqqət etmədiyindən deyir:«Şura surəsinin 23-jü ayəsi Peyğəmbərin ailəsi haqqında nazil olmamışdır.

ذَلِكَ الَّذِي يُبَشِّرُ اللَّهُ عِبَادَهُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى وَمَن يَقْتَرِفْ حَسَنَةً نَّزِدْ لَهُ فِيهَا حُسْنًا إِنَّ اللَّهَ غَفُورٌ شَكُورٌ

***«Bu, Allahın, iman gətirərək yaxşı işlər görmüş bəndələrini müjdələdiyi həmin şeydir. De: «Sizdən bunun (ilahi tapşırıqların çatdırılmasının) müqabilində qohumlarım barəsində (qəlb və əməldə olan) məhəbbətdən başqa bir muzd istəmirəm.» Kim bir yaxşı iş görsə (daha artıq məhəbbət göstərsə), Biz onun üçün həmin işdə yaxşılıq (savab) artırarıq (onun təbii mükafatına ən azı on dəfə artıq əlavə edərik). Həqiqətən Allah bağışlayan və qədirbiləndir.». Səbəbi isə budur ki, surə Məkkidir və o zaman belə bir işi xahiş bəlağətə yaxın deyil.»***

Halbuki, təfsirçilərin dediklərinə diqqət edilsə və ayə haqqında araşdırma aparılsa, aydın olar ki, bu ayə Məkki surədə yerləşsə də, özü Mədənidir.

**6. Surənin məqsədinə tam nəzər salmaq və onun əsas məqsədinə diqqət yetirmək**

Surə lüğətdə şəhərin hasarına deyirlər ki, qədimdə şəhəri əhatəyə alırdılar. Sonra isə Quran ayələrinin məjmuəsinə aid edildi. Hər bir surədə müxtəlif bəhslər diqqətə çatdırılsa da, hər

bir surənin özünə xas məqsədi və müəyyən hədəfi vardır;tarix, əqidə, məsəl, hökmlər və sairə surədə toplanmışdır. Lakin surə həkimin resepti kimidir ki, o müxtəlif dərmanlarla müəyyən bir xəstəlik müalijə olunur. Məsələn, Nur surəsində məqsəd ijtimai iffəti qorumaqdır ki, Allahı tanıma, məadı tanıma, izdivaj hökmləri, hijab, Lian jərəyanı, ittiham hökmü və sairə bu məqsədin təmin olunması üçün olan bəhslərdir. Nə üçün insan ağıl, qəlbə malik varlıqdır? Bütün bunlar üçün həmin mövzuda xüsusi söz vardır və insanı tam vüjudu ilə hidayət edir.

**7. Quranın üslubu və bəyan xüsusiyyətlərini bilmək**

1) Sadə bəyan və dərin bəyan

Nəhl surəsinin şərif 125-ji ayəsinə əsasən üçtərəfli bəyan və dəvət üslubu dərk olunur.

**ادْعُ إِلِى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ وَجَادِلْهُم بِالَّتِي هِيَ أَحْسَنُ إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِمَن ضَلَّ عَن سَبِيلِهِ وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ**

**«(İnsanları) Rəbbinin yoluna hikmətli məntiq, qane edən dəlillər və gözəl, oyadıjı və ibrətamiz nəsihətlə dəvət et və onlarla (müxaliflərlə) ən gözəl tərzdə mübahisə et. (Sənin vəzifən budur. Onlara gəldikdə isə) əlbəttə, sənin Rəbbin Özü Onun yolundan azanları daha yaxşı bilir və doğru yolda olanları daha yaxşı tanıyır.»**

**A)** Hikmət

**B)** Gözəl moizə

**V)** Ən gözəl mübahisə

Quran mütəfəkkir insanlar üçün hikmətlə, orta və adi adamlarla gözəl moizə ilə və nəzər, mübahisə əhli olan insnlarla ən gözəl mübahisə ilə danışır.

Zumər surəsinin 27-ji ayəsinə əsasən başa düşürük ki, Quran özünün hər mətləbi üçün elmi bəyan və dəqiq izahdan əlavə misal da çəkir ki, əhali kütləsi də başa düşsün.

وَلَقَدْ ضَرَبْنَا لِلنَّاسِ فِي هَذَا الْقُرْآنِ مِن كُلِّ مَثَلٍ لَّعَلَّهُمْ يَتَذَكَّرُونَ

***«Doğrudan da Biz bu Quranda insanlar üçün bəlkə ibrət götürdülər deyə hər jür məsəl çəkdik.»***

Quran məsəl çəkmək yolu ilə çalışır ki, yüksək mərifətlərin çoxunu endirsin ki, adi adamlar məsəllərin kölgəsində yüksəlsinlər, moizədən bəhrələnsinlər, əhsən jidaldan bəhrə götürsünlər və hikmətlə danışsınlar.

Bu üslubla Quran həm hamı üçündür, həm də fərdi əvvəldən hikmətə kimi tərbiyələndirir.

Mətləbin aydın olması üçün bir neçə nümunə göstəririrk:

Ənam surəsinin 59-ju ayəsi təmsillə yüksək mətləblər və ali əzəməti hamı üçün bəyan edir.

وَعِندَهُ مَفَاتِحُ الْغَيْبِ لاَ يَعْلَمُهَا إِلاَّ هُوَ وَيَعْلَمُ مَا فِي الْبَرِّ وَالْبَحْرِ وَمَا تَسْقُطُ مِن وَرَقَةٍ إِلاَّ يَعْلَمُهَا وَلاَ حَبَّةٍ فِي ظُلُمَاتِ الأَرْضِ وَلاَ رَطْبٍ وَلاَ يَابِسٍ إِلاَّ فِي كِتَابٍ مُّبِينٍ

***«Qeyb xəzinələrinin («ol!» kəlməsinin altında olan) açarı (və onların həqiqətləri) Onun yanındadır. Onları Ondan başqa heç kəs bilmir. (Varlıq aləminə qədəm qoyanlardan) quruda və dəryada olanı bilir. Yerə elə bir yarpaq düşmür ki, O, onu bilməsin. Həmçinin (Onun əzəli elmində və) aydın olan kitabda mövjud olmadan yerin qaranlıqlarında (altında) bir toxum və (meyvə və dənli bitkilərdən) heç bir quru və yaş yerə düşmür.»***

2) Təsdiq və inkar üslubu

Allah-Təalanın Quranda insan üçün bəyan etdiyi mühüm məsələlərdən biri əfali tövhiddir. İnsan nə mütləq azaddır, nə də məjbur. İnsan Allahın izni ilə İlahi xilafəti öhdəsinə ala və İlahi izn ilə şəfaətçi ola bilər.

Quran bir ayədə inkar üslubu ilə, digər ayədə isə təsdiq üslubu ilə o məqamın insandan zati inkarına və ərəzi olmasına işarə etmişdir ki, insan Allahın əzəmətini dərk etsin və bütün hallarda özünün heç olmasını hiss etsin.

Nümunə üçün bəzi qeyb ayələrini qeyd edirik:

قُل لاَّ أَقُولُ لَكُمْ عِندِي خَزَآئِنُ اللّهِ وَلا أَعْلَمُ الْغَيْبَ وَلا أَقُولُ لَكُمْ إِنِّي مَلَكٌ إِنْ أَتَّبِعُ إِلاَّ مَا يُوحَى إِلَيَّ قُلْ هَلْ يَسْتَوِي الأَعْمَى وَالْبَصِيرُ أَفَلاَ تَتَفَكَّرُونَ

***«De: «Mən sizə Allahın xəzinələri mənim yanımdadır demirəm (şeyləri «ol» deməklə yaratmaq və bir şey istəyənlərin ehtiyajını əldəki miqdar azalmadan təmin etmək qüdrətim yoxdur), qeyb elmini də bilmirəm və (həmçinin) sizə «mən mələyəm» demirəm. Mən yalnız mənə edilən vəhyə tabe oluram. (Buna görə də mən vəhyə tabe olduğum üçün gözüaçıq və hər şeyi görənəm, vəhydən üz döndərən hər bir kəs isə kordur.)» De: «Korla görən birdirlərmi? Bəs niyə fikirləşmirsiniz?»***[1]

وَلاَ أَقُولُ لَكُمْ عِندِي خَزَآئِنُ اللّهِ وَلاَ أَعْلَمُ الْغَيْبَ وَلاَ أَقُولُ إِنِّي مَلَكٌ وَلاَ أَقُولُ لِلَّذِينَ تَزْدَرِي أَعْيُنُكُمْ لَن يُؤْتِيَهُمُ اللّهُ خَيْرًا اللّهُ أَعْلَمُ بِمَا فِي أَنفُسِهِمْ إِنِّي إِذًا لَّمِنَ الظَّالِمِينَ

***«Və mən sizə Allahın (malların çoxalması, istəklərin yerinə yetirilməsi, xəstələrin şəfası kimi rəhmət) xəzinələrinin mənim***

[1] Янам суряси, айя 50

***ixtiyarımda olmasını demirəm, mən qeybi də bilmirəm, mən mələyəm demirəm və gözlərinizin xarlıq və həqirliklə baxdığı kəslər haqqında «Allah onlara heç vaxt bir xeyir verməyəjəkdir» də demirəm. Allah onların batinlərində olanı daha yaxşı bilir. Əgər elə desəm, mütləq zalımlardan olaram.»*** *(Ənam surəsinin 50-ji ayəsinə mürajiət edin.)»*[1]

عَالِمُ الْغَيْبِ فَلَا يُظْهِرُ عَلَى غَيْبِهِ أَحَدًا

***«(Allah) qeybi biləndir və öz qeybinin sirlərindən heç kimi agah etməz.»***[2]

وَمَا هُوَ عَلَى الْغَيْبِ بِضَنِينٍ

***«Və o qeyb (vəhy vasitəsilə aldıqları barəsində) xəsis deyildir (ki, onu gizlətsin, dəyişdirsin, yaxud təxirə salsın və ya qarışdırsın).»***[3]

Bu ayələrə əsasən dərk edirik ki, Allah istəmir desin ki, heç kəs, hətta Allah övliyaları da hal-hazırda qeybi bilmirlər. Çünki özü başqa ayələrdə təsdiq etmişdir. Bunu inkar etməklə demək istəyir ki, bu Allaha məxsusdur və İlahi iznlə olmalıdır.

Yəni Allah zatən qeybə alimdir və qeybə elmin həqiqi maliki Allahdır. Qeybi bilmə bir şəxsin digər şəxsdən öyrənməsi ilə olmur. Allah kimə istəsə, qeyb elmini əta edər, yəni qeyb elmi Allaha məxsusdur. Belə deyil ki, əgər Allah kimisə qeybə alim etmək istəsə, bajarmaz.

Beləjə isbat və inkar məna kəsb edir.

Ayələrin mənası budur ki, kimsə adi elmlərdən fərqli olaraq təlim və təhsil yolları ilə qeyb elmini öyrənə bilməz.

Əgər bir ayədə şəfaət inkar olunmuş, digərində isbat olunmuşsa da, üçünjü ayədə bu təsdiq və inkar məna kəsb

---

[1] *Щуд суряси, айя 31*
[2] *Жинн суряси, айя 26*
[3] *Тяквир суряси, айя 24*

etmişdir.

Təfsirçinin bu üslubla tanışlığı onu tez-tələsik fikirlərdən xilas edər.

Belə bəhslər hidayət ayələrində də mövjuddur. Hidayət məxsusi olsa da, başqaları iznlə hadi olurlar.

Əlbəttə, bu ayələrin başqa bir injə mənası da ola bilər ki, qeybi bilən Allahdır, izn almış insan Onun məzhəridir. Şəfaətçi Allahdır və izn almış şəfi insan Onun məzhəridir. Hidayətçi Odur, peyğəmbər və övliyalar Onun məzhəridirlər.

يَا أَيُّهَا النَّاسُ أَنتُمُ الْفُقَرَاءُ إِلَى اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ

***«Ey insanlar, sizin hamınız Allaha möhtajsınız. Allah isə (heç kəsə) möhtaj deyil. (Onun) sifətləri və işləri öyülmüşdür (O, bəşərin xaliqi, qoruyujusu və ruzi verənidir, beləliklə məxluqlar tamamilə möhtaj, O isə əsla möhtaj deyil).»***[1]

Bu xitab insanadır ki, insan hər bir halda fəqirdir və zatən heç bir şeyi yoxdur, nəyi varsa Allahdandır.

Allah belə ayələr vasitəsilə insanı başa salmağa çalışır ki, sənin nəyin varsa məndəndir.

3) Hidayət üslubu

Quran rəsmi bir dərs kitabı deyil ki, hər mövzunu ayrıja bir fəsildə, nizamlı hissələr və bəhslərlə araşdırsın. Quranın üslubu hadisə və jərəyanlarda hidayət üslubudur.Quran insanları həyatda, yaşayışda hidayət edir. Buna görə həkimlərin reseptinə bənzəyir ki, insanlar üçün xəstəlik və zəifliklərinə görə dərman müəyyən edir. Mümkündür ki, bəzi dərmanlar olsun ki, başqa xəstəliyin müalijəsinə xidmət etsin. Buna görə Quranda bir mətləbin yönümləri pərakəndədir və o mövzuda ayələri toplamaqla yüksək maarifə çatmaq olar. Bəziləri bu injəliyi bilmədən bir ayədən yapışmış və bu mözuda digər ayələri nəzərə almamışlar və ayələrdən səhv mətləblər əldə etmişlər. Məsələn,

---

[1] *Фатир суряси, айя 15*

a) Əhzab surəsinin 33-jü ayəsinə əsasən nətijə almaq olar ki, Əhli-beyt(ə) Quran təfsirçisidirlər.

وَقَرْنَ فِي بُيُوتِكُنَّ وَلَا تَبَرَّجْنَ تَبَرُّجَ الْجَاهِلِيَّةِ الْأُولَى وَأَقِمْنَ الصَّلَاةَ وَآتِينَ الزَّكَاةَ وَأَطِعْنَ اللَّهَ وَرَسُولَهُ إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

***«Vüqarla öz evlərinizdə qərar tutun, ilkin jahiliyyət dövründəki (qadınlar) çıxdığı kimi (bəzək-düzəkli, hijaba riayət etmədən) jamaat arasına çıxmayın, namaz qılın və zəkat verin, (şəriət hökmlərində) Allaha və (ilahi rəhbərliyə aid məsələlərdə) Onun Rəsuluna itaət edin, həqiqətən, Allah (xüsusi yaradılış iradəsi ilə) siz (Peyğəmbərin) Əhli – Beyt(in)dən (əqidə, əxlaq və əməllərdə) hər jür (növ) pisliyi təmizləmək və sizi – paklığın bütün jəhətlərində – pak etmək istəyir.»***

b) Risalət əjri ayələrindən belə nətijə almaq olar ki, bu əjr insanın Allaha tərəf yol tapmasıdır və Əhli-beyti sevmək həmin Əhli-beytə tərəf getməkdir.

v) Qurandakı şəfaət ayələrindən nətijə almaq olar ki, Qiyamətdə şəfaət vardır, amma onun da şərtləri mövjuddur. Bu şərtlər həm şəfaət edən, həm şəfaət olunan, həm də əmələ aiddir.

Birinji qrup- Şəfaəti inkar edən ayələr

وَاتَّقُواْ يَوْماً لاَّ تَجْزِي نَفْسٌ عَن نَّفْسٍ شَيْئاً وَلاَ يُقْبَلُ مِنْهَا شَفَاعَةٌ وَلاَ يُؤْخَذُ مِنْهَا عَدْلٌ وَلاَ هُمْ يُنصَرُونَ

***«Və o gündən qorxun ki, heç kəs başqasının haqqını ödəyə, bir diləyi yerinə yetirə və bir əzabı dəf edə bilməyəjək və heç kimin şəfaəti qəbul olunmayajaq, nə kimdənsə (əzabdan qurtulmaq***

***üçün) bir əvəz alınajaq və nə də onlara bir kömək göstəriləjəkdir.»[1]***

İkinji qrup- Yəhudilərin baxışında şəfaəti inkar edən ayələr.

**وَاتَّقُواْ يَوْماً لاَّ تَجْزِي نَفْسٌ عَن نَّفْسٍ شَيْئاً وَلاَ يُقْبَلُ مِنْهَا عَدْلٌ وَلاَ تَنفَعُهَا شَفَاعَةٌ وَلاَ هُمْ يُنصَرُونَ**

***«Və heç kəsin bir başqasının əzabını dəf edə bilməyəjəyi, (əzabın yerinə) ondan bir əvəzin qəbul olunmayajağı, şəfaətin ona heç bir fayda verməyəjəyi və onlara heç bir köməyin də göstərilməyəjəyi gündən çəkinin»[2]***

Onların əqidəsi belədir ki, biz peyğəmbərlərin övladıyıq və bizim günahımızın yükü nə qədər ağır olsa da, atalarımız bizə şəfaət edəjək.

**وَقَالَتِ الْيَهُودُ وَالنَّصَارَى نَحْنُ أَبْنَاء اللّهِ وَأَحِبَّاؤُهُ قُلْ فَلِمَ يُعَذِّبُكُم بِذُنُوبِكُم بَلْ أَنتُم بَشَرٌ مِّمَّنْ خَلَقَ يَغْفِرُ لِمَن يَشَاء وَيُعَذِّبُ مَن يَشَاء وَلِلّهِ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ وَمَا بَيْنَهُمَا وَإِلَيْهِ الْمَصِيرُ**

***«Yəhudi və xaçpərəstlər dedilər: «Biz Allahın oğulları və Onun sevimliləriyik». De: «Onda bəs nə üçün Allah sizə günahlarınıza görə əzab verir?» Əksinə, siz də Onun yaratdıqlarından bir bəşərsiniz. İstədiyi şəxsi (rəhmətinin tələbinə əsasən) bağışlayır və istədiyi şəxsə (ədalətinin tələbi əsasında) əzab verir. Göylərin, yerin və onların arasındakıların həqiqi sahibi Odur və qayıdış Ona tərəfdir.»[3]***

---

[1] *Бягяря суряси, айя 48*
[2] *Бягяря суряси, айя 123*
[3] *Маидя суряси, айя 18*

وَقَالُواْ لَن يَدْخُلَ الْجَنَّةَ إِلاَّ مَن كَانَ هُوداً أَوْ نَصَارَى تِلْكَ أَمَانِيُّهُمْ قُلْ هَاتُواْ بُرْهَانَكُمْ إِن كُنتُمْ صَادِقِينَ بَلَى مَنْ أَسْلَمَ وَجْهَهُ لِلّهِ وَهُوَ مُحْسِنٌ فَلَهُ أَجْرُهُ عِندَ رَبِّهِ وَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ

***«Və dedilər: «Jənnətə yəhudi, ya xristiandan başqa əsla heç kəs daxil olmayajaqdır.» Bu, onların xam xəyallarıdır. De: «Əgər doğruçusunuzsa dəlil-sübutunuzu gətirin.» Bəli, özünün bütün vüjudunu Allaha təslim edən kəs, yaxşı əməl sahibi olsa, onun üçün Rəbbinin yanında məqamına uyğun bir mükafat vardır. Onlar üçün (axirətdə heç) bir qorxu yoxdur və onlar qəmgin olmayajaqlar.»[1]***

Üçünjü qrup- Qiyamət günündə kafirlər qrupu üçün şəfi və şəfaətçinin olmadığı və ya şəfaətçilərin şəfaətinin onların halına fayda verməyəjəyini deyən ayələr.

هَلْ يَنظُرُونَ إِلاَّ تَأْوِيلَهُ يَوْمَ يَأْتِي تَأْوِيلُهُ يَقُولُ الَّذِينَ نَسُوهُ مِن قَبْلُ قَدْ جَاءتْ رُسُلُ رَبِّنَا بِالْحَقِّ فَهَل لَّنَا مِن شُفَعَاء فَيَشْفَعُواْ لَنَا أَوْ نُرَدُّ فَنَعْمَلَ غَيْرَ الَّذِي كُنَّا نَعْمَلُ قَدْ خَسِرُواْ أَنفُسَهُمْ وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ

***«Yoxsa onlar onun təvil və yozumundan başqa bir şey gözləyirlər? (Onlar Quranın jəza və mükafat vədlərinin Qiyamətdə eynilə gerçəkləşməsindən başqa şey gözləyirlər?) Onun təvili gələn gün onu əvvəldən unutmuş kəslər «doğrudan da Rəbbimizin peyğəmbərləri bizə həqiqəti gətirdilər (lakin biz qəbul***

---

[1] *Бягяря суряси, айя 111,112*

***etmədik), buna görə də, görəsən (bu gün) bizim üçün bizə şəfaət edəjək şəfaətçilər varmı, yaxud etdiklərimizdən qeyrilərini yerinə yetirməyimiz üçün (dünyaya) qaytarıla bilərikmi?» deyəjəklər. (Xeyr,) onlar (həmin gün) şübhəsiz özlərini ziyana uğratmışlar və iftira etdikləri (yalandan Allaha şərik qoşduqları) şey onların gözlərindən itib.»***[1]

إِذْ نُسَوِّيكُم بِرَبِّ الْعَالَمِينَ وَمَا أَضَلَّنَا إِلَّا الْمُجْرِمُونَ فَمَا لَنَا مِن شَافِعِينَ وَلَا صَدِيقٍ حَمِيمٍ

***«Çünki sizi aləmlərin Rəbbi ilə bərabər tuturduq». «Bizi yalnız günahkarlar (fəsad törədən alimlər, zalım hakimlər və azğın dostlar) azdırdılar». «İndi, (bu gün) bizim nə bir şəfaət edənimiz, nə də mehriban və səmimi bir dostumuz var».***[2]

Dördünjü qrup-Bütlərin şəfaətçi olmasını tənqid edən ayələr.

وَلَقَدْ جِئْتُمُونَا فُرَادَى كَمَا خَلَقْنَاكُمْ أَوَّلَ مَرَّةٍ وَتَرَكْتُم مَّا خَوَّلْنَاكُمْ وَرَاء ظُهُورِكُمْ وَمَا نَرَى مَعَكُمْ شُفَعَاءكُمُ الَّذِينَ زَعَمْتُمْ أَنَّهُمْ فِيكُمْ شُرَكَاء لَقَد تَّقَطَّعَ بَيْنَكُمْ وَضَلَّ عَنكُم مَّا كُنتُمْ تَزْعُمُونَ

***(Müşriklər Bərzəx aləminə daxil olan kimi, həmçinin onlar Qiyamət səhnəsinə ilk dəfə qədəm qoyan zaman onlara belə xitab ediləjək:) Həqiqətən Bizim yanımıza sizi yaradılışın əvvəlində (dünyada) yaratdığımız kimi tək gəldiniz və sizə əta etdiklərimizi arxada qoydunuz. (Bizim rübubiyyətimizdə və) özünüz(ün ibadətiniz)də şəriklər güman etdiyiniz şəfaətçiləri sizinlə görmürük! Şübhəsiz, aranızdakı bağlılıqlar qırılmış və (Bizim***

---

[1] *Яраф суряси, айя 53*
[2] *Шуяра суряси, айя 98-101*

*şəriklərimiz olmalarını) güman etdiyiniz şey nəzərinizdən itmişdir».*[1]

وَيَعْبُدُونَ مِن دُونِ اللّهِ مَا لاَ يَضُرُّهُمْ وَلاَ يَنفَعُهُمْ وَيَقُولُونَ هَؤُلاء شُفَعَاؤُنَا عِندَ اللّهِ قُلْ أَتُنَبِّئُونَ اللّهَ بِمَا لاَ يَعْلَمُ فِي السَّمَاوَاتِ وَلاَ فِي الأَرْضِ سُبْحَانَهُ وَتَعَالَى عَمَّا يُشْرِكُونَ

*«Onlar Allahın yerinə onlara nə bir zərər yetirən və nə də bir mənfəət verən şeylərə ibadət edir və «bunlar Allah yanında bizim şəfaətçilərimizdir» deyirlər. De: «Allaha nə göylərdə və nə də yerdə (guya) xəbəri olmayan bir şeydən xəbər verirsiniz?! O, şərik qoşduqları şeydən pak və ujadır».*[2]

أَأَتَّخِذُ مِن دُونِهِ آلِهَةً إِن يُرِدْنِ الرَّحْمَن بِضُرٍّ لاَّ تُغْنِ عَنِّي شَفَاعَتُهُمْ شَيْئًا وَلاَ يُنقِذُونِ

*«Ondan qeyri məbudlaramı ibadət edim? Əgər Rəhman (olan Allah) mənə bir zərər və ziyan vurmaq istəsə, onların şəfaətləri məndən heç bir şeyi uzaqlaşdıra bilməz və mənə nijat verə bilməzlər».*[3]

Beşinji qrup- elə ayələrdir ki, şəfaəti Allaha məxsus bilirlər və deyirlər ki, şəfaət bütünlüklə Allaha məxsusdur.

قُلْ إِنِّيَ أَخَافُ إِنْ عَصَيْتُ رَبِّي عَذَابَ يَوْمٍ عَظِيمٍ

*De: «Şübhəsiz, əgər mən də Rəbbimə qarşı itaətsizlik etsəm, böyük günün əzabından qorxaram.»*[4]

وَذَرِ الَّذِينَ اتَّخَذُواْ دِينَهُمْ لَعِبًا وَلَهْوًا وَغَرَّتْهُمُ الْحَيَاةُ الدُّنْيَا

---

[1] *Янам суряси, айя 94*
[2] *Йунус суряси, айя 18*
[3] *Йасин суряси, айя 23*
[4] *Янам суряси, айя 15*

وَذَكِّرْ بِهِ أَن تُبْسَلَ نَفْسٌ بِمَا كَسَبَتْ لَيْسَ لَهَا مِن دُونِ اللّهِ وَلِيٌّ وَلاَ شَفِيعٌ وَإِن تَعْدِلْ كُلَّ عَدْلٍ لاَّ يُؤْخَذْ مِنْهَا أُوْلَئِكَ الَّذِينَ أُبْسِلُواْ بِمَا كَسَبُواْ لَهُمْ شَرَابٌ مِّنْ حَمِيمٍ وَعَذَابٌ أَلِيمٌ بِمَا كَانُواْ يَكْفُرُونَ

***«Öz dinlərini oyun-oyunjaq və əylənjə sayanları və dünya həyatının aldatdığı şəxsləri boşla. Bu Quran vasitəsilə öyüd ver ki, məbada (axirət günü) kimsə Allahdan başqa bir başçı, yardımçı və şəfaətçisi olmayan halda kəsb etdiyinin jəzası olaraq həlakətə təslim və (İlahi) rəhmətdən naümid olsun. O, (günahlarının müqabilində) hər nə fidyə və əvəz versə, ondan qəbul olunmaz. Onlardır kəsb etdiklərinin müqabilində həlakətə təslim və (İlahi) rəhmətdən naümid olanlar! Onlar üçün küfrlərinin (və nemətlərə nankor olmalarının) jəzası olaraq qaynar sudan içki və ağrılı bir əzab vardır.»***[1]

قُل لِّلَّهِ الشَّفَاعَةُ جَمِيعًا لَّهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ ثُمَّ إِلَيْهِ تُرْجَعُونَ

***De: «Şəfaət və vasitəçilik bütünlüklə (istər səbəb və nətijələr arasındakı ijbari vasitəçiliklər, istərsə də axirət aləmindəki şəfaətlər) Allaha məxsusdur. (Çünki,) həqiqi mülkiyyət və göylərin və yerin hakimiyyəti Ona məxsusdur. (Ona görə ki, hər bir şeyin yaradılışı, qorunması, idarə edilməsi və yox edilməsi Onun əlindədir.) Sonra sizin hamınız Ona tərəf qaytarılajaqsınız.»***[2]

Altınjı qrup- elə ayələrdir ki, Allahdan qeyrisinin şəfaətini şərtlərlə də olsa şübhəsiz bir əsas kimi qəbul edirlər. Onun

---

[1] *Янам суряси, айя 70*
[2] *Зумяр суряси, айя 44*

mühüm şərti budur ki, şəfaət Allahın izni ilə olmadan heç vaxt bir təsir etməyəjək.

**اللّهُ لاَ إِلَهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ لاَ تَأْخُذُهُ سِنَةٌ وَلاَ نَوْمٌ لَّهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ مَن ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلاَّ بِإِذْنِهِ يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلاَ يُحِيطُونَ بِشَيْءٍ مِّنْ عِلْمِهِ إِلاَّ بِمَا شَاء وَسِعَ كُرْسِيُّهُ السَّمَاوَاتِ وَالأَرْضَ وَلاَ يَؤُودُهُ حِفْظُهُمَا وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ**

***«Tək olan Allahdır ki, Ondan başqa bir məbud yoxdur! (Öz zatı ilə var olan) diri və (varlıq aləmini) bərqərar saxlayan qadir və əbədidir. Onu əsla nə mürgü tutar, nə də yuxu! (Yaradılış, qorumaq, idarə etmək və yox etmək Onun istəyindən asılı olduğu üçün) göylərdə və yerdə olanların hamısı (göylər və yer də daxil olmaqla) Ona məxsusdur. İzni olmadan Onun hüzurunda kim vasitəçilik və şəfaət (bu dünyada səbəblərlə nətijələr arasında qeyri-ixtiyari vasitəçilik, o dünyada isə əməllərin jəzasının ləğvi və savabların artırılması üçün olan ixtiyari şəfaət) edə bilər?! İnsanların qarşısında olanı da, arxalarında olanı da (dünyanın keçmiş və gələjək hadisələrini) bilir və onlar Onun elmindən Onun istədiyindən başqa heç bir şeyi bilə bilməzlər. Onun (səltənət və rübubiyyət) kürsüsü göyləri və yeri əhatə etmişdir. Onları (göyləri və yeri) qoruyub saxlamaq Onun üçün çətin və yoruju deyildir. O, çox uja və böyükdür.»***[1]

[1] *Бягяря суряси, айя 255*

إِنَّ رَبَّكُمُ اللّهُ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ فِي سِتَّةِ أَيَّامٍ ثُمَّ اسْتَوَى عَلَى الْعَرْشِ يُدَبِّرُ الأَمْرَ مَا مِن شَفِيعٍ إِلاَّ مِن بَعْدِ إِذْنِهِ ذَلِكُمُ اللّهُ رَبُّكُمْ فَاعْبُدُوهُ أَفَلاَ تَذَكَّرُونَ

***«Həqiqətən sizin Rəbbiniz göyləri və yeri altı gün(ə bərabər olan bir müdət)də (yaxud altı gejə və gündüzdə, ya da altı mərhələdə) yaradan, sonra taxta (qüdrət və tədbir taxtına) hakim olan Allahdır. İşi (yaradılış işini) daim (səbəb-nətijə qanunu əsasında) idarə edir. (Dünyanın səbəb və nətijələri arasında) Onun izni olmadan heç bir şəfaətçi (vasitə) yoxdur. Budur Rəbbiniz olan Allah. Buna görə də Ona ibadət edin. Heç öyüd-nəsihət almırsınız?»***[1]

Bu ayələr qrupuna həmçinin Məryəm surəsinin 87-ji ayəsi, Taha surəsinin 109-ju ayəsi və Səba surəsinin 23-jı ayələrini misal çəkmək olar.

Yeddinji qrup- Qiyamət günündə şəfaət edəjək şəfaətçilərin xüsusiyyətlərini təyin edən ayələr.

وَكَم مِّن مَّلَكٍ فِي السَّمَاوَاتِ لَا تُغْنِي شَفَاعَتُهُمْ شَيْئًا إِلَّا مِن بَعْدِ أَن يَأْذَنَ اللَّهُ لِمَن يَشَاء وَيَرْضَى

***«Göylərdə neçə-neçə mələklər (var) ki, onların (bu dünyanın yaradılış işləri və o dünyanın günahkarları barəsindəki) şəfaət və vasitəçilikləri heç bir fayda verməz. (Bu) yalnız Allah (şəfaət etməsini və ya şəfaət olunmasını) istədiyi və razılıq verdiyi kəsə izn verdikdən sonra (mümkündür).»***[2]

---

[1] *Йунус суряси, айя 3*

[2] *Няжм суряси, айя 26*

الَّذِينَ يَحْمِلُونَ الْعَرْشَ وَمَنْ حَوْلَهُ يُسَبِّحُونَ بِحَمْدِ رَبِّهِمْ وَيُؤْمِنُونَ بِهِ وَيَسْتَغْفِرُونَ لِلَّذِينَ آمَنُوا رَبَّنَا وَسِعْتَ كُلَّ شَيْءٍ رَّحْمَةً وَعِلْمًا فَاغْفِرْ لِلَّذِينَ تَابُوا وَاتَّبَعُوا سَبِيلَكَ وَقِهِمْ عَذَابَ الْجَحِيمِ

***«(Haqqın hökmdarlıq yeri və dünyanın idarə olunması fərmanlarının verilmə məkanı olan) Ərşi daşıyanlar (mələklər) və onun ətrafında olanlar Rəbblərinə sitayiş etməklə yanaşı Onu pak sifətlərlə mədh edər, Ona (öz məqamlarına məxsus) iman gətirər, (insanlardan) iman gətirmiş kəslər üçün bağışlanma diləyər (və deyər)lər: «Ey Rəbbimiz! Rəhmət və elmin hər şeyi əhatə etmişdir. Odur ki, tövbə edərək (etiqad və əməldə) Sənin yolunu gedənləri bağışla və onları Jəhənnəm əzabından qoru!»[1]***

Apardığımız araşdırmalara əsasən deyə bilərik ki, Quran bəzi şəfaətləri qəbul edir, bəzilərinin isə qəbul etmir.

**Q)** Elmi kitablarda yayılmış nizamdan çıxmaq

Quran insanı hidayət etmək üçün bəzi yerlərdə bir sualın javabı əvəzinə başqa suala javab verir ki, bu sualın həmin şəkildə soruşulmalı olmadığını demək istəyir.

يَسْأَلُونَكَ مَاذَا يُنفِقُونَ قُلْ مَا أَنفَقْتُم مِّنْ خَيْرٍ فَلِلْوَالِدَيْنِ وَالأَقْرَبِينَ وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ وَمَا تَفْعَلُواْ مِنْ خَيْرٍ فَإِنَّ اللّهَ بِهِ عَلِيمٌ

***«Səndən (Allah yolunda) nə xərjləmələrini soruşurlar, de: «(Malın növü mühüm deyil, mühüm odur ki,) xərjlədiyiniz mal***

---

[1] *Гафир суряси, айя7*

***ata, ana, yaxınlar, yetimlər, yoxsullar və yolda qalmışlar üçün olsun. Şübhəsiz Allah etdiyiniz hər bir yaxşı işi bilir.»***[1]

Həmçinin görürsən jümlənin tərzini bir yerdə dəyişir ki, bu dəyişmənin özü də hidayətə xidmət edir.

يَوْمَ لَا يَنفَعُ مَالٌ وَلَا بَنُونَ إِلَّا مَنْ أَتَى اللَّهَ بِقَلْبٍ سَلِيمٍ

***«O gün ki, malın və oğulların bir faydası olmayajaq».«Yalnız (fəsadlı əqidələrdən və əxlaqdan) salamat (sağlam) bir qəlblə Allahın hüzuruna gələn kimsədən başqa!».***[2]

Mal və övladdan söz getdiyi halda istiqamət dəyişərək sağlam qəlbə tərəf yönəlir.

Yəni Quran vəsflərin sayılmasında həssas yerə çatanda vəsf olunmuşlardan söz açır ki, bilmək məqsədi əməllə nətijələnsin və vəsflərdən vəsf olunmuşlara çatsın.

وَإِذْ تَأَذَّنَ رَبُّكُمْ لَئِن شَكَرْتُمْ لَأَزِيدَنَّكُمْ وَلَئِن كَفَرْتُمْ إِنَّ عَذَابِي لَشَدِيدٌ

***Və (yada salın) o zaman(ı) ki, Rəbbiniz (belə) elan etdi: «Əgər şükr etsəniz, sizə (olan nemətləri) mütləq artıraram və əgər kafir olsanız, ya naşükürlük etsəniz, Mənim əzabım, əlbəttə çox şiddətlidir.»*** [3]

Bu ayədə Allah vədəsini qeyd edir, vəidini isə işarə və təkvini yolla çatdırır. Çünki vəidə yox, vədəyə xilaf çıxmaq qəbahətli sayılır.

Bütün bunlara görə Quran ayələri bir-biri ilə təfsir olunmalıdır və nejə də olmasın ki, Quran hər bir şey üçün nurdur.

---

[1] *Бягяря суряси, айя 215*
[2] *Шуяра суряси, айя 88,89*
[3] *Ибращим суряси, айя 7*

وَيَوْمَ نَبْعَثُ فِي كُلِّ أُمَّةٍ شَهِيدًا عَلَيْهِم مِّنْ أَنفُسِهِمْ وَجِئْنَا بِكَ شَهِيدًا عَلَى هَؤُلاء وَنَزَّلْنَا عَلَيْكَ الْكِتَابَ تِبْيَانًا لِّكُلِّ شَيْءٍ وَهُدًى وَرَحْمَةً وَبُشْرَى لِلْمُسْلِمِينَ

***«Və (yada sal) o gün(ü) ki, hər bir ümmətdə onlara öz (iç)lərindən (hər bir ümmət üçün onların peyğəmbərlərini, yaxud hər bir əsrin insanları üçün həmin əsrin məsumunu) şahid gətirəjəyik və səni (də) bu ümmətə (ya əsrlərin şahidlərinə) şahid gətirəjəyik. Və hər bir şeyin (elm və maariflərin) dolğun açıqlaması və aydınlaşdırıjısı və müsəlmanlar üçün başdan-başa hidayət, rəhmət və mücdə mənbəyi olan bu kitabı sənə nazil etdik.»***[1]

Quran mütəşabih və möhkəm[2] ayələrə bölündüyündən mütəşabihi möhkəmə çevirməklə mütəşabih ayənin mənası aydınlaşır.

Taha surəsinin 5-ji ayəsi və Fəjr surəsinin 22-ji ayələrinə əsasən Allahın jismi olması fikri yaradılmış və Allahın ayaqları olduğu qeyd edilmişdir.

الرَّحْمَنُ عَلَى الْعَرْشِ اسْتَوَى

***«Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur»***

وَجَاء رَبُّكَ وَالْمَلَكُ صَفًّا صَفًّا

***«Rəbbinin (təkid etdiyi əmri və jəlalının, mütləq hakimiyyətinin təjəllisi) yetişəjəyi və mələklər (Məhşər səhnəsinə enib) səf-səf gələjəyi»***

---

[1] *Нящл суряси, айя 89*

[2] *Мцтяшабищ еля айяляря дейирляр ки, нечя мянайа малик олсун. Амма мющкям айялярин айдын бир мянасы вар вя ондан нечя мяна чыхартмаг олмаз.*

Şura surəsinin 11-ji ayəsinə nəzərən yuxarıdakı ayələrin mənası aydın olur.

فَاطِرُ السَّمَاوَاتِ وَالْأَرْضِ جَعَلَ لَكُم مِّنْ أَنفُسِكُمْ أَزْوَاجًا وَمِنَ الْأَنْعَامِ أَزْوَاجًا يَذْرَؤُكُمْ فِيهِ لَيْسَ كَمِثْلِهِ شَيْءٌ وَهُوَ السَّمِيعُ البَصِيرُ

***«(O,) göyləri və yeri (ilk olaraq və misli görünməmiş şəkildə) yaradandır. Sizin üçün (mələk və jinlərdən deyil) öz jinsinizdən zövjələr yaratdı və (həmçinin) dördayaqlılardan (da erkək-dişi) jütlər (yaratdı). Sizi bununla (bu evlənmək tədbiri ilə) artırır və yayır. Heç nə Onun kimi deyil və eşidən və görən Odur!»***

Həmçinin Qiyamət surəsinin 22-ji, Ənam surəsinin 103-jü ayəsini misal olaraq çəkmək olar.

وُجُوهٌ يَوْمَئِذٍ نَّاضِرَةٌ

***« O gün neçə – neçə üzlər şad-xürrəm olajaq!»***

لاَّ تُدْرِكُهُ الأَبْصَارُ وَهُوَ يُدْرِكُ الأَبْصَارَ وَهُوَ اللَّطِيفُ الْخَبِيرُ

***«Gözlər və onların görmə qabiliyyəti Onu dərk etməz və O, gözləri və görmələri dərk edər. O, lətif və xəbərdardır.»***

İmam Rza (ə) buyurmuşdur:

من رد المتشابه الى محكمه هدى الى صراط مستقيم ثم قال: ان في اخبارنا متشابهات كمتشابه القران فردوا متشابهها الى محكمها و لا تتبعوا متشابهها فتضلوا

***«Kim mütəşabihi möhkəmə çevirsə müstəqim sirata doğru hidayət olundu.» Sonra buyurdu: «Bizim hədislərimizdə də mütəşabih vardır. Onları də möhkəm hədislərə çevirin. Mütəşabih hədislərin ardınja getməkdən çəkinin ki, zəlalətə düşərsiniz.»***

D) Bildiyimiz kimi Quranın batini və zahiri vardır və batininin də batini vardır. Quranın batini də batinlə dərk olunur.

ثُمَّ لْيَقْضُوا تَفَثَهُمْ وَلْيُوفُوا نُذُورَهُمْ وَلْيَطَّوَّفُوا بِالْبَيْتِ الْعَتِيقِ

***«Sonra (başı qırxmaq, ehramdan çıxmaq və qüsl verərək təmizlik işləri aparmaqla) öz (bədənlərinin) bulaşıq və çirklərini yox etsinlər. Və öz (boyunlarında olan) nəzirlərinə vəfa etsinlər və həmin əziz, qədim və azad evin ətrafında təvaf etsinlər!»***

Züreyh Məharibi bu ayədə «Təfəhhüm»ü İmam Sadiqdən (ə) İmamın görüşü kimi açıqlamışdır.

Abdullah ibn Sənan İmamın xidmətinə geimiş və həmin bu ayə haqqında soruşmuşdur.İmam(ə) buyurmuşdur: «Dırnağı tutmaq və bığı qısaltmaqdır.»

Sonra Abdullah ibn Sənan deyir: «Janım sənə fəda olsun! Səndən nəql olunur ki, buyurmuşsunuz:: «Təfəhhüm İmamın görüşüdür.»

İmam buyurur: «Züreyh də düz deyir, sən də düz deyirsən. Quranın zahiri və batini vardır.» Yəni İmamın görüşü bu ayədəayənin batininə bağlıdır.

Sonra buyurur: « Züreyh kimilər belə məsələləri dərk edirlər.»[1]

8) Məsum imamların hədislərinə mürajiət. Bu özü çox geniş mövzudur ki, bu kiçik məqalədə onu geniş izah etmək mümkün olmaz.

Məqaləni İmam Sadiqdən(ə) nəql olunan bir hədislə sona çatdırıram.

---

[1] *Нурус-сягялейн, ж.3,сящ. 492*

عن الصادق (ع): كتاب الله عز و جل علي اربعة اشياء على العبارة و الاشارة و و اللطائف و الحقائق فا لعبارة للعوام و الاشارة للخواص و اللطائف للاولياو الحقائق للانبيا

İmam Sadiqdən nəql olunmuşdur: «İzzət və cəlal sahibi olan Allahın kitabı dörd şeydən, ibarə, işarə, lətafət və həqiqətlərdən ibarətdir. İbarələr ümum üçün, işarələr xüsus üçün, lətifliklər övliyalar üçün, həqiqətlər isə peyğəmbərlər üçündür.»

***İstifadə olunmuş ədəbiyyat:***


*1) Qurani-Kərim*

*2) Amuli Javadi, Təfsire-təsnim, İsra*

*3) Amuli Javadi, Təfsire mozui-ye Qoran, jildd 1.*

*4) Ayətullah Jəfər Sübhani, Mənşure javid Qoran, jild 3 və 8*

*5) Ayətullah Məkarim Şirazi, Təfsire-numunə*

*7) Məhəmməd Kazim Şakir, Məbani və reveşhaye təfsir*

*8) Təfsire Nurus-səqəleyn, jild 3*

*9) Əllamə Məjlisi, Biharul-ənvar.*

# Quranın elmi möcüzələri

وَلَقَدْ يَسَّرْنَا الْقُرْآنَ لِلذِّكْرِ فَهَلْ مِن مُّدَّكِرٍ

***«And olsun ki, biz Quranı ibrət almaq üçün belə asanlaşdırdıq...»*[1]**

Quran göndərildiyi gündən indiyə qədər hər bir əsrdə yaşayan insanların başa düşəjəyi aydın və asan üsluba malikdir. Allah Quranın bu üslubunu yuxarıdakı ayədə qeyd edir. Həmçinin Quranın ədəbi yönümünün ejazkarlığı, bənzərsiz üslub xüsusiyyətləri və ehtiva etdiyi üstün hikmətləri onun Allah sözü olmasını sübut edən mütləq dəlillərdəndir.

Quranın bu xüsusiyyətləri ilə yanaşı onun Allah sözü olmasını sübut edən müxtəlif möjüzəvi jəhətlər var. Onun bu jəhətlərindən biri yalnız iyirminji və iyirmi birinji əsrlərin texnologiyası ilə aydınlaşdırılan bəzi elmi həqiqətlərin 1400 il əvvəl Quranda xəbər verilməsidir. Əlbəttə, Quran sırf elm kitabı deyil. Anjaq müxtəlif ayələrində yığjam, dolğun və hikmətli üsulla qeyd edilən bəzi elmi həqiqətlər yalnız iyirminji əsrin texnologiyası ilə kəşf edilib. Quranın göndərildiyi dövrdə elmi izahı mümkün olmayan bu məlumatlar Quranın Allah sözü olmasını bir daha isbat edir. Quranın elmi möjüzələrini başa düşmək üçün ilk növbədə bu İlahi kitabın göndərildiyi dövrdəki insanların elmi səviyyəsinə nəzər salmaq lazımdır.

---

[1] *Гямяр суряси, айя 22*

Quranın nazil olduğu yeddinji əsrdə ərəblər elmi məsələlərlə bağlı jürbəjür xurafata və batil inanjlara sahib idilər. Kainatı və təbiəti tədqiq etmək üçün heç bir texnologiyaya malik olmayan ərəblər nəsildən-nəslə ötürülən əfsanələrə inanırdılar. Məsələn, onlar göyün yuxarıda dayanmasını dağların yerdə olması ilə əlaqələndirirdilər. Bu inanja görə, dünya düz idi və hər iki tərəfində yüksək dağlar olduğu üçün onlar göyü saxlaya bilirdilər. Anjaq ərəblərin bu batil inanjları Quran tərəfindən alt-üst olundu. Məsələn,

اللّهُ الَّذِي رَفَعَ السَّمَاوَاتِ بِغَيْرِ عَمَدٍ تَرَوْنَهَا

***«Göyləri gördüyünüz kimi, dayaqsız olaraq yüksəltdi...»***[1] ayəsi dağların göyü yuxarıda saxlaması barədə yanlış fikri aradan qaldırdı. Həmin dövrün insanlarının heç birinin bilmədiyi əksər məsələlər Quranda öz izahını tapdı. İnsanların astranomiya, fizika və ya biologiya haqqında çox az məlumatları olduğu bir dövrdə Quran kainatın yaradılmasından tutmuş insanların əmələ gəlməsinə, atmosferin quruluşundan Yer kürəsindəki nizama qədər ən müxtəlif mövzularda əsas məlumatları xəbər verir.

1957-ji ildə oktyabr ayının 4-də SSRİ-nin «Sputnik» peykinin kosmosa göndərilməsi ilə kosmik fəzanın tədqiqat və kəşfetmə işləri başlandı. İnsanların Aya ayaq açması isə amerikalıların 1969-ju il iyul ayının 20-də «Apollo-11» orbital gəmisinin kosmosa göndərilməsi ilə baş Verdi.

Quran 1400 il əvvəl insanların gələjəkdə belə bir sahədə nail olajağı inkişafa və Yerin orbitindən kənara çıxmağın mümkün ola biləjəyinə işarə edir. Allah-Təala ər-Rəhman surəsinin 33-jü ayəsində belə buyurur:

---

[1] *Ряд суряси, айя 2*

يَا مَعْشَرَ الْجِنِّ وَالْإِنسِ إِنِ اسْتَطَعْتُمْ أَن تَنفُذُوا مِنْ أَقْطَارِ السَّمَاوَاتِ وَالْأَرْضِ فَانفُذُوا لَا تَنفُذُونَ إِلَّا بِسُلْطَانٍ

***«Ey jinn və insan tayfası! Əgər göylərin və yerin ətrafından kənara çıxa bilərsinizsə, çıxın. Siz anjaq qüvvətlə çıxa bilərsiniz.»***

Diqqət edilsə, görünər ki, yuxarıdakı ayə ilə insanların göylərin və yerin dərinliklərini heç vaxt keçə bilməyəjəkləri deyil, anjaq güj və qüvvətlə keçə biləjəkləri vurğulanır. Allahın Quranda bildirdiyi bu məsələ iyirminji əsrdə ən yeni texnologiya sayəsində həyata keçdi.

Və digər bir surədə – Qəmər surəsi 1-ji ayədə Ayın torpaq və daş olması və kəşf edilməsi tarixi əbjəd hesabına əsasən hijri-qəməri tarixilə uyğun gəlir. Ayədə «şəqqə» sözü ərəb dilində «iki yerə parçalanmaq, ayrılmaq» mənası ilə yanaşı «torpağı belləmək, torpağın qazılması» kimi mənalarda da işlədilir. Burada 1969-ju ilə qayıdanda Quranın çox böyük bir möjüzəsi ilə qarşılaşırıq. «Qəmər» surəsində 14 əsr qabaq Ayın torpaq və daşlardan ibarət olması haqqında sətiraltı verilən xəbər 1969-ju ildə öz təsdiqini tapdı. Amerikalı astronavtlar Ayda tədqiqat apararaq oradan 22kq. daş-torpaq nümunəsi toplamışlar. Digər bir tərəfdən bu ayənin bəzi kəlmələrinin əbjəd hesabı bizə 1969-ju miladi ili ilə uyğun gələn hijri-qəməri tarixinin 1390 rəqəmini verir. Belə nəzərə çarpır ki, ayənin bəzi kəlmələrində ( اقْتَرَبَتِ السَّاعَةُ وَانشَقَّ الْقَمَرُ ۝ ) əbjəd hesabı ilə Ayın kəşf olunması ili hijri-qəməri tarixilə göstərilmişdir. Hijri-qəməri:1390- miladi: 1969

Nətijə olaraq amerikalı astronavtlar 1969-ju ildə Ayda tədqiqatlar aparmış, Ayın torpağı müxtəlif alətlərlə qazılmış, yarılmış və nümunə olaraq Yerə gətirilmişdir.

Başqa bir ayədə ana bətnində insan əzalarının inkişaf ardıjıllığı göstərilir:

وَهُوَ الَّذِي أَنشَأَ لَكُمُ السَّمْعَ وَالْأَبْصَارَ وَالْأَفْئِدَةَ قَلِيلًا مَّا تَشْكُرُونَ

***«Sizə qulaq, göz və ürək verən Odur...»[1]***

وَجَعَلَ لَكُمُ الْسَّمْعَ وَالأَبْصَارَ وَالأَفْئِدَةَ لَعَلَّكُمْ تَشْكُرُونَ

***«...Sonra sizə qulaq, göz və qəlb verdi ki, şükr edəsiniz!»[2]***

إِنْ أَخَذَ اللّهُ سَمْعَكُمْ وَأَبْصَارَكُمْ وَخَتَمَ عَلَى قُلُوبِكُم

***«...Əgər Allah sizin qulaqlarınızı və gözlərinizi əlinizdən alsa, ürəklərinizə möhür vursa,...»[3]***

فَجَعَلْنَاهُ سَمِيعًا بَصِيرًا

***«Buna görə biz onu eşidən, görən yaratdıq.»[4]***

Yuxarıdakı ayələrdə Allahın insana bəxş etdiyi bəzi duyğu orqanlarından bəhs olunur. Diqqəti çəkən əsas budur ki, Quranda bu duyğu orqanlarından həmişə müəyyən bir ardıjıllıqla danışılır; eşitmək, görmək, hiss etmək və başa düşmək.

Embrioloq doktor Keyt Mur İslam Tibb Assosiasiyası curnalında dərj edilən bir məqaləsində daxili qulaqların ilk halının təyin edilib bilinməsindən sonra məhz gözün əmələ gəlməyə başladığını ifadə edir. O, hissetmə və dərketmə mərkəzi olan beyinin isə qulaqlar və gözlərdən sonra inkişaf etməyə başladığını bildirir.

Ana bətnindəki uşaq fetus halında olarkən, yəni hamiləliyin 22-ji gününə kimi erkən bir dövrdə qulaqlar yaranır.

---

*[1] Муминун суряси, айя 78*
*[2] Нящл суряси, айя 78*
*[3] Янам суряси, айя 46*
*[4] Инсан суряси, айя 2*

Və hamiləliyin 4-jü ayında isə qulaqlar tam funksional hala gəlir. Dolayısı ilə yeni doğulan bir uşaqda eşitmə hissi həyati əhəmiyyət kəsb edən və böyük funksiyaları yerinə yetirən digər duyğu üzvlərindən daha əvvəl əmələ gəlir. Quran ayələrindəki müvafiq sıralanmada məhz bu yönümdən yetərinjə diqqət jəlb edir.

Quranın insanı təəjjübə gətirən möjüzəli xüsusiyyətlərindən biri də riyazi uyğunluqlardır. Buna nümunə olaraq Qurandakı bəzi kəlmələrin təkrar olunarkən eyni sayı verməsini göstərmək mümkündür. Bir-biri ilə əlaqəli olan bəzi kəlmələr Quranda heyrətamiz dərəjədə eyni sayda təkrar edilmişdir. Məsələn, «yeddi göy» ifadəsi 7 dəfə, «göylərin yaradılması» ifadəsi 7 dəfə, «bitki» sözü 26 dəfə, «ağaj» sözü 26 dəfə, «gün» sözü 365 dəfə, «günlər» sözü 30 dəfə, «ay» sözü 12 dəfə, «xəyanət» 16 dəfə, «xəbis» 16 dəfə, «jəza»117 dəyə, «bağışlamaq» (iki dəfə çox) 234 dəfə, «Jənnət» 77 dəfə, «Jəhənnəm» 77 dəfə, «de» 332 dəfə, «dedilər» 332 dəfə, «dünya 115 dəfə, axirət 115 dəfə, «şeytan» 88 dəfə, «mələk» 88 dəfə, «iman» 25 dəfə, «küfr» 25 dəfə, «zəkat» 32 dəfə, «bərəkət» 32 dəfə, «yaxşılar» 6 dəfə, «pislər» (iki dəfə az) 3 dəfə, «müsibət» 75 dəfə, «şükr» 75 dəfə, «qadın» 23 dəfə, «kişi» 23 dəfə, «asanlıq» 36 dəfə, «çətinlik»(3 dəfə az) 12 dəfə işlənmişdir.

Torpaq 13 dəfə, dəniz isə 32 dəfə təkrar olunur ki, bu rəqəmlərin jəmi 45 alınır. Əgər quru torpaq səthinin Quranda təkrar edilən sayı-13-ü (13 rəqəmini) 45-ə bölsək, 28,88, dənizlərin Quranda təkrar edildiyi rəqəmi-32-ni 45-ə böləndə isə 71,11 rəqəmini əldə edirik. Bu nisbət isə planetimizin su və quru torpaq sahələrinin real nisbətidir.

Quranın riyazi möjüzələrindən başqa birisi isə 19 rəqəminin ayələrin içində şifrələnmiş bir şəkildə yerləşdirilməsidir. Quranda Müdəssir surəsinin 30-ju ayəsilə nəzərimizi jəlb edən bu rəqəm Quranın əksər yerində

şifrələnmişdir. Məsələn «Bismillah» kəlməsi 19 hərfdən ibarətdir.

-İlk vəhy olunan surə axırdan 19-ju surədir.

-İlk vəhy olunan ayələrin kəlmələrinin sayı 19-dur.

-Vəhy olunan ilk surə 19 ayədən ibarətdir.

Əlbəttə, onlarla belə misallar gətirmək olar ki, bu da bizim bəhsimizin uzun-uzadı uzanmasına səbə olar.

Digər bir surədə- «Hədid» surəsinin 25-ji ayəsində oxuyuruq:

وَأَنزَلْنَا الْحَدِيدَ فِيهِ بَأْسٌ شَدِيدٌ وَمَنَافِعُ لِلنَّاسِ

***«...Biz hədiddən artıq möhkəm olan və insanlara fayda verən dəmiri də nazil etdik...»***

Ayədə xüsusi olaraq dəmirlə bağlı işlərdən «ənzəlna», yəni «endirmək» kəlməsi məjazi anlamda başa düşülə bilər. Amma kəlmənin yağış və günəş şüaları ilə bağlı işlərdən «göydən fiziki olaraq endirmə» şəklindəki həqiqi mənasına diqqət veriləndə ayənin çox mühüm elmi möjüzə olması görünür. Çünki müasir astronomiya elmi Yerdəki dəmir mədənlərinin kainatdakı böyük ulduzlardan gəldiyini sübut etmişdir. Ümumiyyətlə, «Hədid» surəsi riyazi hesablamalar baxımından da çox maraqlı bir faktdır. Bu surə Quranın 57-ji surəsidir. Eyni zamanda «əl-Hədid» kəlməsinin ərəb dilindəki sayı da 57-dir. Amma «hədid» kəlməsinin əbjəd hesabı 26-dır. Bu rəqəm isə Mendeleyev jədvəlində dəmirin atom nömrəsidir. Bununla da Allah-Təala «Hədid» surəsində göndərdiyi ayə ilə həm dəmirin nejə ortaya çıxdığını nəzərimizə çatdırır və həm də ayənin özündə ehtiva etdiyi riyazi şifrələrlə elmi bir möjüzəni bizə göstərir.

Ümumiyyətlə, müasir elmə məlum olan bir sıra kəşflər, məsələn, insan barmaqlarının izləri ilə bağlı Qiyamət surəsi, ayə 4-də,

بَلَى قَادِرِينَ عَلَى أَن نُّسَوِّيَ بَنَانَهُ

***«Bəli (bir yerə yığajağıq), hələ bir (üstəlik) onun barmaqlarının ujunu da əvvəldə olduğu kimi sirli xətlərlə düzəltməyə qadirik.»***

Jəbəllütariq boğazında Ağ dənizlə Atlantik okeanının sularının bir-birinə qarışmaması və iki dəniz arasında görünməyən sərhədlərin mövjud olması ilə bağlı ər-Rəhman surəsi, ayə19-20-də,

مَرَجَ الْبَحْرَيْنِ يَلْتَقِيَانِ* بَيْنَهُمَا بَرْزَخٌ لَّا يَبْغِيَانِ

***«Bir-birinə qovuşan iki dənizi bir-birinə qarışdırdı (şirin sulu axar çaylar dəniz kimi, suyu şor hərəkətsiz dənizlərə qovuşurlar). (Qovuşma yerində) onların ikisinin arasında (geniş bir ərazini əhatə edən) məsafə vardır ki, (təsir baxımından) bir-birini üstələmirlər. [Yaxud: Yer üzündə olan şirin suların hamısı dənizin şor suyundan gəlib və bir daha ora qayıdajaqdır. Lakin onlar Allahın qüdrəti ilə bir-birinə təsir göstərmirlər.]»***

Qoruyuju tavan rolunu oynayan atmosfer təbəqəliri ilə bağlı Bəqərə surəsi, ayə 29,

هُوَ الَّذِي خَلَقَ لَكُم مَّا فِي الأَرْضِ جَمِيعاً ثُمَّ اسْتَوَى إِلَى السَّمَاء فَسَوَّاهُنَّ سَبْعَ سَمَاوَاتٍ وَهُوَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ

***«Yer üzündə olanların hamısını sizin üçün yaradan, sonra isə səmaya (onun yaradılışına) başlayan, beləliklə onları (hikmətə uyğun və yaradılışında heç bir nöqsan olmadan) yeddi səma halında nizama salan Odur. O, hər şeyi biləndir.»***

ثُمَّ اسْتَوَى إِلَى السَّمَاء وَهِيَ دُخَانٌ فَقَالَ لَهَا وَلِلْأَرْضِ اِئْتِيَا طَوْعًا أَوْ كَرْهًا قَالَتَا أَتَيْنَا طَائِعِينَ فَقَضَاهُنَّ سَبْعَ سَمَاوَاتٍ فِي

يَوْمَيْنِ وَأَوْحَى فِي كُلِّ سَمَاء أَمْرَهَا وَزَيَّنَّا السَّمَاء الدُّنْيَا بِمَصَابِيحَ وَحِفْظًا ذَلِكَ تَقْدِيرُ الْعَزِيزِ الْعَلِيمِ

*«(Yerin yaradılışından) sonra (Allahın qəti iradəsi, əsas maddəsi) tüstü olan göyə yönəldi. Beləliklə ona və yerə buyurdu: «İstər itaətkarjasına, yaxud ikrahla (vüjuda) gəlin!» (Allah qəti iradə ilə həmin tüstünün göylər olmasını, yerin isə bərəkətli olmasını və həmin qidaları hazırlamasını istədi.) O ikisi (özlərinin halları və zatı məğlubiyyətlə) dedilər: «Mütijəsinə gəldik.»*

*«Beləliklə onları iki gündə (yaxud iki mərhələdə) yeddi göy etdi və hər bir göydə onun işlərini (oranın mələklərinə) vəhy etdi. Və sizə yaxın olan (birinji) göyü (ulduzlardan ibarət) çıraqlarla bəzədik və onu (jin və şeytanlardan) qoruduq. Bunlar qüdrətli (və hər şeyi) bilən Allahın müəyyənləşdirdikləri və təyin etdikləridir.»*[1]

أَلَمْ تَرَوْا كَيْفَ خَلَقَ اللَّهُ سَبْعَ سَمَاوَاتٍ طِبَاقًا

*«Məgər (qəlb gözü ilə) görmədinizmi ki, Allah yeddi göyü bir-biri üzərində qat-qat nejə yaratmışdır?!»*[2]

وَجَعَلْنَا السَّمَاء سَقْفًا مَّحْفُوظًا وَهُمْ عَنْ آيَاتِهَا مُعْرِضُونَ

*«Və göyü (onların başı üzərində uçub dağılmaqdan, şeytan və jinlərin keçmələrindən) qorunmuş tavan (kimi) etdik. Halbuki onlar onun (Bizim onda olan qüdrət və əzəmətimizin) nişanələrindən üz döndərirlər.»*[3]

Günəşin hərəkət istiqaməti və Ay ilinin hesablanması ilə bağlı Yasin surəsi, ayə 38-39 və sairədə məlumat verilmişdir.

وَالشَّمْسُ تَجْرِي لِمُسْتَقَرٍّ لَّهَا ذَلِكَ تَقْدِيرُ الْعَزِيزِ الْعَلِيمِ

---

[1] *Фуссилят суряси, айя 11-12*
[2] *Нущ суряси, айя 15*
[3] *Янбийа суряси, айя 32*

وَالْقَمَرَ قَدَّرْنَاهُ مَنَازِلَ حَتَّى عَادَ كَالْعُرْجُونِ الْقَدِيمِ

***«Günəş də özü üçün müəyyən olunmuş qərargahına yetişmək üçün daim hərəkətdədir. (Planetlər sistemində onun seyr etməsinin) bu təqdir(i) və ölçü(sü) yenilməz qüvvət sahibi və (hər şeyi) bilən (Allah)dandır.***

***Və bütöv halda olan ay üçün də mənzillər təyin etdik ki, o, xurma ağajının köhnə (sarı rəngli və qövsvari şəkildə olan) budağı kimi (hilal şəklinə) dönsün (və yenidən tədrijlə bütövləşsin).»***

Quranın təbiri ilə desək, «ağıl sahiblərinin düşünüb nətijə çıxarması üçün» bir sıra maraqlı faktları nümunə olaraq göstərmək olar.

# Quran və təcrübi elmlər

Aləmlərin Rəbbi Quranın İsra surəsinin 89-ju ayəsində buyurur:

وَلَقَدْ صَرَّفْنَا لِلنَّاسِ فِي هَذَا الْقُرْآنِ مِن كُلِّ مَثَلٍ فَأَبَى أَكْثَرُ النَّاسِ إِلاَّ كُفُورًا

***«Həqiqətən Biz bu Quranda insanlar üçün təkrar və müxtəlif (şəkillərdə) hər məsəldən çəkdik, lakin insanların çoxu inkar və nankorluqdan başqa bir şey istəmədilər.»***

Quran zəngindir. Bəşərdən dərs almamış bir şəxsin belə zəngin kitab ərsəyə çıxarması böyük bir möjüzə və aqilləri heyrətə vadar edən bir işdir. Bu müqəddəs və qeyri-adi kitabda əqli və fəlsəfi dəlillərə kifayət qədər rast gəlmək olar, lakin bu dəlillər fərziyyə deyil, eyni həqiqətdir.Bu İlahi göstərişlər xəzinəsində kifayət qədər maddi və mənəvi qanunlar toplamaq olar. Amma bu qanunlar insanların nəfsinə deyil, onların məsləhətinə uyğun göndərilmişdir. Quranda insanların ibrət götürməsi üçün lazımi tarixi hadisələrə işarə olunur, nağıllığa və xurafata yol verilmir. Bu İlahi kitabın əxlaqi nəsihət və göstərişləri insana bahar yağışının ölü torpağa etdiyi təsir kimi təsir edir. Quran ən azından öz zamanı və özündən sonrakı yaxın zamanlar üçün qaranlıq qalmış elmi məsələləri izah edir.

Lakin Qurana hər hansı bir elm sahəsinə aid olan kitab demək olmaz.

Doğrudur, Quran özünü hər şeyi bəyan edən adlandırmışdır. Ayənin mənası bu deyil ki, müqəddəs kitab bir ensiklopediya xarakteri daşıyır. Quran öz məqsədi üçün lazım olan tərzdə və miqdarda qeyd olunan və olunmayan sahələrə işarə edir. Quranın məqsədi insanların fitrətini oyatmaq, onları tövhidə dəvət etmək və onların bu yolda müvəffəqiyyət qazanmaları üçün keçmişdəki müsbət və ya mənfi qəhrəmanlardan dərs və ibrət almalıdır. Elə bu səbəbə görədir ki, Qurandakı əhvalatların və tarixi hadisələrin demək olar ki, hamısı müəyyn həddə qədər bəyan olunur. Yəni Quran hadisələrin öyrədiji hissələrini bəyan edir. Yaxud Qurani-Kərimin elmi ayələri insanları tövhid nişanələrindən agah etmək məqsədini daşıdığı üçün və hər hansı bir elmə aid olmadığı üçün elmi məqsədlə izah olunmur, onlara ötəri işarə olunur.

Qurani-Kərimi dünyəvi elmlər kimi təqdim etmək olmaz. Ümumiyyətlə, bunu heç gözləmək də lazım deyil ki, bütün təbiət elmləri, riyazi formullar, ya xəstəlik və onların dərmanları bu müqəddəs kitabda qeyd olunmuş olsun. Çünki Quranın məqsədi başqadır. Quran tərbiyə və hidayət kitabıdır. Bu nurani kitab bəşər övladını sözün əsl mənasında insanı xöşbəxt bir gələjəyə hidayət etmək məqsədi ilə göndərilib. Beləliklə, aydın olur ki, Quran elm kitabı deyil, əksinə elm Quranın bir tərəfi və bir jəhətidir. Quranın mənbəyi İlahi başlanğıjdan olan bir xəzinədir və bu xəzinədəki gövhərlərdən yalnız birjəjiyi dünyəvi elmlərə işarədir.

Quran hər şeyi nejə bəyan edir?

Bu suala üç javab verilib:

1) Məqsəd budur ki, Quran insanlıq hədəfinə çatmaq üçün lazım olan hər şeyi bəyan edib. Yəni, bu kitab insanın həm

maddi və həm də mənəvi xöşbəxtliyi üçün gərəkli olan bütün məsləhətləri verib.

2) Məqsəd budur ki, bütün elmlərin əsaslarına işarə edib və insanın təbiət sirlərini öyrənməsi üçün ona ip uju verib.

3) Məqsəd budur ki, sözün əsl mənasında bütün injəliklər Quranda qeyd olunub, lakin bu mənanı yalnız Allahın xüsusi bəndələri anlaya bilirlər. Avam kütlə dərk etməsə də, kitabda hər şey rəmz formasında bəyan olunmuşdur.

Bir sözlə Quran həqiqətən hər şeyə vaqif olmaq istəyənlərə hər şeyi izah edib. Amma bu izahat bizim anladığımız və qəbul etdiyimiz sadə dillə deyil, püxtələşmiş insanların başa düşəjəyi dillə verilib.

Qurani-Kərimin özünəməxsus dili və ifadə üslubu vardır. Bu kitabı oxuyub dərk etmək üçün təfsir elmini bilmək lazımdır. Bunu da qeyd etmək lazımdır ki, Quran elmi kitab olduğu üçün fəxr etmir, əksinə elm Qurana əsaslandığı üçün iftixar hissi duymalı və öyünməlidir. Çünki ehtimallar və fərziyyələrlə zəngin olan elm sahələri Quran kimi real və düzgün hədəfi olan bir mənbəyə arxalana bilsə, təbii olaraq şübhələrdən yaxa qurtara bilər və bu yolla özünə həqiqət möhürü vura bilər.

Müasir dövrümüzdə və elmi kəşflərin rəvaj tapdığı bir dönəmdə bir sıra alimlər guya Quranın aşağı olan səviyyəsini yüksəltmək üçün bir çox Quran ayələrini elmi kəşflər və hətta nəzəriyyələr ilə müqayisə edirlər. Bu proses ilk baxışda Quranı müdafiə xarakteri daşısa da, dərindən düşündükdə görürük ki, Qurana zərbə vurur. Doğrudur, bu müqəddəs kitabda bir sıra ayələr mövjuddur ki, on dörd əsr bundan önjə qeyd olunmasına baxmayaraq, çox-çox sonralar kəşf olunajaq elmi sirləri açmışdır. Lakin bəziləri bundan istifadə edərək bir Quran ayəsi ilə hər hansı elmi nəzəriyyə arasında azajıq oxşarlıq görən kimi onun Quran tərəfindən izah olunduğunu və hətta həmin ayənin məhz həmin kəşf və ya nəzəriyyəyə aid olduğunu iddia edirlər.

Lakin nəzərə almaq lazımdır ki, Quran tükənməz bir varlıq tərəfindən endirildiyi üçün tükənməz maarifə malikdir. Digər tərəfdən isə Quran heç vaxt fərziyyə və ehtimalları əsas götürmür. Elmi nəzəriyyələr isə bəzən fərziyyədir və səhv olması mümkündür. Əgər biz vəhy mənbəyi ilə əlaqəli şəxslərin nəzərinə diqqət yetirmədən öz naqis ağlımıza əsaslanaraq hansısa ayəni dərk etdiyimiz qədər jılızlaşdırsaq və hansısa elmi nəzəriyyəyə uyğun izah etsək, sonralar həmin elmi nəzəriyyənin səhv olduğu aşkarlansa, nələr baş verəjəyini təsəvvür etmək çətin deyil. Öz rəyinə əsasən təfsir edən şəxslər barəsində Allahın Rəsulu (s) buyurub: «Onlar özlərini artıq jəhənnəm odunda bilsinlər. Quran barədə çox ehtiyatlı olmaq lazımdır. Lakin bəziləri bundan qafildirlər.»

Yaxud hansısa Quran ayəsindən hansısa elmi və ya təbii prosesi anlamaq olur, lakin diqqətlə baxdıqda ayənin tamamilə başqa məqsədlə nazil olduğunu müşahidə etmək olur. Məsələn, Hijr surəsinin 22-ji ayəsində əsən yellərdən söz açılır. Belə ki, bu ayənin bitkilərin tozlanmasına kömək edən yellərə aid olduğunu iddia edənlər az deyil. Ayənin davamına diqqət yetirdikdə onun yağış dolu buludları qovan yellərə aid olduğu məlum olur. Buna görə də Quranı onun özünün istədiyi kimi izah etmək lazımdır. Bunlardan fərqli olaraq bir sıra alimlər yersiz təəssüb göstərərək hər hansı bir Quran ayəsinin elmi kəşflərlə uyğunluq təşkil etməsinə təkidlə etiraz edir, bunu Qurana xəyanət kimi qəbul edirlər. Onların fikrinjə, bir ayə hansısa dəqiq bir biliyə tamamilə uyğun gəlirsə də, ayəni bu dəlalətlə qəbul etmək olmaz. Lakin bu da yalnış fikirdir. Əgər bir ayə hansısa elmi mətləbə dəlalət edirsə, bunu qəbul etməyin heç bir eybi yoxdur. Nə əvvəlki fikir tamamilə doğrudur, nə də bu fikir. Doğrusu budur ki, biz hər hansı bir ayəni onun bütün məna çalarlarını nəzərdə tutaraq izah edək. Quranda bir çox elmi mətləblərə işarə olunmuşdur. Nümunə olaraq bir neçəsini qeyd edirik.

1) Yer kürəsinin hərəkət etməsi barədə;

وَتَرَى الْجِبَالَ تَحْسَبُهَا جَامِدَةً وَهِيَ تَمُرُّ مَرَّ السَّحَابِ صُنْعَ اللَّهِ الَّذِي أَتْقَنَ كُلَّ شَيْءٍ إِنَّهُ خَبِيرٌ بِمَا تَفْعَلُونَ

***«(O gün) dağları görüb, onları hərəkətsiz və donmuş zənn edərsən. Halbuki, onlar buludun keçdiyi kimi hərəkət edərlər. (Bu) hər bir şeyi möhkəm və əsaslı yaradan Allahın işidir. (Başlanğıj aləmində görülən işin möhkəmliyinin tələbi də bir gün aləmin dağılması və nətijə aləminin yaranmasıdır). Həqiqətən O, etdiklərinizin hamısından xəbərdardır. (Və həmin gün haqq-hesab soruşulajaqdır).»***[1]

2) Bitkilərin zövjiyyəti (erkək-dişiliyi);

الَّذِي جَعَلَ لَكُمُ الْأَرْضَ مَهْدًا وَسَلَكَ لَكُمْ فِيهَا سُبُلًا وَأَنزَلَ مِنَ السَّمَاء مَاء فَأَخْرَجْنَا بِهِ أَزْوَاجًا مِّن نَّبَاتٍ شَتَّى

***«Həmin O (Allah) ki, yeri sizin üçün döşəyərək beşik edib, onda sizin üçün yollar açıb və göydən (yağış, qar və dolu şəklində) su nazil edib. Biz onun vasitəsi ilə (torpağın altından) müxtəlif nővlü rəngbərəng bitkilər çıxartdıq.»***[2]

أَوَلَمْ يَرَوْا إِلَى الْأَرْضِ كَمْ أَنبَتْنَا فِيهَا مِن كُلِّ زَوْجٍ كَرِيمٍ

***(Bu qədər israrla təkzib etdikləri halda) məgər yer üzünə baxıb orada nə qədər növbənöv könül oxşayan (bitkilər və ağajlar) bitirdiyimizi görmədilərmi?»*** [3]

---

[1] *Нямл суряси, айя 88*
[2] *Таща суряси, айя 53*
[3] *Шуяра суряси, айя 7*

خَلَقَ السَّمَاوَاتِ بِغَيْرِ عَمَدٍ تَرَوْنَهَا وَأَلْقَى فِي الْأَرْضِ رَوَاسِيَ أَن تَمِيدَ بِكُمْ وَبَثَّ فِيهَا مِن كُلِّ دَابَّةٍ وَأَنزَلْنَا مِنَ السَّمَاء مَاء فَأَنبَتْنَا فِيهَا مِن كُلِّ زَوْجٍ كَرِيمٍ

***«(Allah) göyləri görə bilməyəjəyiniz bir sütunla yaratdı və (yer zəlzələlər ilə) sizi yırğalamasın deyə yerdə sabit, möhkəm dağlar bərqərar etdi və ora hər növ janlılardan yaydı. (Biz) göydən (yağış, qar və dolu şəklində) su nazil etdik, beləliklə yerdə gözəl və dəyərli bitkilərin hər jütündən bitirdik.»***[1]

وَالْأَرْضَ مَدَدْنَاهَا وَأَلْقَيْنَا فِيهَا رَوَاسِيَ وَأَنبَتْنَا فِيهَا مِن كُلِّ زَوْجٍ بَهِيجٍ

***«Biz yeri sərdik, onda sabit və möhkəm dağlar yaratdıq və gözəl, qəlbi oxşayan bitkilərin hər sinif və jütündən bitirdik.»*** [2]

3) Bütün varlıqların jütlüyü və zövjiyyəti;

وَمِن كُلِّ شَيْءٍ خَلَقْنَا زَوْجَيْنِ لَعَلَّكُمْ تَذَكَّرُونَ

***«Bəlkə (jütlüyün və şərikliyin vajib varlığın deyil, mümkün varlığın sifəti olmasını anlayıb) ibrət götürəsiniz deyə, hər bir şeyi (heyvan və bitkiləri erkək və dişi olaraq) jüt yaratdıq.»***[3]

4) Ümumi jazibə qüvvəsi;

اللّهُ الَّذِي رَفَعَ السَّمَاوَاتِ بِغَيْرِ عَمَدٍ تَرَوْنَهَا ثُمَّ اسْتَوَى عَلَى الْعَرْشِ وَسَخَّرَ الشَّمْسَ وَالْقَمَرَ كُلٌّ يَجْرِي لأَجَلٍ مُّسَمًّى يُدَبِّرُ الأَمْرَ يُفَصِّلُ الآيَاتِ لَعَلَّكُم بِلِقَاء رَبِّكُمْ تُوقِنُونَ

---

*[1] Лоьман суряси, айя 10*
*[2] Гаф суряси, айя 7*
*3 Зарийат суряси айя 49*

***«Allah göyləri sizin görə bilmədiyiniz sütunlarla ujaldan, sonra isə (aləmin hökmranlıq) taxt(ın)a hakim olan və günəşi və ayı (Özünə) ram edəndir. Onların hər biri (özünün düz və dairəvi hərəkət yolunda) müəyyən bir müddətədək hərəkətdədir. (Allah varlıq aləminin) işi(ni) idarə edir, (Quranda, aləmlərdə və nəfslərdə olan) nişanələri müfəssəl bəyan edir ki, bəlkə siz (bu aləmdən sonra) Rəbbinizlə görüşəjəyinizə yəqinlik tapasınız.»***[1]

5) Səma jismlərinin hərəkəti;

**اللّهُ الَّذِي رَفَعَ السَّمَاوَاتِ بِغَيْرِ عَمَدٍ تَرَوْنَهَا ثُمَّ اسْتَوَى عَلَى الْعَرْشِ وَسَخَّرَ الشَّمْسَ وَالْقَمَرَ كُلٌّ يَجْرِي لأَجَلٍ مُّسَمًّى يُدَبِّرُ الأَمْرَ يُفَصِّلُ الآيَاتِ لَعَلَّكُم بِلِقَاء رَبِّكُمْ تُوقِنُونَ**

***«Allah göyləri sizin görə bilmədiyiniz sütunlarla ujaldan, sonra isə (aləmin hökmranlıq) taxt(ın)a hakim olan və günəşi və ayı (Özünə) ram edəndir. Onların hər biri (özünün düz və dairəvi hərəkət yolunda) müəyyən bir müddətədək hərəkətdədir. (Allah varlıq aləminin) işi(ni) idarə edir, (Qur'anda, aləmlərdə və nəfslərdə olan) nişanələri müfəssəl bəyan edir ki, bəlkə siz (bu aləmdən sonra) Rəbbinizlə görüşəjəyinizə yəqinlik tapasınız.»***[2]

6) Dağların yaranma sirri;

**خَلَقَ السَّمَاوَاتِ بِغَيْرِ عَمَدٍ تَرَوْنَهَا وَأَلْقَى فِي الْأَرْضِ رَوَاسِيَ أَن تَمِيدَ بِكُمْ وَبَثَّ فِيهَا مِن كُلِّ دَابَّةٍ وَأَنزَلْنَا مِنَ السَّمَاء مَاء فَأَنبَتْنَا فِيهَا مِن كُلِّ زَوْجٍ كَرِيمٍ**

***«(Allah) göyləri görə bilməyəjəyiniz bir sütunla yaratdı və (yer zəlzələlər ilə) sizi yırğalamasın deyə yerdə sabit, möhkəm dağlar bərqərar etdi və ora hər növ janlılardan yaydı. (Biz)***

---

[1] *Ряд суряси, айя 2*

[2] *Ряд суряси, айя 2*

***göydən (yağış, qar və dolu şəklində) su nazil etdik, beləliklə yerdə gözəl və dəyərli bitkilərin hər jütündən bitirdik.»[1]***

**وَأَلْقَى فِي الأَرْضِ رَوَاسِيَ أَن تَمِيدَ بِكُمْ وَأَنْهَارًا وَسُبُلاً لَّعَلَّكُمْ تَهْتَدُونَ**

***«Və yer (zəlzələ ilə və öz oxu və günəş ətrafındakı hərəkətinin pozulması nətijəsində) sizi titrəməsin deyə, onda möhkəm və sabit dağlar saldı. Və həmçinin çayları və yolları bəlkə (dünyəvi məqsədlərinizə və Allahın əzəmətinə) yol tapasınız (deyə qoydu).»[2]***

**وَجَعَلْنَا فِيهَا رَوَاسِيَ شَامِخَاتٍ وَأَسْقَيْنَاكُم مَّاء فُرَاتًا**

***«Onun üzərində möhkəm durmuş uja dağlar yaratdıq və sizə şirin su içirtdik.»[3]***

**أَلَمْ نَجْعَلِ الْأَرْضَ مِهَادًا وَالْجِبَالَ أَوْتَادًا**

***«Məgər Biz yeri rahatlıq beşyi etmədikmi? (Bu ayədən etibarən on altınjı ayəyə qədər, «böyük xəbər»in isbatı üçün doqquz dəlil gətirilir). Dağları (onun səthində) mıxlar (etmədikmi)»[4]***

7) Digər planetlərdə yaşayış;

**وَهُوَ الَّذِي يُنَزِّلُ الْغَيْثَ مِن بَعْدِ مَا قَنَطُوا وَيَنشُرُ رَحْمَتَهُ وَهُوَ الْوَلِيُّ الْحَمِيدُ**

---

[1] *Лоьман суряси, айя 10*
[2] *Нящл суряси, айя 15*
[3] *Мурсялат суряси, айя 27*
[4] *Нябя суряси, айя 6,7*

***«(İnsanlar) naümid olduqdan sonra faydalı yağışı nazil edən və Öz rəhmətini yayan Odur və Odur başçı, dost, yardımçı və (bütün sifət və işləri) təriflənmiş!»***[1]

Yerin kürəvari olması;

وَقَالَ الْمَلأُ مِن قَوْمِ فِرْعَونَ أَتَذَرُ مُوسَى وَقَوْمَهُ لِيُفْسِدُواْ فِي الأَرْضِ وَيَذَرَكَ وَآلِهَتَكَ قَالَ سَنُقَتِّلُ أَبْنَاءهُمْ وَنَسْتَحْيِي نِسَاءهُمْ وَإِنَّا فَوْقَهُمْ قَاهِرُونَ

«***Və (fironçular tərəfindən) həmişə zəif və ajiz hesab edilən dəstəni o torpaqların çox xeyir-bərəkətli etdiyimiz şərq və qərblərinin (Şam və Fələstin torpaqlarının) varisi etdik. Rəbbinin İsrail övladlarına olan gözəl sözü (onların zəfər vədi) onların səbrlərinin mükafatı olaraq tamamilə gerçəkləşdi və Fironun və onun qövmünün tikdiklərini (ev, saray və qüllələrini) və çardağa qaldırdıqlarını (üzüm tənəklərini) viran və məhv etdik.»***[2]

Bu qədər elmi ayəni nə üçün diqqət mərkəzində saxlamayaq? Bu ayələrin qeyd olunan elmi məsələlərə dəlalət etməsini niyə qəbul etməməliyik? Nə üçün biz müsəlmanlar bir ayənin hansısa elmi mətləbə dəlalət etməsini digərləri tərəfindən açıqlanmasını gözləmişik? Bunlar Quranın ejazkarlığı və müsəlmanların fəxridir. Lakin bütün bunlara rəğmən Quran əsas etibarı ilə hidayət kitabı olaraq qalır. Bu İlahi kitabda hər nə yazılıbdırsa, insanın İlahi xəlifəlik məqamını doğrultmağa görə yazılıbdır. Belə elmi ayələrin araşdırılması da Quranın İlahi kitab olduğuna inanmaq və beləliklə onun göstərişlərinə əsasən yaşayaraq kamilləşmək məqsədi ilə olmalıdır. Başqa sözlə desək, Quranı özünün istədiyi kimi öyrənmək və ondan onun qəbul etdiyi tərzdə istifadə etmək lazımdır. Quran özünün

1 *Шура суряси, айя 28*

2 *Яраф суряси, айя 137*

məqsədi haqqında nə deyir? Gəlin bunu Quranın özündən soruşaq. Quranın istəyi budur.

1) Aqil insanlar onun ayələri barədə düşünsünlər:

كِتَابٌ أَنزَلْنَاهُ إِلَيْكَ مُبَارَكٌ لِّيَدَّبَّرُوا آيَاتِهِ وَلِيَتَذَكَّرَ أُوْلُوا الْأَلْبَابِ

***«(Bu Quran,) ayələrində düşünüb arxasınja getməlǝri (və onda olan dərin maarifi əldə etmələri) və (əsl) ağıl sahiblərinin ibrət götürmələri üçün sənə nazil etdiyimiz xeyir dolu və mübarək bir kitabdır»[1]***

2) Onun haqqında fikirləşsinlər:

بِالْبَيِّنَاتِ وَالزُّبُرِ وَأَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ يَتَفَكَّرُونَ

***«(Onları) aydın dəlillər (möjüzələrlə) və ibrətamiz səma kitabları ilə (göndərdik) və sənə də bu zikri (Quranı) nazil etdik ki, insanlara onlara nazil olanı açıqlayasan və bəlkə düşündülər.»[2]***

3) O, ruhi xəstəliklərin dərmanıdır:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءتْكُم مَّوْعِظَةٌ مِّن رَّبِّكُمْ وَشِفَاء لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

***«Ey (tarix boyu gələn bütün) insanlar, şübhəsiz, Rəbbiniz tərəfindən sizin üçün bir öyüd-nəsihət (başdan-başa öyüd-nəsihət olan bir kitab), sinələrdə olan (xarab əqidələr və rəzil sifətlər) üçün bir şəfa və möminlər üçün bir hidayət və mərhəmət gəlmişdir.»[3]***

4) O, insanları təqvalı etmək istəyir:

---

[1] Сад суряси, айя 29

[2] Нящл суряси, айя44

[3] Йунус суряси, айя 57

قُرآنًا عَرَبِيًّا غَيْرَ ذِي عِوَجٍ لَّعَلَّهُمْ يَتَّقُونَ

***«(Kəlmə və mənalarında) heç jür əyrilik olmayan ərəbjə bir Quran! Bəlkə çəkindilər.»[1]***

5) İnsanlar arasında qəzavət etmək istəyir:

كَانَ النَّاسُ أُمَّةً وَاحِدَةً فَبَعَثَ اللّهُ النَّبِيِّينَ مُبَشِّرِينَ وَمُنذِرِينَ وَأَنزَلَ مَعَهُمُ الْكِتَابَ بِالْحَقِّ لِيَحْكُمَ بَيْنَ النَّاسِ فِيمَا اخْتَلَفُواْ فِيهِ وَمَا اخْتَلَفَ فِيهِ إِلاَّ الَّذِينَ أُوتُوهُ مِن بَعْدِ مَا جَاءتْهُمُ الْبَيِّنَاتُ بَغْيًا بَيْنَهُمْ فَهَدَى اللّهُ الَّذِينَ آمَنُواْ لِمَا اخْتَلَفُواْ فِيهِ مِنَ الْحَقِّ بِإِذْنِهِ وَاللّهُ يَهْدِي مَن يَشَاء إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ

***«(Şəriət sahibi olan peyğəmbərlərin göndərilmələrindən qabaq) bütün insanlar tək bir dəstə idilər (səmavi şəriətsiz öz ağıllarının tələbi əsasında yaşayırdılar. Amma yavaş-yavaş özlərinin dünya işlərində ixtilafa düçar oldular). Beləliklə Allah peyğəmbərləri (səmavi din və şəriətlə) müjdə verən və qorxudan olaraq göndərdi və onlarla birlikdə insanların arasında onların bir-birləri ilə ixtilafa düçar olduqları şey barəsində hökm çıxarmaq üçün haqq olaraq (və uja, ali və əqlani bir hədəf üçün səmavi) kitab nazil etdi. (Sonra kitabın özü barəsində ixtilaf yarandı, bir dəstə kitabın özünü və ya onda olan təlimlərin bəzilərini qəbul etmədi.) Onda ixtilafı yalnız kitab verilmiş kəslər, özü də onlara (bu barədə) aydın dəlillər gəldikdən sonra aralarındakı paxıllıq və təkəbbür ujbatından yaratdılar. Beləliklə, Allah iman gətirənləri Öz köməyi ilə barəsində ixtilafa düşdükləri***

[1] *Зумяр суряси, айя 28*

***haqqa doğru istiqamətləndirdi. Allah istədiyi şəxsi doğru yola hidayət edir.»[1]***

6) Onun qanunları hakim olmalıdır:

**إِنَّا أَنزَلْنَا إِلَيْكَ الْكِتَابَ بِالْحَقِّ لِتَحْكُمَ بَيْنَ النَّاسِ بِمَا أَرَاكَ اللّهُ وَلاَ تَكُن لِّلْخَآئِنِينَ خَصِيمًا**

***«Həqiqətən Biz bu kitabı sənə haqq olaraq (uja və ağılın təsdiq etdiyi bir məqsədlə) nazil etdik ki, insanlar arasında Allahın sənə göstərdiyi əsasda hökm çıxarasan. Xainlərin müdafiəçisi olma!»[2]***

7) İjtimai ədalət yaratmaq istəyir:

**لَقَدْ أَرْسَلْنَا رُسُلَنَا بِالْبَيِّنَاتِ وَأَنزَلْنَا مَعَهُمُ الْكِتَابَ وَالْمِيزَانَ لِيَقُومَ النَّاسُ بِالْقِسْطِ وَأَنزَلْنَا الْحَدِيدَ فِيهِ بَأْسٌ شَدِيدٌ وَمَنَافِعُ لِلنَّاسِ وَلِيَعْلَمَ اللَّهُ مَن يَنصُرُهُ وَرُسُلَهُ بِالْغَيْبِ إِنَّ اللَّهَ قَوِيٌّ عَزِيزٌ**

***«Şübhəsiz, Biz Öz peyğəmbərlərimizi aydın dəlillərlə (məntiq və möjüzə ilə) göndərdik və onlarla birlikdə insanların (dünya həyatında) ədalət və insafa əməl etmələri üçün (səmavi) kitab və (mənaları seçmək, haqq ilə batili bir-birindən ayırd etmək və əşyaları çəkmək üçün) ölçü vasitəsi nazil etdik. Və dəmiri (imkan mərhələsindən vüjud aləminə) nazil etdik. Onda insanlar üçün (müharibə və müdafiədə) möhkəm qüvvə və (digər) mənfəətlər vardır. Həmçinin Allahın Ona və Onun peyğəmbərlərinə gizlində yardım edənləri tanıması (əzəli elminin***

[1] *Бягяря суряси, айя 213*
[2] *Ниса суряси, айя 105*

***sonra gerçəkləşən xariji aləmlə üst-üstə düşməsi) üçün. Həqiqətən Allah qüvvətli və yenilməz qüdrət sahibidir.»[1]***

8) İnsaları zülmətlərdən nura çıxarmaq istəyir:

**الَر كِتَابٌ أَنزَلْنَاهُ إِلَيْكَ لِتُخْرِجَ النَّاسَ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ بِإِذْنِ رَبِّهِمْ إِلَى صِرَاطِ الْعَزِيزِ الْحَمِيدِ**

***«Əlif, Lam, Ra. (Mən hər bir şeyi görən Allaham. Bu kitab həmin bu hərflərdən təşkil olunmuşdur, amma heç kəsin onun kimisini gətirmək qüdrəti yoxdur. Bu kitabın «möhkəm» və bu jür «mütəşabih» ayələri vardır. Bu hərflər Allahla Onun Peyğəmbəri arasında olan rəmzlərdir. Bu Quran dünyadakı) insanları onların Rəbbinin istək və köməyi ilə qaranlıqlardan (əqidə, əxlaq və əməl əyriliklərindən) nura (ilahi hidayətə) tərəf çıxarmağın və O qüdrət və mədh olunmuş xislətlər sahibi olan (Allah)ın yoluna istiqamətləndirməyin üçün (Öz əzəli elmimizdən Lövhə, oradan Jəbrailin qəlbinə və oradan da) sənə nazil etdiyimiz bir kitabdır.»[2]***

8) Düz yola hidayət etmək istəyir:

**يَا أَهْلَ الْكِتَابِ قَدْ جَاءكُمْ رَسُولُنَا يُبَيِّنُ لَكُمْ كَثِيرًا مِّمَّا كُنتُمْ تُخْفُونَ مِنَ الْكِتَابِ وَيَعْفُو عَن كَثِيرٍ قَدْ جَاءكُم مِّنَ اللّهِ نُورٌ وَكِتَابٌ مُّبِينٌ يَهْدِي بِهِ اللّهُ مَنِ اتَّبَعَ رِضْوَانَهُ سُبُلَ السَّلاَمِ وَيُخْرِجُهُم مِّنِ الظُّلُمَاتِ إِلَى النُّورِ بِإِذْنِهِ وَيَهْدِيهِمْ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ**

---

[1] *Щядид суряси, айя 25*

[2] *Ибращим суряси, айя 1*

*«Ey kitab əhli, şübhəsiz, sizə Bizim peyğəmbərimiz gəlib ki, o, sizin üçün öz kitabınızdan (İslam peyğəmbərinin xüsusiyyətləri və Onun peyğəmbərliyinin nişanələri kimi) gizlətdiklərinizin bir çoxunu bəyan edir və bir çoxuna (Allahın jism olması barəsindəki sözlərə və peyğəmbərlərə günah nisbət verilməsinə də həlalik) göz yumur. Həqiqətən Allah tərəfindən sizə bir nur və (özü) aydın (olan) və aydınlıq gətirən bir kitab gəlib. Allah (iman gətirib) Onun razılığına tabe olanları o (nur və kitabın) vasitəsilə (üsulid-din və füruid-dinin yolu olan) salamatlıq yollarına hidayət edir, onları Öz köməyi ilə qaranlıqlardan (küfr, nifaq və itaətsizlik zülmətlərindən) nura tərəf çıxardır və doğru yola hidayət edir.»*[1]

9) İnsanları düşünməyə çağırır:

لاَ يُؤَاخِذُكُمُ اللّهُ بِاللَّغْوِ فِي أَيْمَانِكُمْ وَلَكِن يُؤَاخِذُكُم بِمَا عَقَّدتُّمُ الأَيْمَانَ فَكَفَّارَتُهُ إِطْعَامُ عَشَرَةِ مَسَاكِينَ مِنْ أَوْسَطِ مَا تُطْعِمُونَ أَهْلِيكُمْ أَوْ كِسْوَتُهُمْ أَوْ تَحْرِيرُ رَقَبَةٍ فَمَن لَّمْ يَجِدْ فَصِيَامُ ثَلاَثَةِ أَيَّامٍ ذَلِكَ كَفَّارَةُ أَيْمَانِكُمْ إِذَا حَلَفْتُمْ وَاحْفَظُواْ أَيْمَانَكُمْ كَذَلِكَ يُبَيِّنُ اللّهُ لَكُمْ آيَاتِهِ لَعَلَّكُمْ تَشْكُرُونَ

*«Allah sizi bihudə və niyyətində olmadığınız andlar(ı pozmağınız)a görə jəzalandırmaz, lakin sizi jiddi iradə ilə içdiyiniz andlar(ı pozmağınız)a görə jəzalandırar. Buna görə də onu (pozmağı)n kəffarəsi öz ailənizə yedirtdiyiniz orta hesabla on fəqirə yemək vermək, yaxud onları geyindirmək və ya bir qul azad etməkdir. Beləliklə, əgər kimsə (bunları) tapmasa (onun kəffarəsi) üç gün oruj tutmaqdır. Budur and içdiyiniz (və onu*

---

[1] *Маидя суряси, айя 15, 16*

***pozduğunuz) zaman sizin andlarınızın kəffarəsi! Gərək öz andlarınızı qoruyasınız (və pozmayasınız). Allah Öz ayələrini sizin üçün bu jür açıqlayır (ki), bəlkə şükr edəsiniz.»***[1]

Beləliklə, aydın olur ki, Quran hər nə deyirsə, insanı insan etmək üçün deyir və onun əsas qayəsi insan kamillliyidir. Əgər bunun üçün hansısa elmdən istifadə edibsə, bu, Quranın həmin elmə aid olması demək deyil. Quran insanı kamilləşdirmək, mənən böyütmək və həm maddi, həm də mənəvi baxımdan ideal bir varlıq etmək istəyir. Bunun üçün isə ilk dərin düşünməyi, hikməti anlamağı bajarmaq və güjlü imkana sahib olmaq lazımdır. İnsanın isə bu dərəjəyə yolu məhz elm və bilikdən keçir. Odur ki, Qurani-Kərim müxtəlif elmi sahələrə işarə etməklə, keçmişdəkiləri xatırlatmaqla və s. bu kimi ayələrlə insanı dirçəltmək, onu həqiqi insan etmək istəyir. Bəziləri elə düşünürlər ki, hər hansı bir elmi məsələ Quranda öz əksini tapıbsa, yaxud hansısa məşhur bir avropalı alim Qurana diqqət yetiribsə, bu Quran üçün fəxrdir. Amma həqiqət tamamilə əksinədir. Yəni, elm əgər Quranda öz əksini tapıbsa və ya alim əgər Qurana yanaşmaqla tanınıbsa, fəxr etməlidir. Quran öz quranlığının elmsiz də (söhbət dünyəvi elmlərdən gedir) sübuta yetirib. Quran tamamilə elmi kitab deyil, elm Quranın jüzi hissəsidir. Quran özü isə İlahi vəhyin təjəllası olan mənəvi bir xəzinədir. Bu xəzinədə gözəllikdən başqa heç nə tapmaq olmaz. Elm də gözəl olduğu üçün Quranda öz əksini tapmışdır. Odur ki, insan gözəl olarsa, o zaman gözəl Qurandan gözəl ayələri gözəl formada təfsir edə bilər.

---

[1] *Маидя суряси, айя 89*

## *Quran və əql*

Bir çox İslam alimləri əqli ən şərafətli qüvvə adlandırmışlar. Qurani-Kərimin 300-dən artıq ayəsində insanlara əqldən istifadə etmək məsləhət görülür. Bundan əlavə bir çox ayələrdə insana düşünmək göstərişi verilir. Xüsusilə, göylərin, dağların, ağajların, heyvanların və insanın yaradılışına, dillərin, rənglərin və irqlərin müxtəlifliyinə dair ayələrdə əqlə mürajiət olunur. Quranın bir çox ayələrində insana düşünmək, təfəkkür etmək, Yerdə seyr etmək, keçmişdəkilərin əhvalına nəzər salmaq göstərişi verilir. Quranda elmi və biliyi tərifləyən və insanları elm öyrənməyə təşviq edən ayələr də az deyil. Böyük təfsir alimi Əllamə Təbatəbayi əql və təfəkkürün İslam baxımından dəyəri barədə buyurur: «Allah-Təala Quranda hətta bir ayədə də bəndələrinə başa düşmədən və kor-koranə şəkildə Qurana və ya nazil olan hər hansı bir hökmə iman gətirməyi əmr etmir. Hətta bəşər əqlinin anlaya bilmədiyi İlahi hökmlər barəsində də müəyyən mənada səbəb göstərir.»

Əllamə öz sözünü Ənkəbut surəsinin 45-ji, Bəqərə surəsinin 83-jü və Maidə surəsinin 6-jı ayəsi ilə əsaslandırır. Onun fikrinjə, Quranın bir sıra ayələri, ojümlədən Nisa surəsinin 82-ji ayəsi açıq-aşkar bildirir ki, Quran biliklərini diqqət və tədqiq etməklə qazanmaq və bununla da ilk baxışda ziddiyyət kimi görünən ayələri izah etmək olar. Əllamənin baxışı budur ki, sünnət hökmlərin izahı zamanı dərk olunur. O yazır: «…Hökmlərin izahında isə çarə yalnız Peyğəmbər hədisləridir və Quran da belə məqamlarda Rəsulullaha(s) mürajiət etməyi tapşırır.»

Əllamə Quran və sünnədən nejə istifadə olunması barədə buyurur: «Quran və hədislər bəşəriyyətin bütün ehtiyajlarını bəyan edir. Lakin bu ikisini düzgün dərk etmək üçün düzgün üslub və məntiqi baxımdan qüsursuz yollardan istifadfə etmək lazımdır. Elə həm Quran və həm də sünnət insanlara düzgün əqli yollardan istifadə etməyi ijazə verib.»

O əlavə edir: «Haqq və həqiqət haradan əldə olunursa, olsun haqqdır. Haqqı onu izah edənə bəslənən kin-küdurətə görə qəbul etməmək jahiliyyət təəssübkeşliyidir. Allah-Təala isə əziz kitabında öz Peyğəmbərinin dili ilə belə insanları məzəmmət etmişdir.»

Əllamənin dediklərindən məlum olur ki, Qurana sağlam əql və məntiqi yollarla yanaşmaq düzgün üslubdur. Amma bu yanaşma tam obyektivliklə olmalıdır. Yəni müfəssir Qurandan o qədər əhatəli formada agah olmalıdır ki, bir ayəni təfsir edərkən onu digər ayə ilə zidd formada izah etməsin. Dolayısı ilə dünyəvi və təjrübi elmlər, habelə müasir elmi-texniki inkişafın nətijəsində aşkarlanmış heyrətamiz kəşflərin bir neçəsini on dörd əsr bundan qabaq Qurani-Kərimdə öz əksini tapması inkar olunmazdır. Lakin müfəssir unutmamalıdır ki, aşağıdakı məsələlər daim diqqət mərkəzində qalmasa, Quran yalnız təfsir olunar:

1) Quran əsas etibarı ilə hidayət kitabıdır
2) Quran həyat dedikdə əbədiyyəti nəzərdə tutur
3) Quran elm dedikdə həqiqətin özünü nəzərdə tutur

Yəni elmi ayələrin çoxluğu müfəssirə Quranın nə üçün göndərildiyini unutdurmamalıdır. Müfəssir bilməlidir ki, Quranı öz rəyinə əsasən təfsir edə bilmədiyi kimi hər hansı bir elm baxımından da təfsir edərək digər jəhətlərə göz yuma bilməz. Əgər Quranın təfsirindən məqsəd Allah-Təalanın nə demək istədiyini müəyyən qədər izah etmək heıab olunursa, bu zaman ayələrin mənası hansısa elmin və ya rəyin əsasında deyil, hidayt baxımından izah olunmalıdır. Bu isə heç də elmi ayələrin izahına maneçilik törətmir, əksinə belə ayələr izah edildikdən sonra Allahın bu ayələri nə üçün göndərdiyini anlatmaq göstərişi verir.

Bir də unutmaq olmaz ki, elm Quranı təfsir etmək üçün lazımlı olsa da, kifayət etmir. Mərhum Əllamə bu haqqda

buyurur: «Elm bir çıraq, bir işıqdır və insan bu çırağın vasitəsi ilə bir çox təbii sirləri izah edə bilir. Lakin bu çıraq təbii aləmdə faydalı olsa da, fövqəltəbii aləmə nüfuz edə bilmir.»

Əllamə özü bu ayələri təfsir edərkən dünyəvi elmlərin qəti və şübhəsiz nətijələrindən istifadə edir və bu zaman iki məsələni diqqət mərkəzində saxlayırdı:

1) Elmi fərziyyə və ehtimalları, şübhə yeri qalan və qəti olmayan elmi nətijələri ayələrə tətbiq etməkdən imtina edirdi.
2) Elmi ayələrin mənasını həmin elmi sahə ilə məhdudlaşmır və ayənin daha geniş məna daşıması ehtimalını bildirirdi.

Quranın İlahi bir kitab olduğunu dərk edən şəxs Əllamənin üslubunun ən ehtiyatlı və ən ideal üslublardan olmasını anlamamış deyil. Əslində belə təfsir üslubu hər bir təfsirçinin üslubuna çevrilməlidir.

Əgər sözümüzü məntiqi çərçivəyə salmaq istəsək, gərək belə deyək.

Allah-Təala tərəfindən bəşərin hidayəti üçün nazil olmuş Qurani-Kərim həjm, fiziki tutum və söz baxımından təqribən altı yüz səhifəni keçməyən məhdud bir kitabdır.

Lakin bu məhdud və eyni zamanda ən doğru kitab özünü bütün məsələləri bəyan edən adlandırır.

Belə məhdud kitabda hər şeyin bəyan olunması yalnız rəmz və sirli sözlərin olduğu, habelə az sözlə çox mənanın gizləndiyi təqdirdə mümkündür.

Bunu isə həm Quran özü, həm Əhli-beyt sünnəsi və həm də insan ağlı təsdiq edir.

Bütün deyilənlərdən aşağıdakı nətijələri alırıq.

1) Quranı yalnız elmi baxımdan təfsir etmək yalnış fikirdir.
2) Quranı onun tələb etdiyi qədər dərin və diqqətli düşünjə olmadan anlamaq azğınlıq yaradır.

3) Müfəssir təfsir edərkən nə öz rəyini, nə də hansısa elm və alimin rəyinin təsiri altına düşməməlidir.

# İmam Rzanın(ə) bəyanatlarında Quranın təfsiri üslubu

Allah-Təala bəndəsinin hidayəti üçün ona Quranı göndərdi. Ona aşkar nur, xalqa aydın olan və zikr dedi. İslam Peyğəmbəri Quranı əbədi bir konstitusiya qoyub gedərkən belə buyurmuşdu: «Sizin aranızda iki ağır şey qoyuram. Onlardan ayrılmayın, yoxsa azarsınız. Onlardan birinjisi Quran, ikinjisi isə Əhli-beytimdir.» Məlum olduğu kimi Peyğəmbərin Əhli-beyti məsum imamlarımızdır. Elə bir imamlar ki, dövrün ən yüksək zirvəsindədirlər. O zirvədən yüksəyi  fəth etmək mümkün deyil.

İmam –«Natiqi-Quran» danışan Qurandır. Çünki Quran onların danışıq, rəftar və əməllərində təjəlla etmişdir. İmam – Quran yolunu getmək istəyənlərə bir meyar, bir ölçüdür. Çünki təklikdə bu yolu gedərkən çaşa, səhvə yol verə bilərik. O, həqiqi janlı Qurandır.

Allah-Təala bu yolu bizə göstərərkən insanların hidayəti və Quranın müəllimlərini də təqdim edib buyurur:

**لَّا يَمَسُّهُ إِلَّا الْمُطَهَّرُونَ.**

***«Mütəhhərlərdən başqa kimsə onu təfsir edə bilməz.»[1]***

İmamlar da hərəsi öz növbəsində müxtəlif jəhətlərdən Qurana təfsir və izahat veriblər. Mən bu məqaləmdə İmam Rzanın (ə) Quranın müxtəlif sahələrində etdiyi xidmətlərindən

[1] *Вагея суряси, айя 79*

söz açaraq onun Quranın elmi ayələrinə etdiyi təfsirlərdən bir neçəsinə işarə edəjəyəm.

İmamət məktəbinin səkkizinji günəşi İmam Rzanın (ə) 55 illik ömrünün 20 ilini imamət dövrü təşkil edir. Onun 17 ili Mədinə, 3 ili Xorasanda keçmişdir. O imamın yaşadığı əsr elmin inkişafı dövrü sayılır. Məmun o həzrəti elmdə məğlub etmək və xalqın gözündən salmaq üçün müxtəlif dinlərin böyüklərini, alimlərini onunla elmi müzakirəyə dəvət edirdi. Amma onun gözlədiyinin əksinə olaraq İmam hamısını öz elmi qarşısında heyran edir və onları Haqqı etiraf etməyə məjbur edirdi.

O Həzrətin fiqhin müxtəlif bölmələri, əhkami ayələrin təfsiri, tövhid, nübuvvət, imamət, məad, iman və küfr və digər etiqadi məsələlər haqqında buyurduğu mövzular Quranın etiqadi məsələlərə baxışının şərhidir. İmam Rzanın (ə) nəsihətləri, onun ədəb və əxlaqı Quranın əxlaq ayələrinin göstərijisidir. Qısa sözlə desək, Quranın «təfəkkürü», «danışığın rəftarı» İmam Rzada (ə) təjəssüm etmişdir. Yəni o həzrət janlı Qurandır.

İbrahim ibn Abbs nəql edir: «O həzrətin sözləri, javabları, bəyanatları və etdiyi sübutlar hamısı Qurandan götürülmüşdür.Hər üç gündə bir Quran xətm edərdi və belə buyurardı: «İstəsəydim Quranı üç gündən də tez xətm edərdim, amma ayənin haqqında və nə barədə nazil olduğunu düşünmədən həmin ayənin üzərindən keçmərəm.»

O həzrətin bəyanatlarına nəzər salaraq Quranın təfsiri üslublarını aşağıdakı kimi qeyd edə bilərik.

A) Quranın fəzilətinin bəyanı

Bir çox ayələrdə Quran özünün yüksək məqamına və rütbəsinə işarə etmişdir. Bu yolla o insanlara ondan üz döndərmək üçün heç bir bəhanə yolu qoymamış və höjjəti tamamlamışdır. O, hər bir insanın dərk edəjəyi tərzdə nazil

olmuşdur. Quranın həqiqətlərinə tam arif olan Əhli-beyt də onun şənini və fəzilətini açıq şəkildə bəyan etmişlər.

Rəyyan ibn Silət Həzrət İmam Rzadan (ə) soruşdu: «Sizin Quran bərəsində nəzəriniz nədir?» İmam Buyurdu:

كلام الله لا تجاوزوه ولا تطلبوا الهدى في غيره فتضلوا

«Quran Allahın kəlamıdır. Onun buyurduğundan irəli keçməyin. Hidayəti ondan başqasında axtarmayın, yoxsa azarsınız.»

İmamın bu kəlamı göstərir ki, «Hidayət», «xöşbəxtliyin yolu» Qurandadır. Ondan qabağa keçmək və ondan geridə qalmaq azmağa səbəb olar. Çünki Quran Allahın kəlamı və həqqdır.

Nejə ki, Yunis surəsinin 92-ji ayəsində buna işarə edilir.

فَالْيَوْمَ نُنَجِّيكَ بِبَدَنِكَ لِتَكُونَ لِمَنْ خَلْفَكَ آيَةً وَإِنَّ كَثِيرًا مِّنَ النَّاسِ عَنْ آيَاتِنَا لَغَافِلُونَ

***«Beləliklə, bu gün səni jansız bədəninlə birgə qurtarıb dəniz sahilinin uja bir yerinə atacağıq ki, səndən sonra gələnlərə (Allahın qüdrəti və batil qüdrətlərin zilləti barədə) bir nişanə olasan. Doğrudan da insanların çoxu bizim nişanələrimizdən qafildirlər.»***

B) Məhəmməd ibn Musa Razi atasından rəvayət edir ki, bir gün İmam Rzanın (ə) yanında idim. Söhbət Qurandan düşdü. İmam Quranın höjjətlərindən, möjüzə olmağından, nizam-intizamından söhbət edərək dedi: «Quran Allah bəndələrinin içərisində möhkəm ip, qırılmaz vasitədir. Behiştə tərəf hidayət, jəhənnəmdən azad edir. Zaman keçməsi ilə köhnəlməyib dillərdə təkrarlanmaqla onun dəyəri azalmaz. Çünki Allah onu xüsusi zaman üçün nazil etməyib. O, bütün

insnlar üçün həyatları boyu bir dəlildir. Ona heç bir zaman batil daxil olmaz.»

İmam Quranı bütün əsrlərin və şəxslərin ehtiyajını ödəyən bir kitab kimi tanıdır. Ona görə təfsir olunan və anlaşılandır. Yalnız nazil olduğu dövrə və mədəniyyətə xas deyil.

İmamdan «Niyə Quran günbəgün araşdırılmasına, qiraət olunmasına baxmayaraq öz təravətini itirmir ?»-deyə soruşan bir şəxsin javabında belə buyurur: «Quran xüsusi insanlar və zaman üçün nazil olmamışdır. O, hər bir zamanda, hər bir millət üçün təzədir. Sanki yeni nazil olmuşdur.

## Quran elmlərinin bəyanı

Bəzən Quranın araşdırılmasında və elmi bəhslərində Quran özü bəhsin mövzusuna çevrilir. Bəzən isə onun müxtəlif mövzuları barədə mütaliə olunur və araşdırılır. Belə mövzulara Quranın nazil olması, nazil olmanın səbələri, Məkki və Mədəni ayələr, qiraətlər, möhkəm və mütəşabih, nasix və mənsux ayələr, Quranın ədəbi bəhsləri, ejaz və sairə aiddir. Bunlar Quran elmlərinə aid olunur. İmam Rzadan (ə) nəql olunan elmlərdə bu Quran elmləri qeyd olunur:

1) Nazil olmanın tərtibi: İmam Rza (ə) buyurub: «Atamdan eşitdim, atasından nəql edirdi ki, ilk nazil olan surə «Ələq» axırınjı nazil olan surə «Nəsr» surəsidir.»

2) Möhkəm və mütəşabih bərəsində iİmamın münasibəti.

Əli ibn İbrahim Quməni İmam Rzadan (ə) rəvayət edir: «Hər kəs Quranın mütəşabih ayələrinin izahında möhkəm ayələrə istinad etsə, doğru yolda rəhbərlik edir. Həmçinin bizim hədislərdə də Quranın mütəşabih ayələri kimi mütəşabih sözlər və onun möhkəm ayələri kimi möhkəm kəlamlar var. Odur ki, bu sözlərdə də mütəşabihlərin möhkəmlərinə istinad edin və

möhkəmləri nəzərə almadan mütəşabihlərə əməl etməyin, yoxsa azarsınız.»

هُوَ الَّذِيَ أَنزَلَ عَلَيْكَ الْكِتَابَ مِنْهُ آيَاتٌ مُّحْكَمَاتٌ هُنَّ أُمُّ الْكِتَابِ وَأُخَرُ مُتَشَابِهَاتٌ

«Bu kitabı sənə nazil edən Odur. Onun (kitabın) bir hissəsi kəlmələri aşkar (və mənası aydın) olan «möhkəm» ayələrdir ki, onlar kitabın əsası və anasıdırlar (başqa ayələrdə olan qaranlıq məqamlar onların vasitəsi ilə aradan qaldırılır). Digər bir hissəsi «mütəşabih» (bir neçə mənası olan) ayələrdir (və onların mənası məzmununun genişliyi, məfhumunun dərinliyi və ondan nəzərdə tutulan məqsədlərin çoxluğu səbbindən ilk nəzərdə aydın deyildir və onlar «möhkəm» ayələrin və sağlam ağlın köməyi ilə təfsir olunmalıdırlar).

Ali-İmran surəsinin 7-ji ayəsinə əsasən Quranın ayələri möhkəm və mütəşabihə bölünür.

Möhkəmat elə ayələrdir ki, aydındırlar və onlarda heç bir qaranlıq yer və məsələ yoxdur. Ona görə də ondan başqa, səhv məna çıxartmaq olmur. Amma mütəşabihat elə ayələrdir ki, onları eşitdikdə məqsəd tam aydın olmur. Bu zaman bəzi mənalar arasında şübhə yaranır. Möhkəmatlara mürajiət olunmaqla onların düzgün mənası aydın olur.

İmam Rzanın (ə) möhkəm və mütəşabih ayələr haqqında buyurduqlarından iki məsələ aydın olur.

1) Quranın mütəşabihləri möhkəmata əsasən aydınlaşdırılmalıdır. Əks təqdirdə Qurandan düzgün istifadə olunmaz və azğınlıq baş verər. Buna görə də mütəşabih, ayənin «anlaşılmaz və istifadə olunmaz» mənasında deyil, «möhkəmlə təfsir olunmaq» mənasındadır.

2) Məsumların sünnət və hədislərində də Allahın kitabı kimi möhkəm və mütəşabihlər vardır. Buna görə də imamın

sözlərini başa düşmək üçün bu məsələ nəzərə alınmalı, hədis tanımaq, sünnəti başa düşməyin qaydalarının bir şaxəsi kimi araşdırılmalıdır.

## Qurana istinad edib ondan sübutlar gətirmək

Məsum imamların ən böyük xüsusiyyətlərindən biri də bu idi ki, onlar öz sözlərində daim Qurana istinad edir və ondan sübut gətirirdilər. Onlar belə buyururdular: «Bizdən bir şey istədiyiniz zaman onun dəlilini Allahın kitabından istəyin.»

İmamların Qurana bu münasibəti insana Qurana istinad etmək və təfsir etmək üsulunu öyrədir.

İmam Rza (ə) öz söhbətləri əsnasında Qurandan ayələr, sübutlar gətirirdi. Nümunə üçün o həzrətin məşhur «İmamət» hədisinə 23 Quran ayəsi gətirdiyini və digər ayələrdən də söhbət əsnasında istifadə etdiyini qeyd etmək olar.

Başqa bir misala nəzər salaq:

Bir şəxs İmam Rzaya (ə) etiraz edərək belə deyir: «Allah xeyrini versin. Nejə oldu ki, işin o yerə çatdı ki, Məmunun vəliəhdliyini qəbul etdin?!»

İmam buyurdu:- «Ay kişi nəbi üstündür, ya vəli?»

-Əlbəttə nəbi.

İmam ikinji dəfə soruşdu:- «Müsəlman üstündür, yoxsa müşrik?»

-Əlbəttə müsəlman.

İmam buyurdu: «Misirin Əzizi (padşah) müşrik idi. Yusif də peyğəmbər. İndii Məmun müsəlmandır, mən vəli. Bundan əlavə Yusif Əzizdən istədi ki, onu işə götürsün və dedi:

قَالَ اجْعَلْنِي عَلَى خَزَآئِنِ الأَرْضِ إِنِّي حَفِيظٌ عَلِيمٌ

***«Məni bu yerin xəzinələrinə başçı et! Çünki mən doğrudan da qoruyan və bilijiyəm.[1]***

İmam buyurdu: «Mən isə bu işə məjbur oldum.»

İmam Rzanın (ə) belə nümunələri həddindən artıq çoxdur. Bunun üçün kitablara mürajiət etmək olar.

## Şəni-nüzul- Nazil olmanın səbəbi

Həzrət İmam Rzadan (ə) bəzi ayələr və surələrin nazil olması barədə (şəni-nüzul) hədislər nəql olunmuşdur.

1) O həzrət atalarından nəql edir ki, Bəqərə surəsi, ayə 274 Həzrət Əli (ə) barədə nazil olmuşdur.

الَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُم بِاللَّيْلِ وَالنَّهَارِ سِرًّا وَعَلاَنِيَةً فَلَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ وَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ

***«Öz mallarını gecə və gündüz, gizlin və aşkar (şəkildə Allah yolunda) xərjləyənlərin Rəbbi yanında məqamlarına layiq mükafatları vardır. (Axirətdə) onlar üçün nə bir qorxu var və nə də qəmgin olarlar.»***

2) Digər bir hədisdə İmam Əlidən (ə) nəql edir. Müsəlmanlar Peyğəmbərə ərz etdilər: «Ya Rəsulallah! Kaş ki, qüdərətin çatan insanları İslamı qəbul etməyə məjbur edərdin. Onda bizim jəmiyyət artardı və biz düşmənin müqabilində güjlü olardıq.» Peyğəmbər buyurdu: «Mən istəmirəm ki, Allahın mənə göstəriş vermədiyi halda bidət qoyaraq Onunla görüşüm. Mən o kəslərdən deyiləm ki, özümdən nə isə quraşdırım.» Həmin vaxt Allah-Təala bu ayəni nazil etdi:

[1] *Йусиф суряси, айя 55*

وَلَوْ شَاء رَبُّكَ لآمَنَ مَن فِي الأَرْضِ كُلُّهُمْ جَمِيعًا أَفَأَنتَ تُكْرِهُ النَّاسَ حَتَّى يَكُونُواْ مُؤْمِنِينَ

وَمَا كَانَ لِنَفْسٍ أَن تُؤْمِنَ إِلاَّ بِإِذْنِ اللّهِ وَيَجْعَلُ الرِّجْسَ عَلَى الَّذِينَ لاَ يَعْقِلُونَ

***«Və əgər sənin Rəbbin (yaradılış iradəsi ilə) istəsəydi, yer üzündə olanların hamısı mütləq bütünlüklə məjburi surətdə iman gətirərdilər. (Lakin Allah məcburiyyət olmadan iman gətirilməsini buyurmuşdur.) Yoxsa sən jamaatı zorla mömin olmağa məjbur edəjəksən?!»***

***«Və heç kəs Allahın izni və köməyi (Onun əqli və nəqli hidayəti) olmadan iman gətirə bilməz (və bu, ağıl baxımından da mümkün deyildir). Allah murdarlığı (azğınlığı bütün dəlil-sübutlar təqdim edildikdən sonra) düşünməyən kəslərin üzərinə qoyur.»***[1]

Bu ayə xəlifə Məmun üçün qaranlıq idi. İmam Rza (ə) bu ayənin şəni-nüzulunu onun üçün açıqlayaraq izah etdi.

Hijrətin ilk əsrlərində müxtəlif firqə və məzhəblər yarandı. Belə ki, onlar Quranın mütəşabih ayələrini düzgün təfsir etməyərək əqidələri təhrifə, fitnə-fəsada yol verirdilər. Allahın insana oxşadılması, Ona üzv, jism nisbət verilməsi, Allahı görməyin mümkün olması kimi fikrlər onların əqidələrini təşkil edirdi. Bütün bunlar Qurana səthi baxış, onun möhkəm və mütəşabih ayələrini tanımamaq, vəhy mənbələrindən uzaq olmaq və həmin firqələrin istəklərindən irəli gəlirdi. Həmin vaxtlarda İmamiyyə məzhəbi Əhli-beytin bərəkətinin, onların Quranın əqidəvi ayələrinin düzgün təfsirinin sayəsində belə xətalardan uzaq oldu. Elmdə yüksək məqam sahibi Ali-

---

[1] *Йунис суряси, айя 99,100*

Məhəmmədin alimi, səkkizinji imamımız İmam Rza (ə) bu sapınmaların qarşısını almaqda, mütəşabih ayələri düzgün təfsir etməkdə mühüm rol oynamışdır. O Həzrət qarşıya çıxan hər bir fürsətdə Quranın təfsiri barədə öz vəzifələrini həyata keçirir, Allahın bəşəri təxəyyüllərdən uzaq olduğunu çox gözəl şəkildə izah edirdi. Bu barədə bir nümunə qeyd etmək yerinə düşər.

Həsən ibn Əli ibn Fəzzal İmam Rzadan(ə) rəvayət edir ki, mən o həzrətdən Bəqərə surəsinin 15-ji ayəsi,

اللّهُ يَسْتَهْزِىءُ بِهِمْ وَيَمُدُّهُمْ فِي طُغْيَانِهِمْ يَعْمَهُونَ

***«Allah da (Qiyamətdə) onları ələ salajaqdır. (İndi) kor-koranə dolandıqları azğınlıqlarında onlara möhlət verir və (azğınlıqlarını) güjləndirir.»[1]***

Nisa surəsinini 142-ji ayəsi,

إِنَّ الْمُنَافِقِينَ يُخَادِعُونَ اللّهَ وَهُوَ خَادِعُهُمْ وَإِذَا قَامُواْ إِلَى الصَّلاَةِ قَامُواْ كُسَالَى يُرَآؤُونَ النَّاسَ وَلاَ يَذْكُرُونَ اللّهَ إِلاَّ قَلِيلاً

***«Həqiqətən münafiqlər Allaha qarşı hiyləgərlik edirlər, halbuki, Allah onları aldadır (onların hiylələrinin jəzasını özlərinə qaytarır). Onlar namaza durarkən (yerlərindən) süst qalxır, jamaatla (ünsiyyətdə olarkən) riyakarlıq edir və Allahı çox az yada salırlar»[2]***

Ali-İmran surəsinin 54-jü ayəsi barəsində

وَمَكَرُواْ وَمَكَرَ اللّهُ وَاللّهُ خَيْرُ الْمَاكِرِينَ

***«Və onlar (Bəni-İsrail kafirləri İsanı öldürmək və onun dinini məhv etmək üçün) hiylə işlətdilər və Allah da onların hiylələrinin javabını verdi. Allah hiyləyə javab verənlərin ən yaxşısıdır. (İsa əleyhissəlamın qətl planını jızanı onun, yəni həzrət***

---

[1] *Бягяря суряси, айя 15*

[2] *Ниса суряси, айя 142*

***İsanın surətinə saldı və dostları İsanın əvəzinə onu dara çəkdilər. Və Allah sonra İsanın dininə rəvaj verdi.)»*[1]

soruşduqda buyurdu: «Allah-Təala istehza etmir, hiylə və kələkdən də istifadə etmir. Ayələrdə məqsəd budur ki, Allah-Təala istehza edənlərin, hiyləgərlərin, fırıldaqçıların jəzalarını verər. Allah zülmkarların Ona nisbət verdiklərindən çox-çox uzaqdır.»

Həsən ibn Əli ibn Fəzzal deyir: «İmam Rzadan (ə) Mütəffifin surəsinin 15-ji ayəsi barədə soruşdum.»

كَلَّا إِنَّهُمْ عَن رَّبِّهِمْ يَوْمَئِذٍ لَّمَحْجُوبُونَ

***«Belə deyil (Onların güman etdiyi kimi deyil,) şübhəsiz, o gün onlar Rəbbin(in lütfün)dən məhrum olajaqlar.»*[2]

O Həzrət buyurdu: «Allah-Təala vəsf olunan deyil. Yəni ayə o mənada deyildir ki, Allah hansısa məkandadır, Onunla bəndələri arasında hijab vardır. Məqsəd budur ki, onlar Allahın savabından hijabda və məhrumdurlar.

## Peyğəmbərlərin məsumluğu

Peyğəmbərlərin günahdan uzaq olması bütün firqə və məzhəblər arasında qəbul olunmuş mövzudur. Lakin onun həddinin nejəliyi haqqında ixtilaf vardır. Bəziləri hətta nübuvvət dövründə kiçik günahları peyğəmbər üçün jaiz bilirlər, bəziləri peyğəmbərlikdən önjə böyük günahları rəva bilirlər.

Əhli-beyt məktəbi və onun ardıjılları bütün peyğəmbərləri, istər nübuvvətdən önjə, istər sonrakı dövrlərdə, istər kiçik, istərsə də böyük günahlardan uzaq olduğunu təsdiqləyirlər.

İmam Rza (ə) öz müzakirələrində peyğəmbərlər barədə olan belə suallara çox gözəl javablar vermiş və İslam ümməti üçün böyük bir irs qoymuşdur.

---

[1] *Али-Имран суряси, айя 54*
[2] *Мцтяффифин суряси, айя 15*

Məhəmməd ibn Əli ibn Jəhm nəql edir: «Məmunun məjlisində idim. Əli ibn Musa Rza(ə) da orada idi. Məmun o Həzrətə dedi: «Ey Allah Rəsulunun oğlu! Məgər sizin fikriniz bu deyildir ki, peyğəmbərlər hər jür günahdan uzaqdırlar?»

O Həzrət buyurdu: «Bəli düzdür.»

Bu ayəni

فَلَمَّا جَنَّ عَلَيْهِ اللَّيْلُ رَأَى كَوْكَبًا قَالَ هَذَا رَبِّي فَلَمَّا أَفَلَ قَالَ لا أُحِبُّ الآفِلِينَ

***«Beləliklə, gejə onun üzərinə qaranlıq pərdə çəkən zaman o, bir ulduz gördü (və müşriklərlə mübahisə etmək üçün) dedi: «Bu mənim Rəbbimdir.» Elə ki, (həmin ulduz) batdı (İbrahim) dedi: «Mən batanları sevmirəm».[1]***

mənim üçün açıqlayın.

İmam Rza(ə) buyurdu: «Həzrət İbrahim üç qrup arasında idi: aypərəst, günəşpərəst və ulduzpərəst. O Həzrət gejənin qaranlıq pərdəsi hər yeri örtdükdən sonra Zöhrə ulduzunu gördü və sual edərkən inkar etdi və dedi: «Bu mənim Rəbbimdir? Zöhrə ulduzu itdikdən sonra o Həzrət dedi: «Mən batan şeyləri sevmirəm. Çünki əgər o, batırsa, deməli yaranmışdır. Qədim deyil və həmişəlik deyil. Sonra Ayı gördükdə inkar edərək dedi: «Bu mənim Rəbbimdir?» Ay batdıqdan sonra günəş çıxır. Sual edərək deyir: «Bu mənim Rəbbimdir?» Bu Aydan və ulduzdan böyükdür. Günəş qürub etdikdən sonra bu üç qrupa deyir: «Mən sizin şərik qərar verdiyinizdən bizaram. Mən elə bir kəsə üz tuturam ki, yeri və göyü yardıb. Mən müşriklərdən deyiləm.» Həzrət İbrahim istəyirdi ki, onların səhv və batil fikirlərini açıqlasın. Onlar Ay, ulduz, günəşə deyil, onları yaradana ibadət etsinlər. Onun işi

---

[1] *Янам суряси, айя 76*

Allahın ona verdiyi ilham idi. Nejə ki, Ənam surəsi 83-jü ayədə buyurur:

وَتِلْكَ حُجَّتُنَا آتَيْنَاهَا إِبْرَاهِيمَ عَلَى قَوْمِهِ نَرْفَعُ دَرَجَاتٍ مَّن نَّشَاء إِنَّ رَبَّكَ حَكِيمٌ عَلِيمٌ

***«O (tovhid barəsindəki dəlillər), Bizim dəlil-sübutumuz idi ki, qövmünün müqabilində İbrahimə əta etdik. İstədiyimiz şəxsi dərəjə-dərəjə ujaldırıq (və İbrahimi peyğəmbərlik, imamət və dostluq dərəjələri ilə ujaltdıq). Doğrudan da sənin Rəbbin xilqət və şəriətdə möhkəm yaradılış sahibi və (hər şeyi) biləndir.»***

## Ayələrin təfsir olunması və adamların suallarına javab

Müəyyən dövrlərdə xalq üçün bəzi Quran kəlmələri qaranlıq qalmış, onlarda müəyyən suallar yaranmış və təfsirə ehtiyaj duymuşlar. İmam Rza(ə) da Quranın bəzi kəlmələrini izah etmiş, Quran ibarələri və Allahın məqsədini açıqlamış, bəzən də xalqın suallarını javablandıraraq çətinlikləri aradan qaldırmışdır.

Məsələn, Əraf surəsinin 31-ji ayəsində sual olunur.

يَا بَنِي آدَمَ خُذُواْ زِينَتَكُمْ عِندَ كُلِّ مَسْجِدٍ وكُلُواْ وَاشْرَبُواْ وَلاَ تُسْرِفُواْ إِنَّهُ لاَ يُحِبُّ الْمُسْرِفِينَ

***«Ey Adəm övladları, hər namaz vaxtı və hər bir məsjiddə (əməl və məkana uyğun olaraq) bəzək və zinətlərinizi götürün (gözəl geyinin), (Allahın halal buyurduğu bütün halal yeməklərdən) yeyin-için, lakin israf etməyin ki, O, israf edənləri sevmir.»***

İmam Rza(ə) rəvayət edir ki, bu ayənin mənası odur ki, namaz vaxtı və məjlislərdə gözəl və zinətli paltarlarınızı geyinin.

Yaxud İbrahim peyğəmbər Allahdan ölüləri nejə dirildəjəyini soruşduqda Allah ona او لم تومن- deyə soruşur. İbrahim, niyə görə iman gətirmisən? Lakin yəqinə çatmaq istəyirəm.

Səfvan ibn Yəhya üçün şübhə yaranmışdı ki, İbrahimin qəlbində şəkk vardırmı? İmam Rza(ə) buyurdu: «Xeyr, onun yəqini var idi. Sadəjə yəqininin artmasını istəyirdi.»

## Quranı Quranla təfsir etmək

Qurani-Kərimi təfsir etmək üsullarından biri də onu elə Quranın ayələri ilə təfsir etməkdir. Bu üsul elmdə «Quranı Quranla təfsir etmək» adlanır. Alimlərin nəzərinjə bu ən gözəl təfsir üsuludur. Məsum imamların Quranı Quranla təfsir etmək nümunələri həddindən artıq çoxdu. İmam Rzadan (ə) bir nümunə qeyd etmək yerinə düşərdi.

Bir şəxs İmam Rzadan(ə) Tövbə surəsi, 67-ji ayə barədə soruşdu.

الْمُنَافِقُونَ وَالْمُنَافِقَاتُ بَعْضُهُم مِّن بَعْضٍ يَأْمُرُونَ بِالْمُنكَرِ وَيَنْهَوْنَ عَنِ الْمَعْرُوفِ وَيَقْبِضُونَ أَيْدِيَهُمْ نَسُواْ اللّهَ فَنَسِيَهُمْ إِنَّ الْمُنَافِقِينَ هُمُ الْفَاسِقُونَ

***«Münafiq kişilərlə münafiq qadınların bəziləri bəzilərindəndirlər (etiqad və əməldə bir-birləri ilə bağlıdırlar). Pis işlər görməyi əmr edərlər, yaxşı işləri qadağan edərlər və öz əllərini (mallarını haqq yolunda xərjləməyə) bağlayarlar. Onlar Allahı unutdular, Allah da onları unutdu (bütün dəlil-sübutları göndərdikdən sonra onları öz başlarına buraxdı). Şübhəsiz münafiqlər həmin itaətsizlərdir.»***

İmam buyurdu: «Allah-Təala unutmaz, Ona heç bir qəflət yol tapmaz. Yalnız məxluqat unutqanlığa və səhvə yol verər. Eşitməmisən ki, Allah-Təala Məryəm surəsinin 64-jü ayəsində buyurur:

وَمَا كَانَ رَبُّكَ نَسِيًّا

***«Sənin Rəbbin əsla unutqan deyil»***

Sözsüz ki, Onu unudanları Qiyamət günü jəzalandırar və onları öz yadlarından da çıxara. Nejə ki, Həşr surəsi, 19-ju ayədə buyurur:

وَلَا تَكُونُوا كَالَّذِينَ نَسُوا اللَّهَ فَأَنسَاهُمْ أَنفُسَهُمْ أُوْلَئِكَ هُمُ الْفَاسِقُونَ

***«Allahı unutduqlrına görə Allah da onları özlərinə unutdurduğu kəslər kimi olmayın. Əsl fasiqlər onlardırlır.»***

Yenə də Əraf surəsi, ayə 51 də buyurur:

الَّذِينَ اتَّخَذُواْ دِينَهُمْ لَهْوًا وَلَعِبًا وَغَرَّتْهُمُ الْحَيَاةُ الدُّنْيَا فَالْيَوْمَ نَنسَاهُمْ كَمَا نَسُواْ لِقَاء يَوْمِهِمْ هَذَا وَمَا كَانُواْ بِآيَاتِنَا يَجْحَدُونَ

***«Dinlərini oyun-oyunjağa döndərənlər və dünya həyatını özlərinə məğrur edənlər bu günün görüşünü unutduqları və ayələrimizi inkar etdikləri kimi biz də bu gün onları unudarıq.»*** Yəni onları öz hallarına buraxarıq.

Bu nümunədə görürük ki, İmam Rza (ə) bu suala dörd Quran ayəsi gətirərək təfsir edir.

Deməliyəm ki, qeyd etdiklərim Həzrət İmam Rzanın (ə) Quran elmlərində qoyduğu irsdən nümunələr idi. Bunu da qeyd etmək lazımdır ki, yalnız İmam Rza (ə) deyil, bütün məsum imamlarımız Quranın təfsirində böyük xidmətlər etmişlər. Onlar təfsir məktəbidirlər. Bu məktəbdən dərs almaq istəyənlər onlara mürajiət etməlidirlər.

Məqaləmi bir hədislə sona yetirirəm

قال الصادق(ع): ان الله علم نبيه التنزيل و التاويل.فعلم رسوا الله عليا و علمنا...

İmam Sadiq (ə) buyurmuşdur: «Allah-Təala Peyğəmbərinə tənzil və təvili öyrətdi. Rəsulullah da Əliyə öyrətdi. Əli də bizə öyrətdi.

# Quran və sünnət əsasında həyat

Yaranmışların ən üstünü olan insan torpaq və mələkuti ruhun vəhdətindən təşkil olunduğu üçün Tanrı tərəfindən öyülür və müqəddəs Qurani-Kərimdə mələklərin səjdəgahı, İlahi əmanətin daşıyıjısı, Allahın yer üzərində xəlifəsi kimi təqdim olunur. İnsanı digər janlılardan fərqləndirən və üstün edən xüsusiyyətlərdən biri onun mənəvi təkamül yolunu könüllü, ixtiyari şəkildə seçməsi və bu yolu könüllü şəkildə getmək bajarığıdır. Başqa sözlə desək, insanı insan edən əsas məsələ onun seçim imkanına, seçim hüququna malik olmasıdır. Qurani-Kərim insanın seçim güjünə, seçim qabiliyyətinə malik olmasını açıq şəkildə bəyan edir və buyurur: «Biz insna doğru yolu göstərdik, istər şükr etsin, istər küfr etsin. İstər doğru yolu getsin, istər doğru yoldan uzaq düşsün.»

İslamda insanın azad olması, onun özbaşına buraxılması anlamında deyil, ixtiyari olaraq sorumluğunu qəbul etməsi və öz məsuliyyətinin dərk etməsindədir. İnsan sorumludur, amma kimin qarşısında? Bəzi məktəblərin bu mövzuda açıqlaması yoxdur, çünki insandan uja olan bir şüur, hesab sorajaq bir varlıq tanımırlar. Amma İslamda insanın məsuliyyəti böyük bir qüdrət, hakim və hər şeydən xəbərdar olan biri qarşısındadır ki, jiddi sorğu-suala çəkiləjək və edilən əməllərə qarşı təpki göstərəjək: «Etdtklərinizdən mütləq sorğuya çəkiləjəksiniz.»

Gerçəkdən belə təfəkkür insanda məsuliyyət, əməl və fəaliyyətə misilsiz bir rəğbət yaradır. Bu məntiqə əsaslanan insan başqalarına arxalanmamalıdır, ailəvi durum, övlad və mal heç kəsin qurtuluşuna səbəb ola bilməz, o, anjaq öz əməllərinə güvənə bilər.

Quran məntiqinə əsasən insanın səadəti və bədbəxtliyi önjədən təyin olunmur. Bu anjaq və anjaq onun əməlindən asılıdır. Ümumiyyətlə, insanın insan barədə olan nəzəriyyəsi və onun dinlərlə müqayisəsi bu nəzəriyyənin nə dərəjədə uja olduğunu açıq şəkildə göstərir. Məlum olduğu kimi Avropa intibahını şərtləndirən əsas amillərdən biri reformasiya hərəkatı olub. Kilsə təlimlərindən islahat tələbi ilə meydana çıxan protestantlar əsasən üç tələb irəli sürürdülər. Bu tələblərdən biri insan şəxsiyyətinə önəm verilməsi və insanla Tanrı arasında kilsənin vasitəçilik missiyasının ləğv olunmasından ibarət idi. İkinji tələb insan ağlının əhəmiyyətinin və dinin rasional təfəkkürə əsaslanma zərurətinin önə çəkilməsi idi. Protestantların irəli sürdüyü üçünjü müddəa insan əməlinin əhəmiyyəti, insanın səadətində onun əməlinin həllediji rolunun qabardılmasından ibarət idi.

Yuxarıda sadalanan bu üç müddəanın Qurani-Kərimdə nə dərəjədə əks olunduğunu araşdırdıqda bəlli olur ki, İslamın hər üç mövzu barədə mövqeyi tamamilə aydındır. İslamın insan şəxsiyyətinə verdiyi önəm

وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ

***«Biz Adəm övladını kəramətli etdik»,*** [1]

إِنِّي جَاعِلٌ فِي الأَرْضِ خَلِيفَةً

***«Yer üzündə özümə xəlifə yaratmaq istəyirəm»*** [1] ayələrində özünü açıq şəkildə göstərir.

---

[1] *Исра суряси, айя 70*

İkinji məsələ, yəni insan ağlının və təfəkkürünün əhəmiyyəti barədə Quranın mövqeyi daha maraqlıdır. Görəsən, dünyada ikinji belə bir səmavi kitab tapmaq olarmı ki, bu qədər insanları düşünjəyə, məntiqi mühakiməyə dəvət etsin? Quran bir insanı tənqid edərkən onun sağlam düşünjəyə malik olmamamsını vurğulayır. Qurani-Kərim: «Məgər düşünməzsinizmi?», «Məgər anlamazsınızmı?»- deyə düşünjəsiz insanları məzəmmət edir və Dinin ağıl vasitəsilə dərk olunmasının mümkünlüyünü açıqlayır. Allah öz Peyğəmbərinə təlimini ağılla, məntiqi dəlillərlə əsaslandırmağı tövsiyə edərək: «İnsanları Rəbbinə doğru hikmət və gözəl nəsihət yolu ilə dəvət et!»- deyə buyurur. İslam Peyğəmbəri öz ömrünün son günlərində ümmətinin gələjəyi barədə nigarançılığını belə ifadə edir: «Ümmətimin fikir yoxsulluğuna düçar olmasından qorxuram.» Çünki ağıl, təfəkkür, elm olmayan yerdə mənəviyyat da ola bilməz.

İnsan taleyinin Tanrı tərəfindən müəyyən edilməsinin iddia edən və onu ijtimai fəaliyyətdən uzaqlaşdırıb tərkidünyalığa yönəldən xristian təliminin əksinə olaraq İslam öz ardıjıllarını əməl və fəaliyyətə səsləyir. Mövzumuzdan uzaqlaşmamaq üçün bu barədə olan bir çox ayə və hədisləri qeyd etməkdən vaz keçirik. Beləliklə, bəlli olur ki, ağıl insana bəxş olunmuş ən böyük nemətlərdən biri olaraq yaxşını pisdən, səadəti bədbəxtlikdən ayıran daxili bir nur kimi insanı hidayət edir və doğru yola istiqamətləndirir.

Yuxarıda qeyd etdiyimiz ayələr İslam dininin insan ağlına nə dərəjədə böyük hörmət və ehtiramla yanaşmasının bariz nümunəsidir. İslam dini yarandığı ilk gündən rasional təfəkkürə söykənmiş və insanları düşünməyə sövq etmişdir. Şübhəsiz ki, ağıl insanın hidayət vasitələrindən biri kimi ona doğru yolu seçmək imkanı verir. Lakin məsələ burasındadır ki, görəsən

---

[1] *Бягяря суряси, айя 30*

insan ağlı hər şeyi dərk edə bilirmi? Görəsən, insan hər şeyi öz ağlı ilə anlaya bilirmi? Elm və ağıl bəşəriyyətin səadətinin təminatçısı ola bilərmi? Səadət yolunu keçməkdə ağıl təklikdə insana kifayət edərmi?

Bəşəriyyətin təjrübəsi və böyük alimlərin etirafını nəzərə alsaq, görərik ki, ağıl bütün güj və qüdrətinə baxmayaraq, bir çox məsələlərin anlaşılmasında ajizliyini gbstərir. Fransız alimi Kalinin dediyi kimi müxtəlif elmlər inkişaf edərək insan adlı mürəkkəb bir sistemin həqiqətinin yalnız jüzi bir hissəsinin öyrənə bilib və insanın mahiyyətini dərk etməkdə ajizdir. Daha sonra bu alim psixologiya, iqtisadiyyat və sairə elmləri naqis elmlər və daha irəli gedərək psevdo elmlər, yəni yanlış elmlər adlandırır. Digər bir fransız alimi və mütəfəkkiri Can Cak Russo tamamilə haqlı olaraq bildirir ki, bütün xalqlara münasib olan kamil qanunlar kəşf etmək üçün ali bir şüurun varlığına ehtiyaj var. Bu şüur insanın üstünlüklərindən və zəif jəhətlərindən kamil şəkildə agah olmalı, özü isə bu nöqsanlardan uzaq olmalıdır. Həmin bu şüur təbiətin fövqündə dayanmalı, amma onu hərtərəfli tanımalıdır. O elə bir varlıq olmalıdır ki, onun səadəti bizdən asılı olmasın, eyni zamanda səadət zirvələrini fəth etməkdə bizə yardımçı olsun. Bu, hüquq sahəsində mütəxəssislərdən, böyük alimlərdən biri olan Can Cak Russonun etirafıdır. Bəşəriyyət 21-ji əsrə qədəm qoyduğu halda hələ də ağıl inkişaf etmiş elmlərin yardımına baxmayaraq, insan adlı bir varlığı dərk edib tanıya bilməmişdir. Məhz bu səbəbdən insanın mənəvi və maddi təkamülə yönəlməsi üçün onun ağıl və təfəkkürü ilə yanaşı daha kamil bir hidayət vasitəsinə ehtiyajı var. Və bu vasitə heç şübhəsiz ki, İlahi vəhydən ibarətdir. Bu vəhyin mənbəyi insanı yaradan və bu səbəbdən də onun bütün aşkar və gizli xüsusiyyətlərindən kamil şəkildə agah olan, eyni zamanda hər şeydən ehtiyajsız olduğu üçün tam obyektiv və qərəzsiz bir varlıq olan uja Allahdır! Russonun təbirinjə desək, səadəti bizdən asılı olmayan, bizim səadətimizi istəyən, belə bir

qanunveriji məhz aləmlərin Rəbbi olan Allahdır! Allah tərəfindən nazil olan vəhy insanın ağlına yardımçı olmazsa, insan keşməkeşli həyat yolunda özünü itirər və öz layiq olduğu yüksək mənəvi rütbəyə ujala bilməz. Çünki ağıl daha çox ümumi məsələlərin dərkində yetərlidir, jüzi məsələləri dərk etməkdə ajizdir. Tutaq ki, ağıl Allaha ibadət etməyin zərurətini anladı, lakin iğadətin nejəliyi, məsələn, sübh namazının iki, zöhr namazının dörd rükət qılınmasının səbəbini dərk etməkdə ajizdir. İjtimai və hüquqi məsələlər də bu baxımdan istisna deyil. Tarixi təjrübə göstərir ki, konkret tarixi dövrdə çıxarılmış qanun və qərarlar zaman keçdikjə öz mahiyyətini itirir və onların yanlışlığı üzə çıxır. Məhz bu səbəbdən insan-Allah münasibətlərini, habelə insanlar arasında ijtimai münasibətləri tənzimləmək üçün hökmən Allahdan qaynaqlanan vəhyə, Qurani-Kərimə və sünnətə- Peyğəmbərin və imamlarımızın davranış və kəlamlarına ehtiyaj duyulur. Bunu də nəzərə alsaq ki, insan həyatı yalnız bu maddi həyatdan ibarət deyil, insan əbədi bir varlıqdır, axirət aləmi insan ağlından gizli və sirli bir aləmdir, vəhyə, yəni kitab və sünnətə olan ehtiyajın nə dərəjədə böyük olduğunu anlaya bilərik. Tutaq ki, maddi aləmdə yaşadığı dövrdə insanın dünyəvi və maddi ehtiyajlarını təmin edən bir elmə yiyələnməsi mümkün oldu, amma nəzərə almalıyıq ki, insanın səadəti yalnız maddi rifaha nail olmasında deyil. Elmi-texniki tərəqqi yüksək həddə çatdıqja, insan maddi rifaha nail olduqja, insanın daxili dünyası ilə onu əhatə edən aləm arasında böyük bir uyğunsuzluq yaranır və diskonfort insanın psixoloci sarsntılara məruz qalmasına səbəb olur. Müasir dünyanın reallığı bunu bizə qabarıq şəkildə göstərir. Bir zaman kilsənin əsarətindən qurtulmuş Avropa xalqları elmi inkişaf yoluna qədəm qoydular və elə zənn etdilər ki, bəla və müsibətlərdən, fəlakətlərdən nijat tapdılar. Lakin zaman keçdikjə onlar anlamağa başladılar ki, elm və ağıl insanın daxilində mənəvi boşluğu doldurmağa qadir deyil və bəşəriyyətin gələjəyi barədə bədbin proqnozlar verməyə başladılar, insanlığın

bu gün fəlakətə və fajiəyə doğru sürükləndiyini iddia etdilər. Həqiqətən, bugünkü dövrdə, elm və tərəqqi əsrində bəşəri təhdid edən təhlükələr keçmiş dövrdən az deyil ki, çoxdur. Əgər bəşəriyyətin azğınlığının yeganə səbəbinin jəhalət və nadanlıq olduğunu desək, yanlışlığa düçar olarıq. Əxlaq alimləri bu mövzunun geniş müzakirə ediblər ki, azğınlığın yeganə səbəbi jəhalətdir, yoxsa, bu səbəblərdən yalnız biri jəhalətdir. İnsanın fajiəsi daha çox nəfsin tüğyanından qaynaqlanır. Nəfs, hisslər adi vəziyyətdə olduğu zaman ağıl onları idarə edə bilir. Amma şəhvətin, qəzəbin tüğyanı zmanı ağal nəzarəti əldən verir və bu hisslərin əsarətinə düşür. Bu zaman ağlın silaha ehtiyajı var və bu silah Quran və sünnətdən qaynaqlanan iman ola bilər. Nəfs jilovlanmasa, hətta elm kimi mütərəqqi bir dəyər şəhvətin və qəzəbin, sərhəd tanımayan nəfsin əlində bir vasitəyə çevrilər. Ona görə də elm və texnika əsrində bəşəri təhdid edən təhlükələrin sayı günbəgün artır. Çünki elm inkişaf edir və nəfsin əlində daha güjlü, öldürüjü silaha çevrilir. Alimlərimizdən birinin dediyi kimi, «İmansız jəmiyyətin, imansız şəxsin elmə malik olması sərxoş adamın əlində olan öldürüjü bir silaha bənzəyir.» İnsanın dostu olan elm iman olmadığı zaman onun ən böyük düşməninə çevrilir. Elm bir çıraq kimidir ki, onun vəzifəsi işıqlandırmaqdır. Amma məsələ burasındadır ki, elm hansı yolla işıqlandırmalıdır? Elm bu yolu təyin etmək və hədəfi müəyyənləşdirmək iqtidarındla deyil. Hədəfi, mənəvi dəyərlərə əsaslanan yolu din müəyyən edir, elmin vəzifəsi isə bu yolu işaqlandırmaqdır. Və hər zaman bəşəriyyət azğınlıq yolunun astanasında olanda, uçuruma yaxınlaşanda Allah peyğəmbər göndərərək insanları hidayət edib bu uçurumdan xilas edir. Qurani-Kərimin bir ayəsində belə buyurulur: «Siz uçurumun kənarında idiniz, Allah sizi ondan qurtardı.»

Peyğəmbərlərin təliminin əsas xüsusiyyəti ondan ibarətdir ki, onlar insanı öz meyllərinə qarşı getməyə vadar edirlər. Dindən başqa heç bir əqidə bunun öhdəsindən gələ bilməz . Filan inqilabçı

rəhbər xalq kütlələrinin zalım hakimlərə qarşı səfərbər edə bilər, lakin peyğəmbərlərin işi ilə müqayisədə bu olduqja zəif və kiçik işdir. Peyğəmbərlər insanı özünə qarşı mübarizəyə sövq etdirə bilir, bu peyğəmbərlərin güjüdür və bunun peyğəmbərlərdən başqa heç kəs bajara bilməz. İalam tarixi də bunu sübutdur ki, uçurumun kənarında olan, həqiqətən də, hər jür mədəniyyətdən uzaq olan bir mildlət qısa bir zamanda dünyanın ən inkişaf etmiş və ən fədakar millətlərindən birinə çevrildi. Bəşərin, insanların Quran və sünnətə ehtiyajı olması əsasən insan elminin məhdudluğu və qeyri obyektivliyi səbəbindəndir. İnsanlara bəşəriyyətin səadətinin təminatçısı olan qanunlar vermək üçün ali bir şüur tələb olunur. Bu şüur insanlardan tam ehtiyajsız olmalı, onların gizli və aşkar xüsusiyyətlərinin kamil şəkildə bilməlidir. Belə bir varlıq isə yalnız və yalnız İlahi vəhyin mənbəyi olan Allahın özüdür.

# Quranın təfsirində
# Quran və sünnət

Qurani-Kərim dünya müsəlmanlarının maddi və mənəvi həyatının ən dəyərli və qiymətli sütunudur. Peyğəmbəri-Əkrəm(s) dəfələrlə bu kitabı belə adla öz ümmətinə tapşırmışdır. Xüsusilə, ömrünün son günlərində buyurmuşdur: «Mən özümdən sonra iki qiymətli şeyi sizin aranızda qoyuram. Onlar Qiyamətədək bir-birindən ayrılmayajaqdır. Onlara əl açsanız əsla yolu azmazsınız. Onlardan biri Qurandır, digəri isə Quranı bəyan edən itrətimdir.» Elə məhz buna görə də Quranın ehtiramı bütün dünya müsəlmanlarına vajibdir.

Quranın müqəddəsliyi və ehtiramına təkjə aşağıda dediklərimiz kifayətdir:

1. Allah kəlamıdır.
2. İslam Peyğəmbərinin diri və qəti sənədidir.
3. İslamın əsas qanunları onda yerləşmişdir.

Peyğəmbər(s) buyurur: «Qurandan ayrılmayın, çünki keçənlərinizin tərjümeyi-halı gələjəyinizin vəziyyəti onda xəbər verilir və o sizin aranızda ədalətlə qəzavət edir.»

İslam dininin əməli qanunları bəyənilmiş əxlaq üstündə və əxlaqın binası tövhidin bünövrəsinin üstündə qurulmuşdur. Bu əhkam və maarifin xəzinəsi, Allah-Təalanın vəhy yolu ilə öz əziz Peyğəmbərinə göndərdiyi Qurani-Kərimdir.

Bu Qurani-Kərimin müddəalarını açıqlamaq bizim özümüzə tapşırılmışdırmı? Yaxud onu kimsə açıqlamalıdırmı? Yoxsa bütün şeyləri əhatə edən Quran elə aşkardır və onu açıqlamaq lazım deyildir? Bütün bu suallara javab vermək üçün Quranın özünü və bir də tarixi vərəqləmək lazım gəlir.

Görürük ki, Qurani-Kərim bir tərəfdən هدا للناس yəni xalqın hidayət kitabıdır, وما ارسلنا من رسول الا بلسان قومه yəni xalqın öz dilindədir deyir, digər tərəfdən isə Qurani-Kərimdə hesabsız hərəkət etmək olmaz, öz rəyinlə yol getmək olmaz eşidirik. Başqa bir tərəfdən də Qurani-Kərimdə azad hərəkət edənlərin biabırçılıqlarını görürük. Qurani-Kərim gah bizə bir sıra ayələrin mütəşabih olduğundan və elmdə rasixundan başqa onları başa düşən olmadığından, gah da xalqın dilində olmağından danışır. Qurani-Kərimin ayələri mütəşabih olarsa, mütəşabih kəlməsi özü də mütəşabih olarsa və onun məqsədi ixtilaflı olarsa, ondan nejə istifadə etmək, yaxud onda nejə tədəbbür etmək olar?

Bir sıra hədislər də bizə öz rəyinə əsasən təfsiri qadağan edir. Bütün bu təzadların arasında insan nə etməlidir ki, Quranın hidayətindən bəhrələnsin? Qeyd etmək lazmdır ki, bəziləri təfsiri bəşərin idrakı çatajaq, təvili isə bəşərin idrakı çatmayajaq şeylərə aid olması kimi təhlil etmişlər.

Əlbəttə, dərd verən Allah dərman da vermişdir. Elə Qurani-Kərimin özündə iki faktor, yolu azmağın qarşısını alan amil kimi göstərilmişdir.

وَكَيفَ تَكفُرُونَ بِاللَّهِ وَاَنتُم تُتلىَ عَلَيكُم اَيَاتُ اللّهِ وَفِيكُم رَسُولُه

***«Allahın ayələri sizə oxunduğu və onun Peyğəmbəri sizlərin içinizdə olduğu halda nejə kafir olursunuz?»***

Deməli, küfrə və zəlalətə düşməməyin bir dərmanı ayələrin tilavəti, digər bir dərmanı isə Peyğəmbərin vüjududur. Elə buna

görə də Peyğəmbər özündən sonra bir janişin təyin etməlidir ki, Quranın tilavəti ilə birlikdə olaraq zəlalətə düşməyin qarşısını alsın.

Səqəleyn hədisinə sasən Peyğəmbər(s) öz itrəti və Əhli-beytini Quranın bərabəri qərar vermiş, onların bir-birindən ayrılmayajağını demiş və müsəlmanların nijatı bu iki qiymətli gövhərə əl açmasındadır- buyurmuşdur. Buna əsasən məlum olur ki, Allahın kitabı kimi Peyğəmbərin itrəti də xalqa höjjətdirlər və onların söz və əməlləri müsəlmanlar üçün sənəddir.

**علی مع القران والقران مع علی** məhz bu qəbildəndir.

Qurani-Kərim Nəhl surəsinin 44-jü ayəsində belə buyurur:

**بِا لبَيِّنَاتِ وَالزُّبُرِوَانزَلنَا اِلَيكَ الذِّكرَلِتُبَيِّنَ لِلنَّاسِ مَانُزِّلَ أِلَيهِم وَلَعَلَّهُم يَتَفَكَّرُونَ**

***«(Ona görə ki, onları) açıq-aydın dəlillərlə və yazılarla (göndərdik), bu Quranı da sənə nazil etdik ki, insanlar üçün onlara göndəriləni aydınlaşdırasan.»***

**ثُمَّ اَورَثناَ الكِتاَبَ الَّذِينَاصطَفَيناَ مِن عِباَدِناَ**

***«Bu Qurani-Məjidi sənə göndərdikdən sonra onu irs ünvanında öz seçilmiş bəndələrimizə miras verdik.»***

Bu yazılmış Quran hamının, hətta onunla müqəddəs kitab kimi davranmayan adamların da əlində olduğunu nəzərə alıb qeyd etmək lazımdır ki, ayədə deyilən miras Quranın həqiqətidir. Yəni Peyğəmbər vəhy yolu ilə Quranı Jəbraildən nejə alırdısa, bu seçilmiş bəndələr də onu Peyğəmbərdən elə almışlar. Biz «Təthir» ayəsi ilə «Lə yəməssuhu illəl mutəhhərun» ayəsini bir yerə qoyduqda görürük ki, onlardan başqa Qurana varis çıxan tapılmaz. Bunu İmam Məhəmməd Baqir və Jəfər Sadiqdən (ə) olan çoxlu hədislər vasitəsilə də görürük ki, bu

bəndələr aşağıdakı ayəyə əsasən Peyğəmbərin Fatimə(s) övldından olan zürriyəsidir.

**اِنَّ اللّهَ اصطَفىَ آدَمَ وَنوُحاً وَآلَ اِبراهيِمَ وَآلَ عِمرانَ عَلىَ العاَلَمينَ**

***«Həqiqətən, Allah Adəmi, Nuhu, İbrahim və İmran övladlarını aləmlərə (üstün) seçmişdir.»***

Onlar burada Ali-İbrahim adı altında işlənmişlər.

Bu iki İmamdan nəql olunan bu və ya digər hədislərə görə Allahın seçdiyi Quranın irs yetişəjəyi kəslər onlardır. Hədisdə vardır ki, mən Quranın tənzilində döyüşdüm, Əli isə onun təvilində döyüşəjəkdir. Başqa bir hədisdə vardır ki,

**قال رسول الله (ص) : ما من نبي الا وله نظير فى امته وعلى(ع) نظيرى**

Həzrət Peyğəmbər buyurdu: «Hər bir Peyğəmbərin öz ümmətində oxşarı olmuşdur və mənim ozşarım Əlidir.» Bu o deməkdir ki, Əli(ə) ilə Peyğəmbərin(s) bu işlərdə oxşarlığı vardır və hələ yer üzünə Peyğəmbərdən sonra o Həzrət kimisi gəlməmişdir.

Beləliklə, Peyğəmbər(ع) Quranın açıqlayanıdır. Özündən sonra isə təyin etdiyi janişini və Əhli-beyti(ə) onun davamçılarıdırlar. Qeybət zamanında da onların dedikləri- yəni sünnə Qurani-Kərimin təfsirçisidir.

Alimlərin fikrinjə sünnə səkkiz yerdə Quranın xidmətində dayanır:

1 Quranın Quranla təfsiri üslubunu təlim etməkdə

2. Qurandan şəri hökmləri çıxarmaq üslubunun təlimində

3. Həyat səhifələrində dini qaydaların tətbiqi və şəriətin ijrasının yollarının təlimində

4. Quranın ali maarifini bəyan etməkdə

5. Əhkamın jüziyyat və təfsilatını bəyan etməkdə

6. Quranın bətn, təvil və tətbiqinin bəyanında

7. Quranda txtisarla gedən ənbiya və əvvəlki ümmətlərin tarixini təfsilatı ilə bəyan etməkdə

8. Quran ayələrinin təqyin, təxsis və nəsx yerlərini bəyan etməkdə

Bunların çoxlu bəhsə ehtiyajı vardır və hər biri barəsində hədislərdə çoxlu nümunələr vardır.

Sünnənin Quranın təfsirində roluna bir misal vuraq. Məsələn, sirat kəlməsinin tərjüməsini lüğət kitablarında tapmaq olar. Amma bu siratın nümunəsini dərk etmək üçün ya gərək öz xoşunla bir şey seçəsən ki, buna təfsir-birəy deyilir. Ya da ki, elmdə rasixuna mürajiət edib onun həqiqi mənasını başa düşəsən. Çünki onlar ayələrlə daha yaxındırlar və ayələrin əlaqələrini daha yaxşı bilirlər.

Beləliklə, Qurani-Kərimi Peyğəmbər və ya onun təyin etdiyi, yaxud Fatimə (s) övladlarından olan zürriyyətləri açıqlaya bilər.

Təfsir-birəy Qurana və sünnəyə görə qadağandır.

Qeybət zamanında da Quran, onların sünnəsinə əsasən təfsir olunmalıdır.

# Qurani-Kərimin təfsirləri

Allah-Təala yer üzərində öz xəlifəsini yaratdıqdan sonra nəinki bütün dünyanı onun ixtiyarında qoydu, hətta mələklərinə insana səjdə etmək əmrinə verdi. Əgər insan belə yüksək məqama layiq görülmüşsə, onda belə qənaətə gəlmək olar ki, yaradılmış bütün varlıqlar insanın rifahı, böyüməsi və kamilləşməsi üçün nəzərdə tutulmuşdur. Bu gün belə bir konfrans üçün toplaşdığımız məkan, dayanıb məqalə oxuduğumuz tribuna və sairə insan əli ilə insan üçün yaradılmışdır. Belə bir sual yaranır ki, biz insanlar belə vasitələrlə böyüyüb ruhumuzu təkamülə çatdıra bilərikmi? Bu suala javab verməzdən əvvəl qeyd etməliyik ki, hər bir varlıqda Allahın nuru vardır. Amma bu nurlar parlaqlıq dərəjəsinə görə bir-birindən fərqlənir. Məsələn, insan özünü böyüdüb Quran səviyyəsinə qədər yüksələ bilsə də, Quran yarada bilməz. Çünki bu kitab insanların- yəni məxluqatın əşrəfinin hidayəti üçün nazil olmuşdur. Əgər kimsə insanın Quran yaratmaq iddiasını edirsə, demək istəyir ki, insan özü özünü yaratmışdır. Lakin bu əsla belə deyil. Birinjisi ona görə ki, Quran kamil insan təjəssümü olan Peyğəmbəri-Əkrəm (s) başda olmaqla bütün bəşəriyyətə nazil olmuşdur. Fikrimizi digər misal üzərində aydınlaşdıraq. Qədim dövrlərdə Misir ehramları, müasir dövrümüzdə nəhəng göydələnlər, kosmik raketlər düzəldə bilən insan nə üçün Quran qarşısında ajizdir? Suala belə javab verə bilərik ki, Quranın mövjudluğu Allahın varlığına sübütdur.

Digər tərəfdən nə olsun ki, insan belə nəhəng binalar yaratmağa qadirdir. Görəsən, bu insan öz ruhundan həmin varlıqlara üfürə bilirmi və bu binalar sonra özləri özbaşına böyüyə bilirmi? Deməli, belə nətijəyə gəlirik ki, ruhu olmayan böyüyə bilməz.

Özünü qalın dünya zənjirlərindən qurtara bilən insan öz ruhunu da böyüdə bilər.

İnsan Quran yarada bilməsə də, Allah kəlamını təfsir edə bilər. Təfsir mövzusu Quran elmləri içərisində ən maraqlı bəhslərdən biridir. Mövzunun araşdırılmasına keçməzdən əvvəl təfsir sözünün mənasını bilmək lazımdır. «Təfsir» lüğətdə üzdən (niqabı) örtüyü götürmək mənasındadır. Məgər özü nur və aydın kəlam olan Quranın çöhrəsində örtük vardır ki, onu qaldıraq? Xeyr, örtük Quranın çöhrəsində deyil. O bizlərik ki, janımızın çöhrəsində örtük, ağlımızın gözündə pərdə vardır. Əgər bu örtük və pərdəni qaldıra bilsək, onda Quran məhfumlarını və onun ruhunu dərk edə bilərik.

Digər tərəfdən Quranın yalnız bir çöhrəsi yaxdur. İnsanların hidayət rəmzi olan ümumi çöhrəsi hamının üzünə açıqdır. Quranın digər çöhrəsini isə anjaq alimlər göstərə bilərlər. Hədislərin təbirinjə desək, Quranın batini adlanan belə çöhrələri bütün gözlər eyni dərəjədə görmür. Təfsir gözlərə qüdrət bəxş edir, hijabları kənara çəkir və bizim üçün onları mümkün olan dərəjədə görməyə şərait yaradır.

Quranın təfsiri Peyğəbərin dövründən başlamışdır və bu səmavi kitabın ilk müfəssiri də İslam Peyğəmbəri (s) özüdür. Amma bir elm kimi İmam Əlinin (ə) dövründən inkişaf etməyə başlamışdır. Ümumiyyətlə, təfsirçilər Qurana müxtəlif baxımdan yanaşmışlar. Onları belə qruplaşdırmaq olar: Birinji qrup mühəddislərdir. Mühəddislər öz təfsirlərində təkjə səhabələr və tabeinin sözlərini nəql etməklə kifayətlənmiş, hər hansı bir ayə haqqında aydın söz və ya hədis olmadıqda onu istədikləri şəkildə təfsir etmişlər. Lakin belə düşünjə tərzi

tamamilə yanlışdır.Çünki Allah-Təala heç vaxt Quranda aydın dəlil olan ağlın üstündən xətt çəkməmişdir. Məgər Quranın həqiqiliyi ağıl dəlili ilə sübut olunmamışdır? Digər tərəfdən Allah-Təala səhabə və tabeinin sözünü belə böyük ixtilaflarla sənəd saymamış və jamaatı bu qədər ziddiyyətli sözlərə qeyd-şərtsiz tabe olmağa vadar etməmişdir. Əksinə, insanlara Quran ayələri haqqında düşünmək göstərişi verilmişdir ki, ixtilaflar aradan götürülsün. Ümumiyyətlə, Allah-Təala Quranı «Nur» və «Hidayət vasitəsi» buyurmuşdur. Məgər nur başqa bir şeydən nur alarmı? Yaxud özü hidayət əsası olan bir mövzu digər bir hidayətə ehtiyaj duyarmı? Hər şeyin bəyanı olan Quran nejə digər bir bəyana möhtaj olar?

İkinji qrup dini əqidələrdə bəhs edən mütəkəllimlərdir. Onlar da ayələri öz məzhəb əsaslarına görə təfsir etməyə çalışmışlar, yəni uyğun olanı götürmüş, qalanlarını isə məzhəbləri ijazə verən şəkildə yazmışlar. Belə üsulu təfsir yox, tətbiq adlandırmaq daha düzgün olar. «Quran nə deyir?» və «Qurana hansı mənaları yeridək» jümlələri arasında fərq vardır. Birinji halda aydın dəlillərdən başqa bütün mətləbləri unutmalıyıq ki, görək Quran nə deyir? İkinji halda isə gərək nəzəri məsələləri əsas seçək və Quranı onlara uyğun şəkildə məna edək. Şübhəsiz, bu Quranın həqiqi mənaları olmayajaq.

Üçünjü qrup filosoflardır. Onlar da mütəkəllimlərin düşdükləri tətbiq girdabında qərq olmuşlar. Nətijədə, onların fəlsəfi bəhsləri ilə uyğun gəlməyən mətləblər yozulmuşdur.

Dördünjü qrup isə sufilərdir. Xilqətin batinində seyrə məşğul olduqlarını iddia edən sufilər də, təkjə ayələrin yozulması ilə kifayətlənməmiş və onların zahirini kənara qoymuşlar. Bu iş digərlərini də yozma mövzusunda jəsurlaşdırmış və iş o yerə çatmışdır ki, bir sıra poetik və məntiqdən uzaq məsələləri bir-birinə qataraq hər bir şeyə dəlil gətirmişlər. Belə ki, Quranı əbjəd hesabı ilə, Nurani və zülmani

hərflərlə təfsir etmişlər. Şübhəsiz, Quran sufilər kimi xüsusi bir dəstə üçün nazil olmamışdır ki, onların istilahlarına uyğun danışsın. Bəli, bunu etiraf etmək lazımdır ki, məsumlardan nəql olunan hədislərə əsasən Quranın zahiri və batini vardır. Lakin unutmaq olmaz ki, onlar hər ikisini, həm zahirini, həm də batinini mötəbər saymışlar. Batinlə yanaşı, zahirinə də lazımi diqqət göstərmişlər.

Qeyd etdiyimiz bu təsnifatdan belə nətijə alırıq ki, sadaladığımız hər dörd qrup Quranı təfsir etməyə çalışmamış, öz yalnış fikirlərinə etibar donu geyindirmək üçün Quranı meyar seçmişlər. Çünki əslində fəlsəfə və kəlam da, təsəvvüf və irfan da həqiqidirsə, Qurandan qaynaqlanmalıdır. Amma təəssüflər olsun ki, bəzən bunun əksini müşahidə edirik. Əlbəttə, dediklərimiz hamısına aid deyil. Yəni, öz yalnış şəxsi fikirlərini Qurana yürüdənlər tənqid hədəfinə çevrilirlər. Quranın təfsirində belə ixtilafların xeyri ondadır ki, saf və xalis olan təfsirin hansı olduğu aşkarlanır.

Məqaləmizin bu yerində Quranın irfani təfsirlərindən bir neçə misal çəkmək istəyirik. Onu da qeyd etmək lazımdır ki, bəziləri Quranın irfani təfsirini İmam Jəfər Sadiqin (ə) adı ilə bağlayırlar. Ondan sonra çoxları İbn Əta, Əbülhüseyn Nuri, Həllaj Mənsur, Muhiyyəddin Ərəbi Qurana irfani təfsirlər yazmışlar. Bu təfsirlərdən bəzisi tam kamil sayılmasa da, maraqlı jəhətlərə malikdir. İbn Ətanın təfsirində oxuyuruq: «Rəbbil-aləmin ariflərin daxilini yəqin və tofiq nuru ilə, möminlərin qəlbini səbr və ixlasla, müridlərin qəlbini sidq və vəfa ilə, alimlərin qəlbini fikrət və ibrətlə bəzəyən deməkdir.»

«Məliki yəvmiddin- hesab günündə bütün təbəqələrə öz məqsəd və himmətlərinə çatmalarına ijazə verən deməkdir.» «Arflərə Ona yaxınlaşmaq və kərim çöhrəsinə baxmaq ijazəsi veriləjəkdir.»

Digər bir təfsirdə oxuyuruq: «Allahın kitabı ibarə, işarə, lətafət və həqiqətlərdən ibarətdir. İbarələr ümum üçün, işarələr xüsus üçün, lətifliklər övliyalar üçün, həqiqətlər isə peyğəmbərlər üçündür.»

Quran ayələrinin təfsiri təsəvvüf və irfani kitablarda eyni üslubda verilmir. Məsələn, bir kitabda oxuyuruq: «Allah-Təala Məhəmmədin ümmətinə iki şey vermişdir ki, nə Jəbrayıla vermişdir, nə Mikayıla. Biri odur ki, فَاذْكُرُونِي أَذْكُرْكُمْ «Məni xatırlayanda, sizi xatırlayaram»[1], digəri odur ki,

ادْعُونِي أَسْتَجِبْ لَكُمْ «Məni çağıranda javab verərəm.»[2]

Müəllif oxujusuna bu jümlələrlə nəyi çatdırmaq istəyir? Sualın javabı məqalənin əvvəlində qeyd etdiyimiz mətləbdir. Yəni Allah yanında insanın məqamı mələklərdən xeyli üstündür.

Allah-Təala yadlar haqqında belə demişdir: «Diri olsalar da, ölü kimidirlər. Yaşayış odur ki, zat həyatdan bəhrələnsin, onlar isə həyatda xəsarətə uğramışlar. Möminlər haqqında isə belə deyir:

بَلْ أَحْيَاء عِندَ رَبِّهِمْ يُرْزَقُونَ

***«Xeyr, onlar öz Rəbinin yanında diri olub ruzi yeyirlər.»***[3]

İnsan gərək janını tapşırsın və jansız yola düşsün. Bu tayfa varlığın yoxluğudurlar, yadlar isə yoxluğun varlığıdırlar. Özlüyündə diri olan ölüdür, Haqqla diri olan isə ölməz.

آنچه تغیّر نپذیرد توئی وآنکه نمرد ست و نمیرد توئی

**Dəyişməyən varsa da o, Sənsən,**
**Ölməmiş və ölməyən də Sənsən.**

---

[1] *Бягяря суряси, айя 152*
[2] *Мумин суряси, айя 60*
[3] *Али-Имран суряси, айя 169*

Ölüm jismin ölümü, yoxluq jismin yoxluğu deyil, varlıq olan yerdə jan məhrum deyil, o ki qaldı jism.

Kim öz qədrini xalqın gözündə böyük bilsə, ona öz nəfsini xar etməsi lazımdır. Görmədinmi, Allah-Təala İbrahimi öz Xəlili adlandırdı və o dedi:

«Məni və oğlanlarımı bütlərə tapınmaqdan uzaq elə.»

Quranı öz fikrinə əsasən təfsir etmək düzgün sayılmır. Quranı təfsir etməyin ən mühüm mənbəsi Quranın özüdür. Digər mənbə məsumların sünnətidir. Mütəvatir «Səqəleyn» hədisinə görə Peyğəmbərin itrəti Qurana həmtaydır. «Mən sizin aranızda iki qiymətli əmanət qoyub gedirəm: Biri Allahın kitabı, o birisi də Əhli-beytimir.»

Vaqeə surəsinin 79-ju ayəsində deyilir ki,

لَّا يَمَسُّهُ إِلَّا الْمُطَهَّرُونَ

***«Mütəhhərlərdən başqa kimsə onu təfsir edə bilməz.»***

Üçünjü mənbə isə xəyaldan uzaq olan bürhani ağıldır. Bu mənbələrə əsasən də, Quranın təfsiri üç yerə bölünür: Quranın Quranla təfsiri, Quranın sünnətlə təfsiri, Quranın ağılla təfsiri. Əhli-beytin (ə) təfsir üsulu olan Quranın Quranla təfsiri ən yaxşı və ən yararlı üsuldur. Əgər təfsirdə hər üç mənbəyə istinad olunsa, o, kamil təfsir sayıla bilər.

# Quran və sünnə sonsuz feyz mənşəyi

الم ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ الَّذِينَ يُؤْمِنُونَ بِالْغَيْبِ وَيُقِيمُونَ الصَّلاةَ وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ

***«Əlif, lam, mim.Bu (kitabın haqq olduğuna) heç bir şəkk-şübhə olmayan, təqvalıları hidayət edən kitabdır. Təqvalılar o kəslərdir ki, qeybə inanır, namaz qılır və onlara verdiyimiz rizqlərdən (başqalarına) infaq (ehsan) edirlər.»***[1]

Allah-Təala aləmləri yaratmaqla öz zatının kəraminə görə yaratdığına vüjud feyzi vermişdir. Belə ki, vüjud, yəni varlıq surəti almış mövjud, yoxluqdan, yəni varlıq surəti almamışdan daha üstündür. Çünki yaradılmış vüjud, yəni məxluqat aləmi vüjuda gəlməklə öz Ali Yaradanı tərəfindən sonsuz nemətlərə qərq olur. Təbii ki, nemətlərə qərq olan yaradılış aləmi eyni halda bu nemətlərin feyzini, yəni faydasını özündə hiss edir və bu feyzin vasitəsilə öz həyatına davam verir.

İndi gəlin, bu məxluqatın həyatının davamiyyətinə diqqət yetirək. Varlıq aləmini müşahidə edərkən görərik ki, bu aləmin hər bir üzvü yarandığı andan öz həyatı boyu maddi və mənəvi təkamül yolunu keçməkdədir. Təkamül yolunun özünə nəzər yetirəndə isə görərik ki, hər bir məxluq vüjuda gələn andan bu aləmdə hökm sürən maddi və mənəvi qanun –qaydaların və

---

[1] *Бягяря суряси, айя 2,3*

nizam-intizamın təsiri altında inkişaf və tərəqqi mərhələsinə qədəm qoyur və inkişafın kamal zirvəsinə yetişənədək hərəkət edir. Əlbəttə, Allah-Təala sonsuz qüdrətə malik olduğundan Onun yaratdığı məxluqatın və nemətin sayı-hesabı yoxdur. Bu aləmdə mövjud olan qayda-qanun və nizam-intizamın özü də bu nemətlərin sırasına daxildir.

Yaradılmış maddi və mənəvi varlıqlar müxtəlifdirlər və həyatlarının davamiyyəti, yəni öz kamallarına çatmaqları üçün müxtəlif növ maddi və mənəvi nemətlərdən faydalanırlar.

Məxluqatın arasında Allah-Təalanın xəlifəsi məqamında olan ən ali varlıq insandır. Allah-Təala buyurur:

وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ وَحَمَلْنَاهُمْ فِي الْبَرِّ وَالْبَحْرِ وَرَزَقْنَاهُم مِّنَ الطَّيِّبَاتِ وَفَضَّلْنَاهُمْ عَلَى كَثِيرٍ مِّمَّنْ خَلَقْنَا تَفْضِيلاً

***«Biz Adəm övladını şərəfli etdik, onları quruda və dənizdə (miniklərlə) daşıdıq, onlara pak şeylərdən ruzi verdik və onları yaratdıqlarımızın bir çoxundan gərəyinjə üstün etdik.»***[1]

Allahın Rəsulu(s) buyurdu: «Allah yanında Adəm övladından şərəfli bir varlıq yoxdur.» Ərz etdilər: «Ey Allahın Rəsulu(s)! Bəs mələklər? » Buyurdu: «Mələklər günəş və ay kimi məjburdurlar.»[2]

Beləliklə, insan məxluqatın arasında Allah tərəfindən seçilmiş və ən şərəfli varlıq məqamına layiq görülmüşdür. Əlbəttə, məxluqun şərəfi ona digər məxluqatdan imtiyazlı və fərqli olan nemətlərin bəxş edilməsi ilə müəyyən olur. Çünki nemət sahibi olan Allah bütün məxluqatın içində yalnız bir məxluqa özünün ən ali nemətlərini bəxş etməklə həmən məxluqu şərəf sahibi edir. Burada sual yarana bilər ki, Allah-Təalanın hansı ali neməti ilə insan belə bir şərəfə yetişmişdir?

---

[1] *Исра суряси, айя 70*
[2] *Кянзул-уммал, щядис 34621*

Abdullah ibn Sənan İmam Sadiqdən(ə) soruşur: «Mələklər üstündür, ya Adəm övladı?» İmam buyurur: «Əmirəl-möminin Əli ibn Əbu Talib (ə) buyurmuşdur: Allah-Təala mələklərin vüjudunda yalnız əql qoymuş, heyvanlarda nəfsi istək və şəhvət qoymuşdur. İnsanda isə hər ikisini, əqli və nəfsi istəkləri xəlq etmişdir. Beləliklə, əgər insanın əqli nəfsi istəyinə qalib gələrsə, mələkdən üstün olar.Əgər nəfsi istəyi əqlinə qalib gələrsə, heyvandan alçaq olar.»[1]

İnsana bəxş edilən digər ali nemət elm və mərifətdir. Məhz bütün elmləri Adəmə (ə) öyrətdikdən sonra Allah-Təala Adəmə(ə) səjdə etməyi mələklərə əmr etdi. Həzrət Əmirəl-möminin(ə) buyurur: «Elm kimi digər bir şərəf yoxdur.»[2]

Bu hədislərdən insana elm-mərifət və ixtiyar kimi ali nemətlərin bəxş edilməsi məlum olur.

Allah-Təala Adəm övladına elm-mərifətdən bəhrələnməyi onun öz ixtiyarına buraxmışdır. Elmi onun əqli üçün bir çıraq etmişdir ki, bu çırağın vasitəsilə öz səadətinə qovuşa bilsin.

İndi isə görək insanı bu əbədi səadətə aparan elm və mərifətin mənbəyi nədir? Şübhəsiz ki, bütün bu həqiqətləri, yəni insanın öz həqiqətini, yaradılış aləminin həqiqətini, bəşər jəmiyyətinin nizam-intizamını, əqidəsini, əxlaqını və əməllərini təlim edən yeganə mötəbər mənbə İlahi vəhy olan Quran və Allah Rəsulunun(s) və onun məsum xəlifələrinin(ə) kəlamları, hərəkətləri və qərarlarından ibarət olan sünnədir.

Quran və sünnənin bəşəriyyət üçün sonsuz feyz mənbəyi dünya və axirət səadətinə qovuşmaq üçün yeganə mötəbər vasitə olduğu artıq 1400 ildir ki, həyatda sübuta yetmişdir.

Bu həqiqət bəşərin ən dahi aqilləri tərəfindən təsdiq edilib, bəşər jəmiyyətində öz əksini tapmışdır.

---

[1] *Бищарул-январ, ж.60, сящ.299*
[2] *Нящжцл-бялаья, щикмят 113*

Təbii ki, bəşər həyatının bütün sahələrində İlahi təlimat olan və insana yaradılış aləminin həqiqətini, sirlərini öyrədən Quran və sünnə barədə söz açmaq bu müxtəsər yazının və müəllifin imkanlarından xaricdir. Allaha həmd və səna edirəm ki, xulasə surətdə Quran və sünnənin mahiyyəti və əhəmiyyəti haqqında jüzi anlayış verməyimə müvəffəq etsin.

Beləliklə, Allah-Təala bəşər övladına öz ali nemətini müqəddəs kəlamı olan Quranı və sünnəni İlahi əqidə, əxlaq və şəriəti bəxş etməklə nəyə şərəfləndirmişdir?

Yuxarıda qeyd etdik, yaradılmış məxluq daim təkamülə doğru hərəkət edir və həmişə öz kamalına çatmaq üçün səy göstərir. Əksər varlıqlarda bu qeyri-ixtiyari surətdə baş verir. Məsələn, bitkilər aləmini götürək.Torpağa bir gül toxumunu basdırsaq müəyyən şəraitdə, bir müddətdən sonra bu toxum bar verib gül açar, yəni öz kamalına çatar və nəhayətdə həyatı sonna yetər. Bu proses gülün ixtiyarından və iradəsindən asılı olmayaraq, yalnız Allah-Təalanın onun vüjüduna qoyduğu fitri proqram əsasında həyata keçir. Səbəbi də budur ki, gül Allah-Təalanın şüur, əql, elm, mərifət, ixtiyar, iradə kimi ali nemətlərindən məhrumdur.

Beləliklə, Allah-Təalanın insana bəxş etdiyi ali nemətləri iki növə bölmək olar:

Birinji növ insan vüjudunun qəlibində yerləşən ixtiyar, iradə, əql, qəlbin şövqü və sair kimi onu digər varlıqlardan fərqləndirən ali nemətlər.

İkinji növ, onun vüjudunun xarijindən ona nazil olan və daxili nemətlərini tamamlayan müqəddəs Quran və sünnədir.

Əlbəttə, Allah tərəfindən insanın bu iki növ nemətlərlə müşərrəf olması onun əbədi səadətə, dünya və axirət səadətinə çatması üçündür. Bu, Allah-Təalanın insan övladına xüsusi lütf və rəhmətidir.

Rəhman və Rəhimli olan Allah bu ali nemətlərin birinji növünü insan vüjuduna özünün sirli, İlahi məhəbbəti və hikməti ilə üfürmüşdür. İnsan öz bədəni ilə deyil, həmən o İlahi ruhu ilə birinji növ daxili nemətlərin sahibi olur və ikinji növ, xarijində olan nemətləri, yəni Quran və müqəddəs sünnəni dərk edə ğilir. Belə ki, insan əqlinin dərketmə qabiliyyəti onun ruhundan mənşə alır.

Allah tərəfindən bəşər övladına göndərilən Quran və sünnə ilkin mərhələdə ona yaradılış aləminin həqiqətini açıqlayaraq insanın əqidəsini formalaşdırır, sonra da ona əbədi həyatı qazanmaq üçün bu dünya həyatında yaşayış (ibadəti) hökmlərini, yəni şəriəti və jəmiyyətdə digər insanlarla davranış normalarını- əxlaqı öyrədir:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءتْكُم مَّوْعِظَةٌ مِّن رَّبِّكُمْ وَشِفَاء لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

***«Ey insanlar! Doğrudan da Rəbbiniz tərəfindən sizə bir öyüd-nəsihət, sinələrdə (ürəklərdə) olan (dərdlərə) şəfa və möminlər üçün hidayət və rəhmət gəlmişdir.»*** [1]

Həqiqətən Quran və sünnə bəşəriyyət üçün hər şeydən əvvəl İlahi rəhmətdir. Çünki Allah-Təala müqəddəs kəlamında bəşər övladına xitab edərək birinji öz Rəhman və Rəhim adını göstərir. Sanki Allah-Təala öz rəhmətini zahir etmək üçün Quran və sünnəni göndərmişdir. Buna görə də Quran və sünnəni qəbul edən insan İlahi-əbədi rəhmətm şamil olur:

وَاتَّقُواْ النَّارَ الَّتِي أُعِدَّتْ لِلْكَافِرِينَ وَأَطِيعُواْ اللّهَ وَالرَّسُولَ لَعَلَّكُمْ تُرْحَمُونَ

[1] Йунис суряси, айя 57

***«Və kafirlər üçün hazırlanmış oddan qorxun! Allahın və Peyğəmbərin itaətində olun! Bəlkə sizə rəhmət edilsin.»***[1]

Əgər Quran və sünnə Allahın rəhmətidirsə, onda Quran və sünnə hər bir şeyi əhatə edəjəkdir. Çünki Allah-Təala buyurur:

**وَرَحْمَتِي وَسِعَتْ كُلَّ شَيْءٍ فَسَأَكْتُبُهَا لِلَّذِينَ يَتَّقُونَ وَيُؤْتُونَ الزَّكَاةَ وَالَّذِينَ هُم بِآيَاتِنَا يُؤْمِنُونَ**

***«Rəhmətim hər şeyi əhatə edir. Tezliklə onu təqvalı olanlara, zəkat verənlərə və bizim ayələrimizə iman gətirənlərə yazajağam.»*** [2]

Beləliklə, Quran və sünnə öz İlahi mərifəti, qanunu və hidayəti ilə bütün bəşər jəmiyyətini əhatə edir. Lakin onu qəlblərində iman gətirən, saleh əməllər edən və təqvalı olanlar qarşılıqlı surətdə qəbul edir, ona qəlbi, əməli və əqli səviyyələrdə qovuşurlar.

**الم ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ الَّذِينَ يُؤْمِنُونَ بِالْغَيْبِ وَيُقِيمُونَ الصَّلاةَ وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ**

***«Əlif, lam, mim. Bu (kitabın haqq olduğuna) heç bir şəkk-şübhə olmayan, təqvalıları hidayət edən kitabdır. (Təqvalılar) o kəslərdir ki, qeybə inanır, namaz qılır və onlara verdiyimiz rizqlərdən (başqalarına) infaq (ehsan) edirlər.»***[3]

Quran və sünnənin İlahi rəhmət olduğunu təsdiq edən digər bir mətləb Quran və sünnənin rəhmət Peyğəmbəri(s) vasitəsilə göndərilməsidir:

**وَمَا أَرْسَلْنَاكَ إِلَّا رَحْمَةً لِّلْعَالَمِينَ**

---

[1] *Али-Имран суряси, айя 131,132*
[2] *Яраф суряси, айя 156*
[3] *Бягяря суряси, айя 1,2,3*

*«Səni aləmlərə anjaq bir rəhmət olaraq göndərdik.»*[1]

İndi inamla deyə bilərik ki, Allah-Təala öz rəhmətini elə öz rəhməti vasitəsilə göndərər. Buna əsasən əgər Allah-Təala tərəfindən nazil olan ən ali nemət rəhmətdirsə və bu neməti Məhəmməd Rəsulullah (s) adlı rəhməti vasitəsilə göndərirsə və onun rəhməti tamam varlıq aləmini əhatə edirsə, aydın olur ki, bütün yaradılış Aləmi Allah-Təalanın rəhmətidir. Hədisi-qüdsidə buyurur: «Ya Məhəmməd! Sən olmasaydın aləmləri yaratmazdım.»

Belə ki, Ulu Yaradanın ən əzəmətli və sirr olan «Allah-ismi əzəm» qeyb aləmində Rəhman və Rəhim adlarının pərdəsi arxasında gizlənib qeyb aləmindən bizim əqli idrakımıza daxil olması üçün Rəhman və Rəhim adlanan nur hijablarına bürünərək özünü «Bismilləhir-rahmənir-rahim» həqiqəti ilə zahir edir. Buna əsasən yaradılış aləmi Allah-Təalanın Rəhman və Rəhim sifətinin təjəllasıdır. Bu Rəhmət sifətinin təjəllası mülk aləminə nazil olanda iki hissəyə bölünür: Rəhman və Rəhim olur. Rəhman sifəti bütün aləmə və bəşəriyyətə şamil olur, yəni bəşəriyyət (fitri olaraq) Quran və sünnənin təsiri altına düşür. Lakin bu nuru öz daxili aləmində (birinji növ daxili-ali nemətlər) vasitəsilə əks etdirən insanlar Allah-Təalanın xüsusi rəhməti ,yəni Rəhim sifətinin təjəllası altına düşür.

Deməli, Quran və sünnə həmçinin onları gətirən Məhəmməd Həbibullah (s) Allah-Təalanın rəhmətidir və bu rəhmət hər şeyi əhatə edir. İndi isə bir qədər varlıq aləmini əhatə edən bu rəhmətin, yəni Quran və sünnənin mahiyyətindən və onun bəşər həyatı üçün olan əhəmiyyətindən danışaq.

Əvvəldə qeyd etdik ki, Quran və sünnə təkvini yaradılış aləmini və təşrii bəşər jəmiyyətini tənzimləyən İlahi həqiqətləri və qanunları bəyan edir. Bu İlahi həqiqətlər və qayda-qanunlar əsasında bəşəriyyətin düzgün əqidəsi, əxlaqı təşəkkül tapır və

---

[1] *Янбийа суряси, айя 107*

belə əqidə, əxlaq əsasında saleh əməlləri yerinə yetirən bəşər övladı dünya və axirət səadətinə qovuşur. Buradan İlahi rəhmət olan Quran və sünnənin mahiyyəti aydın olur. Bəşər övladına yaradılış aləminin həqiqətini, onun dünya həyatında düzgün yaşaması üçün əqidəsini, ibadət və əxlaq qaydalarını və jəmiyyətdə zəruri olan qanunları bəyan edən bu rəhmət, yəni Quran və sünnə əslində İlahi tərəfindən göndərilən mərifətdir. İlahi rəhmət – İlahi mərifətdir.

Allahım, bizləri öz rəhmətinə qərq edib mərifət sahiblərindən qərar ver!

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَآمِنُوا بِرَسُولِهِ يُؤْتِكُمْ كِفْلَيْنِ مِن رَّحْمَتِهِ وَيَجْعَل لَّكُمْ نُورًا تَمْشُونَ بِهِ وَيَغْفِرْ لَكُمْ وَاللَّهُ غَفُورٌ رَّحِيمٌ

***«Ey iman gətirənlər! Allahdan qorxun! Və onun Peyğəmbərinə iman gətirin ki, Allah sizə öz rəhmətindən iki pay versin. Sizə onun işığında (düz yol) getməyiniz üçün bir nur versin və sizi bağışlasın ki, Allah çox bağışlayan və mehribandır.»*** [1]

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءكُم بُرْهَانٌ مِّن رَّبِّكُمْ وَأَنزَلْنَا إِلَيْكُمْ نُورًا مُّبِينًا

***«Ey insanlar! Sizə Rəbbiniz tərəfindən bir dəlil gəlmişdir, aydınlaşdıran bir nur göndərmişik.»*** [2]

Allahın Rəsulu buyurur: «Həqiqətən bu Quran Allahın ipi və aydın nurdur.»[3]

İmam Həsən(ə) buyurur: «Həqiqətən bu Quranda nur çıraqları vardır.»[4]

---

*[1] Щядид суряси, айя 28*
*[2] Ниса суряси, айя 174*
*[3] Мизанул-щикмя , ж 8, щядис 20812 (Бейрут чапы)*
*[4] Бищарул-январ, ж78, сящ.112*

Bu ayə və hədislərdən aydın olur ki, Quran və sünnə Allah tərəfindən nazil olan mərifət nurudur. Çünki nurun işığında bütün həqiqətlər olduğu kimi görünər. Beləliklə, Allahın rəhməti olan Quran və sünnə mərifət nurudur. Allah özünün seçdiyi ən ali məxluqa ən ali nemətini, mərifət nurunu bəxş etmişdir.

Məşhur hədisi-qüdsidə Allah-Təala buyurur: «Mən bir gizli xəzinə idim, istədim tanınam buna görə Adəmi yaratdım.» Deməli, Adəm övladına şərafət ona mərifət bəxş olunmaqla verilmişdir və insanın yaradılmasından məqsəd də budur.

وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنسَ إِلَّا لِيَعْبُدُونِ

***«Mən jinləri və insanları anjaq mənə ibadət etmək üçün yaratdım.»[1]***

Yaradılışdan məqsəd Yaradana ibadət etməkdir. Mərifət olmadan isə həqiqi ibadət ola bilməz. Çünki ibadət etmək üçün gərək Məbudunu tanıyasan. Həqiqi ibadətlə mərifət təkamül tapır və bəndə öz Mövlasına mərifət nuru ilə qovuşur.

Beləliklə, həqiqi ibadət mərifətlə birgədir. Buna görə yuxarıdakı ayənin təfsirində belə deyiblər: «Mən jinləri və insanları anjaq məni tanımaq üçün yaratdım.» Hədisi-qüdsidə buyurur: «Mən bir gizli xəzinə idim, istədim tanınam, buna görə Adəmi yaratdım.»

Mərifət artdıqja ibadət kamilləşər. İbadət kamil olarsa, insan özünün yaradılış məqsədinə müvafiq olaraq kamil surətdə yaşayar.

Quran və sünnə insanın İlahi mərifətə yetişməsi üçün yeganə vasitədir. Quran və sünnə İlahi mərifəti elmlərin tajı olan tövhid vasitəsilə bəyan edir. Demək, Quran və sünnənin məqsədi bizlərə tövhidi öyrətməkdir. Tövhidin vasitəsilə biz yaradılış aləminin vəhdətini tanıyır, Allahın yeganə, əzəli, əbədi, sonsuz qüdrət, elm və rəhmət sahibi olduğunu, Ondan

---

[1] *Зарийат суряси, айя 56*

qeyrisinin heç bir qüdrət-qüvvəyə, elmə, mülkə sahib olmadığını dərk edir, «Lə İləhə illəlah» kəlməsinin həqiqətinə yəqinliklə yetişirik.

İmam Rza(ə) buyurur: «Allaha ibadətin əvvəli Onun mərifətidir. Allah mərifətinin əsli Onun tövhididir və tövhidin nizamı Allahı hüdudsuz bilməkdir ki, əql sahibi hər bir məhdudun məxluq olduğuna şəhadət versin.»[1]

Əmirəl-möminin (ə) buyurur: «Allaha ibadətin əvvəli Onun mərifətidir, mərifətin əsli Onun tövhididir və tövhidin nizamı sifətləri Allahdan inkar etməkdir ki, əql sahibi sifətin (vəsfin) və vəsf olunmuşun məxluq olduğuna şəhadət versin və hər məxluq özünün xaliqi olduğuna şəhadət versin.»[2]

Allah-Təala özünü bizlərə tövhid vasitəsilə tanıtdırır. Allahın varlığını tanımaq ən ali mərifətdir, çünki insan fitrətən kamala doğru hərəkət edir. Allahın mərifətinə yetişəndə isə insan öz kamalına yetişir, kamil insan olur. Yaradılışın məqsədi bütün insanların kamilliyə çatmasıdır. İlahi mərifətin, yəni tövhidin dərk edilməsinin nişanəsi yəqin hasil etməkdir.

Tövhidin üç mərtəbəsi vardır; fellərin tövhidi, sifətlərin tövhidi və zatın tövhidi. Bunlarının hər birinin idrakında insan üç mərhələdən keçir. Hər bir şeyin meyarı vardır, mərifətin də meyarı yəqindir. Yəqin sahibi olan insan mərifət sahibidir. Allahın Rəsulu (s) buyurur: «Bilin ki, bu dünyada insana yəqin və sağlamlıqdan xeyirli bir şey verilməmişdir. Bunların ikisini də Allahdan istəyin.»[3]

Həmçinin o həzrət (s) buyurur: «Səbr imanın yarısıdır, yəqin imanın hamısıdır.»[4]

---

*[1] Мизанул-щикмя, ж.5 сящ.1895 (Бейрут чапы)*
*[2] Мизанул-щикмя, ж.5, сящ.1895 (Бейрут чапы)*
*[3] Мизанул-щякмя, ж.8, сящ. 3712*
*[4] Мизанул-щикмя, ж.8, сящ.3713*

Yuxarıda qeyd etdiyimiz kimi tövhidin idrakında insan üç yəqinlik mərhələsindən keçir. Quran və sünnə bu üç mərhələni belə bəyan edir:

كَلَّا لَوْ تَعْلَمُونَ عِلْمَ الْيَقِينِ لَتَرَوُنَّ الْجَحِيمَ ثُمَّ لَتَرَوُنَّهَا عَيْنَ الْيَقِينِ

***«Elə deyildir, əgər «elmul-yəqin» ilə bilsəydiniz. Jəhənnəmi mütləq görərdiniz. Sonra «eynul-yəqin» bilgisi ilə görərsininz.»***[1]

Həmçinin buyurur:

وَإِنَّهُ لَحَقُّ الْيَقِينِ

***«Və Quran həqiqətən Həqqul-yəqindir.»***[2]

Əllamə Məjlisi yazır: «Yəqinin üç mərtəbəsi vardır; elmul-yəqin, eynul-yəqin, həqqul-yəqin. Sonra yuxarıda deyilən ayələri bəyan edərək buyurur: «Bunların bir-birindən fərqi aşağıdakı misalda aydın olur; məsələn, «elmul-yəqin» mərtəbəsində uzaqdan işığı müşahidə edəndə odun varlığına yəqin hasil edirsən. «Eynul-yəqin» mərtəbəsində artıq həmən odun özünü müşahidə edirsən. «Həqqul-yəqin» mərtəbəsində isə odun içində yanırsan və öz vüjudun sırf oda çevrilir.Bunun davamında artıq heç bir məqsəd və artım yoxdur. Əgər pərdə götürülsəydi, yəqinimdə artım olmazdı.»[3]

Əllamənin sözlərini belə şərh etmək olar: İşığı (ya tüstünü) görməklə odun varlığına «elmul-yəqin» hasil etmək; varlıq aləmində sayı-hesabı olmayan mövjudları, onların arasında hökm sürən nizam-intizamı, həmahəngliyi müşahidə etməklə bu aləmin Ali Vahid Yaradıjısının varlığına elmi yol ilə yəqin hasil etməkdir.

---

[1] *Тякасур суряси, айя 5-8*
[2] *Щагге суряси,айя 51*
[3] *Бищарул-январ, ж.70, сящ.134*

Bundan daha ali mərtəbə olan «eynul-yəqin»də insan artıq odun özünü (yəni, Ali Yaradanı) öz (bəsirət) gözləri ilə müşahidə etməklə həmən odun varlığına daha kamil olan yəqinlik hasil edir. Başqa sözlə desək, insan Allahı tanımaq yolunda bu mərtəbəyə yalnız nəfsini rəzil sifətlərdən (zülmət hijablarından) təmizləyib, gözəl, fəzilətli sifətlərə (nur hijablarına) qərq olduqda və qəlbinin bəsirət gözü açılmaqla aləmi Allah-Təalanın əsma (adları) və sifətlərinin təjəllası kimi müşahidə edəjəkdir. Bu zaman qəlbinin haləti ilə «eynul-yəqin» sahibi olajaqdır.

Üçünjü mərtəbə «həqqul-yəqin» ən ali mərifət mərtəbəsidir. Burada odun müşahidəsi sona yetər və artıq müşahidə edən öz mənliyini itirib, odun özünə çevrilər və oddan başqa bir şey olmaz. Bu məqam bütün hijabların götürülməsi, «fəna fillah-bəqa billah» adlanan-«lə huvə illə huvə» həqiqətinin İlahi əmanət kimi sirr saxlanılması məqamıdır ki, əql onun idrakında naqis, kəlam onun bəyanında ajizdir.

Əziz oxuju, bütün bu deyilənləri nəzərə alıb fürsəti əldən vermə. Hər hansı bir işin, peşənin və sənətin ardınja getsən də, vaxtının bir hissəsini Quran və sünnəni öyrənməyə sərf et. O zaman həyatın daha mənalı olar. Çünki Quran və sünnə Allah tərəfindən bu qaranlıq dünya həyatına nazil edilən işıqdır. Bu işıq dünya həyatında olan yolları sənin üçün nurlandırar və doğru yolu «Siratul-müstəqimi» göstərər. Nəhayət, doğru, həm də işıqlı və sonu jazibəli, əzəli-əbədi nur olan bu yolu tapdıqdan sonra onu keçib getməyə müvəffəq olarsan, inşaallah.

Allahım, bizləri bu dünyada Quran və sünnə mərifətindən, Quran və sünnənin işığı altında ixlaslı həyatdan, axirətdə Quran və sünnəni gətirənlərin şəfaətindən məhrum etmə. Allahın salamı olsun Məhəmmədə(s) və onun ismətli Əhli-beytinə(ə).

# Quranın insan ruhuna təsiri

Yaradılmış nə varsa, təlimat üzrə hərəkətdədir. Müasir insan yüksək elmi yaradıjılıq əsasında nailiyyətlərin zirvəsindədir və yaratdığı nə varsa, istər bəsit olsun, istərsə də mürəkkəb, onun, yəni insanın qoyduğu təlimat üzrə hərəkət edir. Geyim, məişət əşyaları, ərzaq məhsulları, dərman preparatları, texnika və s. minlərlə insan yaradıjılığına aid olan əşyalardan istifadə etmək üçün mütləq və mütləq onların təlimatı ilə tanış olmaq lazımdır, əks təqdirdə Bəli, əks təqdirdə insan xırda itkilərdən ta böyük fajiələrə qədər üzləşmək məjburiyyətində qalar.

Fabrik-zavodlar, sənaye müəssisələri, idarə və təşkilatlar, təhsil ojaqları gündəlik recimə əsasən işləyir və hər birinin öz qanunları var ki, bu qayda-qanunlar pozulduqda jəza tədbirləri ilə islah olunur, vurulmuş zərərlərin əvəzi tələb olunur.

Ailə daxilində özbaşınalıq onun dağılmasına, tikinti işlərində səhlənkarlıq tikilinin uçub-tökülməsinə və düzgün bejərilməyən məhsul zay olmağa məhkumdur.

Bütün bu itki və fajiələrin qarşısını almaq üçün insan şüarlardan da istifadə edərək hamını xəbərdar edir. Məsələn, nəhəng binaların üzərində «Qazla ehtiyatlı olun!», «Yanğının qarşısını almaq onu söndürməkdən asandır!», benzin doldurma yerlərində «Siqaret çəkmək qəti qadağandır!» və bu kimi çoxlu sayda gündəlik həyatımızda bizimlə yoldaş, dilimizdə əzbərdir.

Bütün bu sadalananlar insanların təhlükəsizliyi üçündür. Bunu da başa düşürük və tövsiyə olunanlara bajardığımız qədər riayət etməyə çalışırıq.

Lakin özünün də yaradılmış olduğunu az qala inkar edən insan əsas hədəfdən çox-çox uzaqlaşmış və unutmuşdur ki, özünə qayıdışın ilkin şərtlərindən biri İlahi yaradılışla bəşəri yaradılışın kamillik baxımından müqayisəsidir. Bu yerdə Möhsün Qiraətinin «Tövhid və ədl» kitabından bir sitat gətirmək yerinə düşər:» Nejə fərz etmək olar ki, məsələn, bir xoruz və ya tovuz quşunun şəklinin bir fotoqrafa ehtiyajı var, lakin xoruz və ya tovuzquşunun özü bir layihə və rəsam olmadan düzəldilmişdir?! Və ya əqli nejə qane edək ki, bir fotoaparatın yaradıjısı var, lakin insan gözlərinin şüurlu bir yaradıjısı yoxdur?!»

Görəsən özünün naqis yaratdıqlarında təlimata tabe olmağı israr edən insanın kamil yaradışların təlimat qanunlarına tabe olmaqda etinasızlıq göstərməsinin səbəbi nədir? Halbuki insanın nə ömrü, nə elmi və nə də qüdrəti çatmaz ki, əsrlər boyu yaratdığı bütün əsərlərini ən sadə olan kamil yaradılışdan birjəjiyi ilə müqayisə etməyə jürət etsin. Şüuru ilə digər bütün janlıların əşrəfi sayılan insan əqlinin bu qədər tənəzzülə uğramasının səbəbi nədir?

Dilimizdə çox məşhur olan bir atalar sözü var: «Gəmidə oturub gəmiçi ilə dalaşır.» Müasir insanı bu məsəlin təbirinjə qiiymətləndirsək,yanılmarıq. Çünki hər bir şeyə təlimat qoşan insan unudur ki, Quran insan ruhunun və jisminin təlimat kitabıdır.

Və bu təlimatda insanın Kamil Yaradıjısı olan Allah buyurur:

قُل لِّمَنِ الْأَرْضُ وَمَن فِيهَا إِن كُنتُمْ تَعْلَمُونَ

***«Ey Peyğəmbər! (Kafirlərə) de ki, əgər bilirsinizsə, bir deyin görək bu Yer vəYer üzündə olanlar kimindir? (Və Kim yaratmışdır?)[1]***

سَيَقُولُونَ لِلَّهِ قُلْ أَفَلَا تَذَكَّرُونَ

***«Əlbəttə, Allahındır! (Allah yaradıb) deyə javab verəjəksiniz. Sən də de ki, « Bəs elə isə düşünmürsünüz ki, axirətə iman gətirəsiniz?»[2]***

«Dünya məxluqatın bütün hərəkətləri, keyfiyyət və xüsusiyyətləri Allah-Təala tərəfindən idarə olunan çoxsaylı qanunlara tabedir. Məxluqatın janlı-jansız olmasından asılı olmayaraq, onların hamısında xilqət qanunlarına tabeçilik açıq-aydın müşahidə olunur.»

Əbu Talib Təjlil Təbrizi «Təbiətdə Allahın nişanə və möjüzələri» kitabında yazdığı bu fikirlərini Fussilət sərəsinin 53-jü ayəsi ilə sübut edir:

سَنُرِيهِمْ آيَاتِنَا فِي الْآفَاقِ وَفِي أَنفُسِهِمْ حَتَّى يَتَبَيَّنَ لَهُمْ أَنَّهُ الْحَقُّ أَوَلَمْ يَكْفِ بِرَبِّكَ أَنَّهُ عَلَى كُلِّ شَيْءٍ شَهِيدٌ

***«Onun (Quranın) haqq olduğu onlara (müşriklərə) bəlli olsun deyə, biz öz qüdrət nişanələrimizi onlara həm xariji aləmdə (kainatda, göylərin və yerin ətrafında), həm də onların öz daxilində mütləq göstərəjəyik.»***

Xariji aləmə müdaxilə etməklə İlahi qanunlara zərrə qədər də olsun təsir göstərə bilməyən insana ajizliyini etiraf etməkdən başqa bir yol qalmır. Bütün xəlq olunmuşlarla bərabər insan da onun üçün Xaliqi tərəfindən təyin olunmuş təlimat qanunlarından kənara çıxmaq iqtidarında deyil. Daxili aləmə gəldikdə isə…insan buna jürət etmiş,Yaradanın itaətindən çıxmışdır. İtaətdən çıxmaqla özünü «azad» elan edən insan

---

[1] *Муминин суряси,айя 84*
[2] *Муминин суряси, айя 85*

əslində nəfsin əsarətinə düçar olmuşdur. Lakin bəşər övladı istəsə də, istəməsə də, etiraf etməlidir ki, Quran qanunlarından kənara çıxmaq əslində günaha gedən yolun başlanğıjıdır.

Ustad Möhsün Qiraəti «Qonahşenasi» kitabında bu məsələni çox gözəlizahedir:

«Günah sözünün mənası xilaf deməkdir, İslamda İlahi fərmanın ziddinə çıxmaq olduğu üçün böyük sayılır

Rəsuli-Əkrəm(s) Əbu Zərə belə buyurmuşdur: «Günahın kiçikliyinə baxma, əksinə, kimin itaətindən çıxdığına bax.»

İnsan təfəkkürünün məhsulu olan elminailiyyətləri danmaq düzgün olmazdı. Lakin bütün bunların İlahi qanunlara istinad etmədiyi təqdirdə təlimatdan kənara çıxmasında təminatı yoxdur. Bunun minlərlə misalı var, dünyanın hər yerində hər an baş verən qəzaların əksəriyyəti bu səbəbdəndir. Əhəmiyyətsiz xırda zərərlərdən tutmuş külli miqdarda maddi vəsait itkilərinə , çoxlu sayda insan ölümünə , fajiə və bəlalara, təbii nemətlərin məhv olmasına gətirib çıxaran qəzalar insanın elmi və əqli jəhətdən kamil olmamasının nətijəsidir. Digər tərəfdən də hər bir fərdin şəxsi qərəzçilikdən tutmuş dünya miqyasında tətbiq olunan jəza tədbirlərinin ədalətdən kənar olduğu təqdirdə ajı nətijələri əsas qanunların əhatəsindən çıxaraq naqis qanunların yaradılması və onların pozulması ujbatındandır.

Bu qədər günahı boynuna götürən insan bir gün özünün də Yaradıjısı qarşısında javab verəjəyini və jəzalandırılajağını tamamilə unudub.

Qiyamət adlanan haqq-hesab günü Quranda insan üçün yazılmış təlimatda dəfələrlə xatırlansa da, sanki insan beyni bunu qavramaqdan məhrum olmuşdur.

Həyatı boyu hər şeyə qarşı tələbkar olmağa çalışan insan bir gün ondan da gördüyü işlər barədə mizan-tərəzi qurularaq sorğu-sual aparılajağının fərqində deyil. Çünki bu fərqi yaradan Quran onun həyatına nur saçmır, yaxşı-pis, günah-savab, halal-

haram, məkruh-müstəhəbləri onun naqis gözləri görə bilmir. Təbii bir haldır ki, nurdan məhrum olan bir göz üçün hər şeyin rəngi qaradır.

وَنَفْسٍ وَمَا سَوَّاهَا فَأَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَاهَا

***«And olsun nəfsə və onu Yaradana (ona biçim verənə), sonra da ona günahlardan və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə.»*[1]**

Quran təlimatından uzaq düşən insan öz mənəvi korluğunun qaranlıqlarında daima büdrəyərək, yıxılaraq həyatını bəlalara məruz qoyur, günah girdabına bulaşır bu girdabdan xilas olmaq barədə düşünmək qabiliyyətini itirir. Lakin mərhəməti böyük olan Tanrı bu jür vəziyyətində belə insanı ümidini dirçəltməyə və nijat yolunu tapmağa səsləyir.

قَدْ أَفْلَحَ مَن زَكَّاهَا وَقَدْ خَابَ مَن دَسَّاهَا

«Nəfsini (günahlardan) təmizləyən mütləq nijat tapajaqdır! Onu (günaha) batıran isə əlbəttə, ziyana uğrayajaqdır.»[2]

İnsanın fitrəti pak olduğu üçün hər an hidayət olmaq şansı var. Ustad Əllamə Məhəmməd Hüseyn Təbatəbayinin dediyi kimi; «Deyə bilərik ki, yaxşı işləri həyata keçirmək üçün «çağırış» hər bir şəxsdə mövjuddur və bir qrup insanlar bu daxili çağırışı dinləyərək xöşbəxtliyə, digər qrup isə ona qulaq asmyaraq bədbəxtliyə doğru yönəlir.»

İnsan əqlinin kamil olması üçün onun da bir idarəediji qüvvəyə ehtiyajı vardır və bu qüvvənin «Quran» olduğunu qəbul edərək ona tabe olmağın vajibliyi aşkardır. Bunun üçün nümunə tələb edən hər bir kəs Həzrət Məhəmməd Mustafanı (s) axtarsın. Çünki o, Qiyamətə qədər bütün bəşəriyyətə Allah kəlamı olan Qurani-Kərimin janlı timsalıdır, bəşər övladı olaraq

---

[1] *Шямс суряси, айя 7-8*
[2] *Шямс суряси, айя 9-10*

Quranı öz əxlaqında, mənəviyyatında janlandıran və bu şərəfli əmri layiqinjə yerinə yetirən məhz o Həzrətdir. Elə bir insan ki, hələ erkən yaşlarından jamaat arasında «Əmin» ləqəbini qazanmışdı. İnsanların əmanətlərinə sədaqət Allahın əmanəti olan «Qurana» sədaqətlə kamilliyə yetişdi. O vaxtdan uzun bir zaman keçməsinə baxmayaraq, nəinki bütün müsəlmanların, hətta qeyri-müsəlman millətlərin bu barədə nəzərləri dəyişməz olaraq qalır. Quran isə bunu belə təsdiqləyir:

وَمَا يَنطِقُ عَنِ الْهَوَى إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى

***«O həva-nəfsindən (öz istək, düşünjəsinə görə) danışmaz, söylədikləri yalnız ona vəhy olunan şeydən başqa bir şey deyildir.»*** *1*

Belə bir Peyğəmbərin ümmətindən olan insana İlahi əmanətə xəyanət yaraşarmı?! Bu xəyanət Allah qəzəbinin ən uja zirvəsidir.

وَجَعَلْنَا مِن بَيْنِ أَيْدِيهِمْ سَدًّا وَمِنْ خَلْفِهِمْ سَدًّا فَأَغْشَيْنَاهُمْ فَهُمْ لاَ يُبْصِرُونَ

***«Biz onların (xeyir yoluna) önlərini və arxalarına sədd çəkib gözlərini bağlamışıq ki, heç görməsinlər.»***[2]

Bəli İlahi əmanətə xəyanət edən insan bütün həyatı boyunja hər jür xəyanətlə ayrılmaz dostdur, gözləri kor, qəlbi isə sərtdir. Ona görə də dibi görünməyən dərin uçuruma doğru istiqamət götürən, bu uçurumun zülmət boşluqlarında üzüaşağı enən insan bu halını İlahi fəzanın sonsuz ənginliklərində qanad çalmaqla səhv salıb. Halbuki janlı Quranın İlahi təlimatın əmrləri ilə tərbiyə etdiyi kamil insan əxlaqının zirvəsini fəth edən, Qurani-natiq və kamil insan kimi tanınmış İslam öndəri

---

[1] *Няжм суряси,айя3,4*
[2] *Йасин суряси,айя 9*

Həzrət Əli(ə) var ki, insan ruhunu örtən bütün növ qara hijabları insana tanıtdırmağa qadirdir.

Ustad şəhid Murtəza Mütəhhəri Həzrət Əlini(ə) məhz o həzrətə həsr etdiyi «Kamil insan» kitabında belə vəsf edir: «Kamil insan bütün insani dəyərlərdə qəhrəman olan şəxsdir. Kamil insan insanlığın bütün meydanlarında qəhrəmandır!

Bizim Əlini(ə) özümüzə örnək və imam seçməyimiz bütün insani dəyərləri mütənasib və bərabər şəkildə özündə inkişaf etdirmiş kamilbir insanı özümüz üçün rəhbər seçməyimiz deməkdir.

Axşamlar gejənin sakit qaranlıqlarında heç bir arif Əliyə çata bilməz.

Döyüş meydanında, bədənin yaralanmasına və hətta bəzən bədənindən bir parça ətin qopmasına baxmayaraq, diqqətini mübarizə nöqtəsindən çəkməyərək heç bir şeyə əhəmiyyət vermir.

İbadətə elə qərq olur və İlahi eşq vüjudunda elə şgləlİnir ki, sanki bu dünyada deyil.

İbadət mehrabında elə ağlayır, elə sızlayır ki, misli görünməyib.

Gündüz olanda isə elə olur ki, sanki həmin Adam deyil.

Səhabələri ilə oturanda çox gülərüz və təbəssümlü olur.

Əli (ə) sanki gejə bir şəxsiyyət, gündüz isə başqa bir şəxsiyyət olur.

Həm həlimlik və yumşaqlığın son həddində, həm də şüjaətin son dərəjəsindədir.

Lazım olan yerdə sənin Çirkin qanları tökməyin də qan tökməyin son həddindədir. Digər tərəfdən ibadətin son dərəjəsinə çatmış bir abidsən. Həm yoxsul, həm də səxavətlisən! Heç nəyin yoxdur, amma bağışlayırsan.

Bəzi yerlərdə rəftar və davranışın o qədər lətif və mülayimdir ki, meh bu əxlaqın lətifliyindən xəjalət çəkir.

Həmçinin ruhunda o qədər şüjaət və müjahidlik vardır ki, daş, filiz və jansız əşyalar onun müqabilində əriyirlər.»[1]

Budur Quranın insan ruhuna təsiri. İslam tarixində bu təsirlə saflaşaraq yetişən şəxsiyyətlər kifayət qədərdir. Onlar İslam Peyğəmbəri (s) və Əhli-beytin (ə) davamçılarıdırlar.

Hal-hazırda da bu şərəfli yolun davamçıları mövjuddur və həmişə mövjud olajaqdır. Çünki onlar Rəsulullahın (s) buyurduğu: «Mən sizin aranızda iki dəyərli əmanət qoyuram; Allahın kitabı və itrətimi (Əhli-Beytimi). Bu ikisinə də bağlansanız qurtulajaqsınız.» -hədisi-şərifi özlərinə şüar seçmişlər. Bu şüarın ən möhkəm dəlili Quranın özüdür:

إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

***«Sizin vəliniz, sahibiniz anjaq Allah, Onun Rəsulu, namaz qılan və rüku halında zəkat verən möminlərdir.»[2]***

---

[1] *М.Мцтящщяри, Камил инсан, сящ.39-42*
[2] *Маидя суряси, айя 55*

# Quran və sünnət

Quran kəlməsi bir isim olub «oxumaq və toplamaq» mənasını verən kökdən yaranmışdır. Ərəb dilli mənbələrin yazdığına görə bu kitabın belə adlanmasının səbəbi ondadır ki, İlahi kitabda həm əmrlər, haramlar, mücdələr, ayələr və surələr toplanmışdır, həm də oxumaq üçün nəzərdə tutulmuşdur. Burada maraqlı olan başqa məsələ budur ki, Quranın adı ilə onun insan oğluna xitab edən ilk vəhyin ilk kəlməsi eyni kökdən olan və «oxu» mənasınaı verən «iqra» sözüdür. «Quran möjüzəsinin» göstərijilərindən biri də məhz budur.

Quran özünü bu adla yetmişə yaxın yerdə çəkir.Quran özü üçün aşağıdakı kəlmələrdən də istifadə etmişdir;Hakim(hikmətlə dolu),Tənzil (Allahdan endirilən), Nur, Fürqan, Zikr, Kitab və s.

Quranı daha yaxşı tanımaq üçün onun özünün özü haqqında dediklərini nəzərdən keçirək. Loğman surəsinin ilk üç ayəsində yazılmışdır:

الْم تِلْكَ آيَاتُ الْكِتَابِ الْحَكِيمِ هُدًى وَرَحْمَةً لِّلْمُحْسِنِينَ

***«Əlif, Lam, Mim. (Bu kitab həmin bu hərflərdən təşkil olunmuşdur. Eyni zamanda bir möjüzədir. Bu kitab Əlif (Allah) tərəfindən Lamın (Jəbrail) vasitəsilə Mimə (Məhəmməd – səlləllahu ələyhi və Alihi və səlləmə) nazil olunmuşdur. Bu kitabın möhkəm ayələri və bu jür də mütəşabih ayələri vardır.)***

***Bu (surənin) ayələr(i) hikmətamiz kitabın ayələridir (Quranın, yaxud Lövhi-Məhfuzun ayələridir. O, elmlərə, şəriət hökmlərinə və müstəqil əqli məfhumlara şamildir).***

***O yaxşı əməl sahibləri üçün düz yol göstərən və rəhmətdir.»***

1) Quran ayələri hikmətlərlə dolu olan bir kitabdır. Bu heç də ayələri oxuyub hikmətə çatmağın mümkün olajağı demək deyildir. Tamamilə əksinə, hikməti yoxsul olan mənliklərin Qurandan nəsib ala bilməyəjəklərini göstərir.

2) Quran İlahi gözəlliyi sevənlərə (mühsinlərə) hidayət və rəhmətdir. Yəni dindarlıq adı altında gözəlliyə nifrət edənlərin Qurandan rəhmət və hidayət gözləmələri bir aldanışdır. Quran Allaha imanla gözəlliyin qaçılmaz bərabərliyini möjüzəvi bir şəkildə ifadə etmişdir.

Fussilət surəsinin ilk beş ayəsində isə Qurandan belə bəhs edir:

**حم تَنزِيلٌ مِّنَ الرَّحْمَنِ الرَّحِيمِ كِتَابٌ فُصِّلَتْ آيَاتُهُ قُرْآنًا عَرَبِيًّا لِّقَوْمٍ يَعْلَمُونَ بَشِيرًا وَنَذِيرًا فَأَعْرَضَ أَكْثَرُهُمْ فَهُمْ لَا يَسْمَعُونَ وَقَالُوا قُلُوبُنَا فِي أَكِنَّةٍ مِّمَّا تَدْعُونَا إِلَيْهِ وَفِي آذَانِنَا وَقْرٌ وَمِن بَيْنِنَا وَبَيْنِكَ حِجَابٌ فَاعْمَلْ إِنَّنَا عَامِلُونَ**

***Ha Mim. (Bunlar Allah tərəfindən Məhəmmədə(s) təlqin edilmiş sirlərdir. Bu kitab həmin bu hərflərdən təşkil olunmuşdur. Lakin heç kəsin onunla mübarizə aparmaq qüdrəti yoxdur. Bu kitabın «möhkəm», həmçinin bu jür «mütəşabih» ayələri vardır. And olsun Bizim hədsiz həlimliyimizə və mütləq hökmranlığımıza ki, talelərdə baş verənlər əzəli qəzavü-qədərin hökmündən keçmişdir.) (Bu surə və bu kitab boynunda şər'i vəzifə olan bütün bəndələrə) ümumi rəhmət və (bütün iman gətirənlərə) xüsusi mərhəmət sahibi olan Allah tərəfindən nazil edilmişdir. (Bu,) elm əhli olan bir dəstə üçün ərəbcə bir Qur'an halında ayələri***

***ayrılaraq müfəssəl açıqlanmış (kəlmələri surə və ayələrə bölünmüş və məzmunu dinin hökmləri, axirət təlimləri və dünyəvi elmləri əhatə edən) bir kitabdır. (İman gətirmiş hər bir şəxsə) müjdə verən və (hər bir itaəsizi) qorxudan (bir Qur'andır). Lakin onların çoxu üz döndərdilər. Bu səbəbdən (qəlb qulağı ilə) eşitmirlər. Və dedilər: «Qəlblərimiz sənin bizi çağırdığın şey üçün örtülüdür, qulaqlarımızda ağırlıq var və bizimlə sizin aranızda (ədavət, inad, həmçinin əqidə və üslüb fərqi) pərdə(si) mövcuddur. Buna görə də sən öz işini gör, biz də mütləq (sənə qarşı) fəaliyyətdəyik.»***

Quran Rəhman və Rəhim olan Allahın vəhyidir. Mücdə verən və qorxudujudur. Bilik sahibi olan kütlənin başa düşməsi üçün ayələr müfəssəl izah edilmişdir. Nə yazıq ki, insanların çoxu ondan üz çevirmiş və onu dinməz bir hala gətirmişdir. Bunların Quran qarşısında qəlblərinin örtülü, qulaqlarının kar və gözlərinin pərdəli olduğu qeyd edilmişdir.

Quran burada və daha bir neçə yerdə Qurana inanmaq istəyənlərin onu dinləməkdən israrla qaçdıqlarını söyləməkdədir. Deməli dinlədiklərinin təsiri altında qalajaqlar, inanma mərhələsinə gələjəklər. Quranı dinləməkdən elə qorxurlar ki, iyirmi altınjı ayənin bildirdiyinə görə Quranı dinləməmək üçün gurultulu səslər çıxarırlar və ortalığa vəlvələ salırlar. Onların işi yalnız vəlvələ salmaqla bitmir. Onlar dini uydurma və xurafi rəvayətlərlə doldururlar. Görün Haqqə surəsinin 38-52-ji ayələri Quranı bizə nejə tanıtdırır.

فَلَا أُقْسِمُ بِمَا تُبْصِرُونَ وَمَا لَا تُبْصِرُونَ إِنَّهُ لَقَوْلُ رَسُولٍ كَرِيمٍ...

Allah görə bildiyimiz və görə bilmədiyimiz şeylərə and içərək diqqətimizi aşağıdakı məsələlərə yönəldir.

1) Həzrət Peyğəmbərə (s) çox uja bir mələklə göndərilən bir vəhydir. Şair sözü deyildir, sehrbaz və falçı sözü də deyildir. Aləmlərin Rəbbindən gələn bir kəlamdır. Bütün bunlara

baxmayaraq, insanların «az bir qismi» ona inanajaq və ondan «öyüd» alajaqdır.

2) Əgər Həzrət Peyğəmbər Qurana özündən ən kiçik bir şey əlavə etməyə qalxsa, vəhyin sahibi onun jan damarını qoparar.

3) Quran müttəqilərə bir öyüd-nəsihət, kafirlərə isə bir peşmançılıqdır. O açıq-aydın həqiqətin özüdür.

Quranın əsas göstərijilərindən biri də Hud surəsinin ilk üç ayəsində göstərilmişdir. Burada Quran hər şeyi Allah tərəfindən ətraflı bir şəkildə ortaya qoyan bir kitab kimi təqdim olunmuşdur. Bu ayələr açıq bir təhrifi ifadə edən iddiaya qarşı çıxır. Hakim və Xəbir olan hərtərəfli, ətraflı bir kitaba «anlaşılmaz» damğası vurmağın özü də bir təhrif sayılmalıdır. Bu təhrif dini tövhid halından şirkət halına gətirməkdir. Nə yazıq ki, bu hal açıq və aydın İlahi dini bir xaosa çevirmişdir. Mumin surəsinin 12-ji ayəsi bu xaosu belə izah edir:

ذَلِكُم بِأَنَّهُ إِذَا دُعِيَ اللَّهُ وَحْدَهُ كَفَرْتُمْ وَإِن يُشْرَكْ بِهِ تُؤْمِنُوا فَالْحُكْمُ لِلَّهِ الْعَلِيِّ الْكَبِيرِ

***«Bu hala düşdünüz. Çünki Allaha, yalnız onu çağırdığınızda inkar etmişdiniz. Ona ortaq qoşduğunuza isə inanırdınız.»***

Minlrlə uydurma rəvayətlər İslam ümmətinin güjünü sarsıtmış, təriqətçilər və sufilər fitnənin yayılmasına yol açaraq düşünjə azadlığına və elmlərə sahib çıxanları İslamdan uzaqlaşdırmışdılar. Məhz bu jür rəvayətlər İslamı xürafə dini olaraq göstərmiş, azad düşünjəli insanları İslamdan kənarlaşdırmışdır.

Quranı anlaşılmaz elan edənlərin gətirdikləri dəlillər-mütəşabihat və «bunları Allahdan başqa kimsə anlaya bilməz» iddiasıdır. Lakin bu zaman belə bir təhlükə ilə üz-üzə gəlirik: Quranın böyük bir qismini təşkil edən mütəşabih ayələr- «bunları Allahdan başqa heç kəs anlaya bilməz» deyərək

üstündən keçsək, Quran bir-neçə ayədən ibarət olan bir «qayda-qanunlar» kitabı halına gələr. Düşünjə prosesi öz mənasını itirər. Və bundan da belə nətijə çıxar ki, Allaha əbəs və boş, anlaşılmaz və başa düşülə bilməyən sözlər söyləməsi aid edilməlidir.

Lakin ayəni düşünən insan heç də ondan bu yuxarıdakı mənanı çıxarmır. Ayəyə görə mütəşabihlərin «anlaşılmaz» olduğunu deyil, əksinə, başa düşülməsinin mümkün olduğunu bildirir. Amma bunun üçün iki şərt qoyur: möhkəmlərdən bərk yapışmaq və elmdə dərinlik kəsb etmək. Məhz mütəşabihlik insan oğlunu gələjək zamanlar boyunja yeni təkamül mərtəbələrinə görə dəyişdirilməsini saxlaya bilən yeganə amildir. Bir sözlə mütəşabih ayələri araşdırmada vəhylə bərabər insana oxumaq üçün təqdim edilən iki kitab (insan və kainat kitabı) da vardır.Və bu mütəşabihlər zaman keçdikjə möhkəm ayələrə çevrilir. Çünki son olaraq Quranın tamamı möhkəmdir. Yəni Quran içərisində ziddiyyət, uyğunsuzluq qəbul etməyən və bütün insanların başa düşməsi üçün endirilən səmavi kitabdır. Deməli, mütəşabihlik mənaları açılana qədərdir və sonda möhkəmə çevrilməlidir. Ona görə Ali-İmran surəsinin 7-ji ayəsində –

هُوَ الَّذِيَ أَنزَلَ عَلَيْكَ الْكِتَابَ مِنْهُ آيَاتٌ مُّحْكَمَاتٌ هُنَّ أُمُّ الْكِتَابِ وَأُخَرُ مُتَشَابِهَاتٌ

***«Mütəşabihlər haqqında biz ağzımızı aça bilmərik»*** şəklində təfsiri kökündən səhvdir. Quranın bizdən mütəşabihlər məsələsində istədiyi elm və düşünjədən qaçmaq deyil, bu prosesdə möhkəmləri nəzərə almaq və elmdən xəbərdar olmaqdır. Bunun əksini iddia etmək Quranın məntiqinə ziddir. Çünki Quran açıq olaraq özünün «başa düşülmək», «öyüd almaq» üçün gəldiyini elan edir. Allah-Təala Quranı müfəssəl

kitab adlandırır. Qəmər surəsinin 17, 22, 32, 40-jı ayələrində Quran sahibi eyni ifadə ilə bunu söyləyir:

وَلَقَدْ يَسَّرْنَا الْقُرْآنَ لِلذِّكْرِ فَهَلْ مِن مُّدَّكِرٍ

***«Təkrar, təkrar And olsun ki, biz bu Quranı öyüd alasınız deyə asanlaşdırdıq. Bu beləykən düşünüb, öyüd alajaq kimsə yoxmu»***

Nəzərdən keçirdiyimiz məsələ haqqında Zumər surəsinin 45-ji ayəsi çox maraqlıdır.

وَإِذَا ذُكِرَ اللَّهُ وَحْدَهُ اشْمَأَزَّتْ قُلُوبُ الَّذِينَ لَا يُؤْمِنُونَ بِالْآخِرَةِ وَإِذَا ذُكِرَ الَّذِينَ مِن دُونِهِ إِذَا هُمْ يَسْتَبْشِرُونَ

***«Allahın təkliyi zikr edilən zaman axirətə imanı olmayanların qəlblərində ikrah və nifrət yaranar. Ondan qeyriləri (bütlər) yada salınan zaman isə birdən sevinərlər.»***

Bu ayəni çox diqqətlə düşünsək və bu gün müsəlmanların düşdüyü vəziyyəti nəzərə alsaq, görərik ki, inanj və ibadət məsələlərində jahiliyyə ərəbləri ilə elə də böyük fərqimiz yoxdur.

Doğrusu budur ki, Quran hər kəsin nəsibi ölçüsündə başa düşəjəyi və mütləq oxuması gərək olan bir kitabdır. Hər oxuyanın hər şeyi başa düşməsi şərt deyildir. Oxuyub anlamağa çalışanlar çoxalmalıdır ki, daha yaxşı anlayanların sayı artsın. Allah kəlamını oxumaq səviyyəsi nə olursa olsun Allahın bütün qullarının həm haqqı , həm də vəzifəsidir. Quran Allahın rəhmətidir.

Sad surəsinin 29-ju ayəsində Allah-Təala buyurur:

كِتَابٌ أَنزَلْنَاهُ إِلَيْكَ مُبَارَكٌ لِّيَدَّبَّرُوا آيَاتِهِ وَلِيَتَذَكَّرَ أُوْلُوا الْأَلْبَابِ

***«O mübarək kitabı sənə endirdik ki, ayələrini düşünsünlər və ağıl sahibləri öyüd alsınlar.»***

Oxuduğumuz ayədən belə nətijə almaq olar:

1) Quran müqəddəs və bərəkətli kitabdır

2) Onun bərəkətindən nəsib almaq üçün onun ayələri üzərində dərindən düşünmək şərtdir.

3) Qurandan öyüd almaq ağıl və qəlb sahibi olmağa bağlıdır.

4) Quranı oxumaq Quran ayələrini düşünmək və düşünüb öyüd almaq deməkdir. Nə dediyini anlamadan Quranı oxumağın savabı oxuyub başa düşməkdən azdır.

Kim Quranı ərəb dtltndə oxuyub başa düşmürsə, ilkin mərhələdə onu öz ana dilində oxuyub dərk etməyə çalışmalıdır. Dinin və Quranın əmri hər fürsətdə oxumaqdır. Çünki Quran bizim hidayətimiz üçün nazil olmuşdur və buna heç bir şəkk ola bilməz . Səjdə surəsinin 1-3-jü ayələrində

الم تَنزِيلُ الْكِتَابِ لَا رَيْبَ فِيهِ مِن رَّبِّ الْعَالَمِينَ أَمْ يَقُولُونَ افْتَرَاهُ بَلْ هُوَ الْحَقُّ مِن رَّبِّكَ لِتُنذِرَ قَوْمًا مَّا أَتَاهُم مِّن نَّذِيرٍ مِّن قَبْلِكَ لَعَلَّهُمْ يَهْتَدُونَ

***«Aləmlərin Rəbbindən endirilən, içində şübhə, şübhə-uyğunsuzluq olmayan, uydurmalardan uzaq bir kitab»*** olaraq tanıtdırılır**.** Bəli, Quran budur. Quran hələ ilk ayələrinin birində, yəni Bəqərə surəsinin 2-ji ayəsində özünü

ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ

***«İçində şəkk-şübhə olmayan kitab»*** olaraq göstərməsi ilə Quranda zidiyyət və uyğunsuzluq axtaranları yerinə oturdaraq məsələyə nöqtə qoyur. Bəli, dinin dayana biləjəyi əsaslar anjaq belə bir kitabda verilə bilər. Bu prinsip Quranın özü və bünövrəsidir. Deməli, bu xüsusiyyətləri daşımayan söz və rəvayətlər Allahın dini adı ilə təqdim oluna bilməz.

Quran ixtilafların olajağını bildirərək onların həll edilməsi yolunu da göstərmişdir:

وَمَا اخْتَلَفْتُمْ فِيهِ مِن شَيْءٍ فَحُكْمُهُ إِلَى اللَّهِ ذَلِكُمُ اللَّهُ رَبِّي عَلَيْهِ تَوَكَّلْتُ وَإِلَيْهِ أُنِيبُ

***«...haqqında ixtilafa düşdüyünüz məsələlərdə hökm Allahındır.»*** [1]

أَفَلاَ يَتَدَبَّرُونَ الْقُرْآنَ وَلَوْ كَانَ مِنْ عِندِ غَيْرِ اللّهِ لَوَجَدُواْ فِيهِ اخْتِلاَفًا كَثِيرًا

***«Quranı dərindən düşünməyəjəklərmi? Əgər o Allah tərəfdən yox, başqa yerdən olsa idi, əlbəttə, onda bir çox ixtilaflar olardı.»*** [2]

Bu ayələrdən çıxardığımız nətijələr belədir:

1) Quranda ixtilaf olajaq heç bir şey yoxdur.

2) İxtilaflarla və uyğunsuzluqlarla dolu olan bir kəlam Allah tərəfindən, yəni vəhy ola bilməz.

İxtilaflardan uzaq olan Quranın hər jür təhrif, əksiltmə və əlavədən qorunmasının Allah tərəfindən həyata keçiriləjəyi də onun fitrət dininə hökm qaynağı olmasını sübut edir. Və bu mənada Allahın qoruduğu tək mənbə Qurandır.

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ

***«Biz əlbəttə, biz endirdik o Zikri və heç şübhəsiz biz onu qoruyajağıq.»***[3] ayəsi yuxarıda dediyimz məsələni bir daha təsdiq edir.

Quranın dərkində məsumların buyurduğu hədislərin rolu da inkaredilməzdir. Belə ki, biz Quranda öz təsdiqini tapan hədisləri qəbul etməli, Qurandan təsdiq qazanmayan hədisləri isə kənarlaşdırmalıyıq. Çünki bunlar Allahın Rəsuluna açıq-

---

[1] *Шура суряси, айя 10*
[2] *Ниса суряси. айя 82*
[3] *Щижр суряси, айя 9*

aşkar iftiradır. Bu meyar Peyğəmbərin özü tərəfindən qoyulmuşdur: «Mənə istinad edilən sözlər çoxalajaqdır. Sizə məndən nəql edilsə də, Qurana uyğun olanlar məndəndir, uyğun olmayan isə məndən deyil.»

O halda Rəsulun sünnətinin ən doğru şəkildə öyrənilməsinin yolu da Allahın kitabına mürajiətdir. Peyğəmbərin sünnətini xarakterizə edən ayə Ali-İmran surəsinin 31-ji ayəsidir:

قُلْ إِن كُنتُمْ تُحِبُّونَ اللّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَاللّهُ غَفُورٌ رَّحِيمٌ

***«De ki: Əgər siz Allahı sevirsinizsə, mənim ardımja gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın.»***

Bu ayədə maraqlı bir injəlik nəzərə gəlir. Allahı sevməklə Peyğəmbəri izləməyi bir-birinə bağlayır. Bəli, Peyğəmbərin əxlaqı mükəmməlliyin janlı və əməli nümunəsidir. Peyğəmbəri izləmək şüar deyil, bir yaşayış tərztdtr. Ona görə bizlərə Peyğəmbəri özümüzə nümunə seçmək tapşırılır. Belə ki, Peyğəmbər nümunəvi bir modeldir. Və onu sevmək sözlə deyil, əməllə sübut olunmalıdır. Peyğəmbəri izləmə nədir?- sualına isə belə açıqlama verə bilərik.

1) Peyğəmbərin təbliğ etdiyi kitabı bir nəbi, elçi olaraq yaşaması

2) Peyğəmbərin yaşadığı jəmiyyətin, zamanın şəkil və şərtlərinə uyğun hərəkət etməsi.

Vəhyin bizdən istədiyi Peyğəmbərin bir nəbi kimi ortaya qoyduğu əmələ riayət etməkdir. Peyğəmbər bu tək sahibdən vəhylə aldığı hökmləri aydınlaşdırır və həyta keçirir. Biz də hər zaman bunlaradan istifadə edirik.

مَّنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللّهَ

***«Rəsula itaət etmək Allaha itaət etmək»***[1] sayılır. «Rəsula itaətin» mənası onun gətirdiyi vəhyə itaətdir. Çünki Rəsulun yaratmağa başladığı yeni dünyanın janı və qanı onun aldığı İlahi vəhydir. Və Rəsulun əsas sünnəti də vəhy süzgəjindən keçmiş həyat anlayışıdır. Yəni Peyğəmbərin gətirdiyi əmrləri yerinə yetirmək və çəkindirdiyi şeylərdən çəkinmək hər bir müsəlmanın borjudur. Amma məsələnin başqa tərəfi də vardır. Belə ki, Peyğəmbərin əmr kimi götürdüyü hökmlərin ən sağlam ölçüsü Qurandır. Məhz buna görə Peyğəmbər belə deyir:

وَمَا أَدْرِي مَا يُفْعَلُ بِي وَلَا بِكُمْ إِنْ أَتَّبِعُ إِلَّا مَا يُوحَى إِلَيَّ

***«Mən yalnız və yalnız mənə vəhy edilənə əməl edirəm.»***[2]

Ən böyük məqsədi Quranı təbliğ edib insanları xurafat, dar düşünjə və əyriliklərdən qurtarmaq olan Allahın Rəsulunun Qurana uyğun olmayan, bəzən Quranı nəsx edən, insanların yollarını daraldan, inkişafda olan jəmiyyətin sosioloci tərəqqisinə əks sözlər söyləməsi əsla düşünülə bilməz.

İndii isə gəlin, Quran məntiqi ilə «Sünnət» nədir? sualını araşdırmağa çalışaq.

Məlumdur ki, Quran «nejə» sualının aydınlaşdırılmasına girişməz. Quran yalnız «nə üçün?» sualına javab verməyə çalışar. Məhz bu baxımdan vəhy bir susduruju hegemoniya deyil, bir üfüq olan «pənjərədir». Və məhz buna görə də insana «nədən?», «nə üçün?», «nəyə görə?» sualları vermək Quranın sadəjə ijazəsi deyil, tələbidir.

لِيَهْلِكَ مَنْ هَلَكَ عَن بَيِّنَةٍ وَيَحْيَى مَنْ حَيَّ عَن بَيِّنَةٍ

Yəni Qurana görə ***«İnsanın həyatı da, ölümü də dəlil üzərində»***[3] olmalıdır.

---

[1] *Ниса суряси, айя 80*
[2] *Ящгаф суряси, айя 9*
[3] *Янфал суряси, айя 42*

Burada bir məsələni qeyd etmək yerinə düşərdi. Dəlil axtarmanın başlanğıjı olan «şübhə» ali bir keyfiyyətdir. Allahın varlığı haqqında «şübhə»yə düşdüklərini söyləyən səhabələrə Həzrət Məhəmmədin(s) : «Bax, bu imanın özüdür» deməsi və Allaha «onların şübhə ilə üz-üzə gətirdiyi üçün» həmd etməsi haqqında hədis diqqətəlayiq və şübhəsizdir.

Sünnət əsas etibarı ilə «nejə?», «nə jür?» suallarına javab verdiyindən deyə bilərik ki, hər toplumun və hər peyğəmbərin sünnəti vardır. Deməli, sünnət dinin tək sahibi olan Allahın dininin söykəndiyi vəhyə, vəhyin təbliğçisi olan peyğəmbəri tərəfindən gətirilmiş bir izahat və həyat tərzidir. Bünövrə və əsas isə Qurandır.

وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ

***«Peyğəmbərin sizə gətirdiyini alın.»*** [1] ayəsini sünnət mənasında təfsir etməyə qalxmaq qəbul edilməsi çox çətin olan izahdır. Əslində, bu ayə sünnəti Qurandan ayrı bir qaynaq olaraq düşünmənin səhv olduğunu göstərir. Belə ki, Quranı hərəkət nöqtəsi olmadan, sünnətdən vəhyi anlamağa gətirəjək nətijələr çıxarmaq mümkün olmaz. Hətta sunnəti tanıtmağa çalışdıqda belə Qurana yer vermək şərtdir.

Bir sözlə, gəldiyimiz vəziyyət onu göstərir ki, bizə təqdim edilən klassik sünnət və davranışlar yetərli deyildir. Və bizə sünnət adı ilə təqdim edilənlərlə «əsl sünnətin» heç bir əlaqəsi yoxdur. Sünnət bəşər üçün endirilən Quranın izahı və tətbiqi məsələlərinə aid olduğundan ijtimai dəyərdir. Lakin bizim zehnlərimizə tamamilə fərqli bir sünnət anlayışı yerləşdirilib. Ona görə önümüzdə «Müsəlmanlar sağlam bir sünnət anlayışına sahibdir» deməmiz mümkün deyil.

İslam ölkələrinin böyük əksəriyyətində tovhidə zidd olan bir çox inanj, düşünjə və davranış ilə saysız-hesabsız xurafi

---

[1] *Щяшр суряси, айя 7*

fikirlər hökm sürməyə davam edərkən, ijtimai həyatın bütün istiqamətlərində Qurandan uzaq bir həyat tərzi sürərkən, Quranın və sünnətin bizə nejə yol göstərəjəyi üzərində durmaq əvəzinə sadəjə bir sıra təfərrüat məsələlərində Peyğəmbəri izləməyə çalışırıq.

Başqa bir sözlə, bu gün sünnəti tətbiq etdiklərini iddia edən insanların sünnətə əməl etməyə çağıran və özlərini Peyğəmbər yolunun təqibçiləri olduğunu göstərmək üçün «sünnət tərəfdarları» (Əhli-sünnət) adını özlərinə şüar edənlər əslində sünnət anlayışından o yana keçə bilməyən bir zehniyyətə sahibdirlər.

Saysız-hesabsız problemlər yığını altında əzilən İslam ümməti bu vəziyyətdən qurtarmaq üçün «sünnət»dən nejə ilham ala biləjəyi üzərində durmamaq, əslində sözün əsl mənasında «ölünün üzünü nurlandırmaqdır».

Qaldı ki, qarşımızda «sünnət» adı ilə qoyulan məsələlərin çoxunda belə onların həqiqətən sünnət olub, olmadığı mübahisəlidir. Və sünnətin söykəndiyi hədislərdə olan vəziyyət də heç ürək açan deyildir.

Sünnətin məqsədi nədir?-Quranın bəşəriyyətə gətirdiyi prinsiplər əsasında İslam jəmiyyəti və mədəniyyəti yaratmaq.

Deməli, sünnət Quranın tətbiqində bir baxış dairəsi, bir metoddur. Əlbəttə ki, bundan istifadə etmək lazımdır. Sünnət dini aydınlaşdırır və izah edir. İnsan üçün bütün dövrlərə aid prinsiplər varsa da, o da mütləq Quranda göstərilmişdir. Peyğəmbərin bizə əmanət olaraq buraxdığı Quranın yanında Əhli-beyti göstərməsində heç bir ziddiyyət yoxdur.Belə ki, Quran qaynaq, Əhli-beyt isə əmanətdir. Quran Muminun surəsinin 8-ji ayəsində

وَالَّذِينَ هُمْ لِأَمَانَاتِهِمْ وَعَهْدِهِمْ رَاعُونَ

və Məarij surəsinin 32-ji ayələrində

وَالَّذِينَ هُمْ لِأَمَانَاتِهِمْ وَعَهْدِهِمْ رَاعُونَ

möminləri ***«əmanətlərə riayət edən və əhdlərinə vəfalı olan»*** deyə göstərərək Ənfal surəsinin 27-ji ayəsində belə bir bəyanı açıqlayır:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَخُونُواْ اللّهَ وَالرَّسُولَ وَتَخُونُواْ أَمَانَاتِكُمْ وَأَنتُمْ تَعْلَمُونَ

***«Ey möminlər! Allaha, Peyğəmbərə xəyanət etməyin. Bildikdən sonra əmanətlərə xəyanətmi edirsiniz?»*** Möminləri xəyanətlə ittiham edən Quranın ürpədiji bəyanı, Quran İsrail oğullarını peyğəmbərləri injidib öldürməklə «jinayət əhli» olduqları ilə ittiham etdiyi halda , İsmail oğullarını əmanətə xəyanət etmiş «xəyanət əhli» adlandırır.

İlk ağla gələn sual- «Belə bir şey olarmı?»- dır. Ola bilər ki, Allah buyurmuşdur: «İman adı altında və ya imana aid edilərək ortaya qoyulan xəyanətlər, inkara aid olan xəyanətlərdən daim daha böyük və yıxıjı olmuşdur. Ayə bu həqiqətə diqqət çəkir. Ayədə dolayı olsa da, Allaha və Rəsuluna xəyanətin onların əmanətlərinə xəyanət olduğu göstərilir. Yenə də ayənin açıq bəyanına görə bu xəyanətlər bildikdən sonra edilmişdir. Az-çox düşünən insan əlini vijdanının üstünə qoyub düşünərsə, gələjəyi nətijə bu olajaqdır: Allaha və Rəsuluna xəyanət dedikdə:

1)Allahın kitabına xəyanət,

2) Allahın Rəsulunun əmanətləri olan Əhli-beytə xəyanət

Allahın kitabına xəyanət Quranda Peyğəmbərin Allahın hüzurunda bütün insanlıq qarşısında Qiyamət günü ümmətindən edəjəyi şikayət Fürqan surəsinin 30-ju ayəsində dilə gətirilir.

وَقَالَ الرَّسُولُ يَا رَبِّ إِنَّ قَوْمِي اتَّخَذُوا هَذَا الْقُرْآنَ مَهْجُورًا

***«Rəsul deyəjəkdir ki: Ey Rəbbim! Mənim qövmüm həqiqətən bu Qurandan uzaqlaşmışdır!»***

Yenə də Quranın əsrlərlə önjə ifadə etdiyi möjüzəvi bəyanı. Zahirdə Qurana sarılma, həqiqətdə isə itələmə və ondan uzaqlaşma göstərmişlər.

Eyni zamanda Quranın açıq-aydın bəyanlarında «Əhli-beytə hörmət və sevgiyə» çağırır. Lakin ümmət zahirdə Əhli-beytə sevgi göstərsə də, həqiqətdə isə Əhli-beytə zülm etmiş, zəhərləmiş, qətlə yetirmiş, haqqlarına və mallarına təjavüz etmişlər. Deməк, Qurana və Əhli-beytə xəyanət, Allaha və Rəsuluna xəyanətdir.

Digər tərəfdən Əhli-beyt Allah tərəfindən beş yerdə Peyğəmbərlə ortaq qoyulmuşdur.

1) Salam: Allah namazda «salam sənə ey nəbi !» demiş, Quranda isə «Yasin ailəsinə salam olsun» deyərək Əhli-beyti salamlamışdır.

2) Salat: Allah namazda həm Həzrət Peyğəmbərə, həm də Əhli-beytə salat gətirməyi istəmişdir.

3) Təharət: Allah Peyğəmbəriüçün istədiyi təmizliyi, «Allah sizi tər-təmiz etmək istər, ey Əhli-beyt buyuraraq Əhli-beytə də lütf etmişdir.

4) Sədəqə: Allah Peyğəmbərə haram buyurduğu sədəqə yeməyi, eyni şəkildə Əhli-beyti üçün də haram buyurmuşdur.

5) Sevgi: Allah Quranda Peyğəmbərini sevməyi əmr etdiyi kimi Əhli-beyti sevməyi də əmr etmişdir.

Dediklərimizdən belə nətijə çıxarırıq ki, həm Peyğəmbər, həm də onun Əhli-beyti üçün yeganə mənbə Quran olmuşdur.Onlar Qurana əməl etmiş və Quranın buyurduğu şəkildə yaşamışlar.

Deyəjəyimiz əsas məsələlərdən biri də sünnətin daha yaxşı başa düşülməsi üçün «bəşər» və «nəbi» anlayışlarının başa düşülməsidir. Quran dinin sahibi və qoruyujusu Allah olduğunu və burada heç kimə «iştirak» ijazəsi verilmədiyini açıq bəyan edir. O halda mərtəbəsi nə qədər yüksək olsa belə, nəbinin

əməlləri, sözləri və işi vəhyi aydınlaşdırmaq və onu nümunə, misallarla insan həyatına qazandırmaqdır. Başqa sözlə Peyğəmbərin vəzifəsi gətirdiyi dini insanlara təbliğ etməkdir.

Gəlin, Quran və sünnət qarşılığını sadəjə bir «təbliğ» misalında nəzərdən keçirək: Quran təbliğ məsələsində əsas prinsipləri göstərir. Məsələn, Yasin surəsinin 21-ji ayəsində verilir:

اتَّبِعُوا مَن لاَّ يَسْأَلُكُمْ أَجْرًا وَهُم مُّهْتَدُونَ

***«Təbliğ edilәndən mənfəət gözləməmək.»***

Başqa prinsip: «Təbliğdə ikrahdan və məjburiyyətldən uzaq olmaq.» Digər prinsip, «Təbliğdə tədrijilik» və s.

İndii Hüdeybiyyə sülhü zamanı imzadan «Allahın Rəsulu» sözünün çıxarılmasında səhabələri çaşdıran, lakin Rəsulun bizə başa salmaq istədiyinin nə olduğunu anlamağa çalışmaq. Məqsədi bizə təbliğin strategiyasının müddəalarından birini başa salmaq idi. Heç də, bizə anladılan «vaxt qazanmaq» düşünjəsi deyildi. Bizə bunu çatdırmaq istəyirdi: «Qarşınızdakı insanı sizin müqəddəs bildiyiniz dəyərləri müqəddəs tutmağa məjbur edə bilməzsiniz. Əvvəljə sizin müqəddəs saydığınız dəyərlərin, layiqli dəyərlər olduğunu başa salıb qəbul etdirin , sonra ondan bir şeylər gözləyin…»

Quran və sünnət qarşılığında zidiyyət yaradan məsələlərdən biri də «nəsx» məsələsidir. «Bəzi ayələr nəsx edilmişdir» iddiası düzgün sayıla bilməz.

Nisa surəsinin 82-ji ayəsi, Qaf surəsinin 29-ju ayəsi, Taha surəsinin 114-jü ayələri Quranda nəsx olduğunu qəbul etməyə şübhə yaradır. Belə ki, nəsx anlayışları əks sözlər arasında olur. Quran isə onda belə sözlərin olmadığını bildirir.

مَا يُبَدَّلُ الْقَوْلُ لَدَيَّ وَمَا أَنَا بِظَلَّامٍ لِّلْعَبِيدِ

***«Mənim qatımda söz dəyişdirilməz.»***[1]

Həmçinin Taha surəsinin 114-jü ayəsində Peyğəmbərə gələn

وَلَا تَعْجَلْ بِالْقُرْآنِ مِن قَبْلِ أَن يُقْضَى إِلَيْكَ وَحْيُهُ

***«Quran vəhyi tamamlamadan Qurana son hökmü vermədə tələsmə»*** əmri də Quranın bir bütün olaraq düşünülməsinin və bu tamın içində heç bir ayənin kənarda qalmayajağını ifadə edir.

Qaldı ki, «Biz bir ayəni ondan daha yaxşısı və ya bənzərini gətirmədikjə nəsx etməz və unutdurmarıq» ayəsində keçən ayə sözü heç də Quranda surələrin ayəsi olmaya bilər. Belə ki, kainat və insan kitabı də ayələrlə dolulur.

Quranda olan «nəsx»i isə Həzrət Peyğəmbərə unutdurulmuş və yazılmayan ayələrə də aid etmək olar. Heç kimin Quranı mənsux saymağa haqqı yoxdur. Belə ki, Quranda mənasız olaraq endirilmiş heç bir ayə yoxdur və ola da bilməz.

Qurandan uzaqlaşmanın səbəblərini araşdırdıqda bu nətijəyə gəlmək olar: 1) Elm-iman münasibətləri və 2) Quran ağıl münasibətlərinin qırılması.

Bu nejə baş verdi?

Quran elmdən uzaq olan bir imanı qəbul etmir. Çünki belə bir iman dəlil (bəyyinə) üzrə olan iman deyildir. Prinsip budur: «İman elmlə, elm imanla bir olmalıdır. Deməli, iman ediləjək şey əvvəl bilinməlidir. Bir şey bilinmədikjə ona iman etmək olmaz. O şeyi insana məhz elm öyrədir. Elm obyektivdir. Yoxlanılır, səhv və ya doğru olduğunu ortaya çıxara bilir. İman isə subyektivdir. Qəlbin bağladığı bir hökmdür. Əgər iman elmə söykənməzsə, onun doğruluğunu və ya səhvliyinin ayrıd edə bilməz. Və belə olduğu təqdirdə imandakı uyğunsuzluqlar düzəldilə bilməz.

[1] *Гаф суряси, айя 29*

Qeyd etdik ki, Qurandan uzaqlaşmanın səbəblərindən biri də Quran və ağıl münasibətlərinin pozulmasıdır.

Quran Peyğəmbərin dili ilə ümmətindən «qurandan uzaqlaşma» şikayəti ilə birlikdə Qurandan uzaqlaşanların aqibətini də göstərir. Müdəssir surəsinin 48-55-ji ayələri Qurandan uzaqlaşanlar üçün

فَمَا تَنفَعُهُمْ شَفَاعَةُ الشَّافِعِينَ

***«..onlara şəfaətçilərin şhəfaəti fayda verməz»***[1] deyir.

Bəqərə surəsinin 159-ju ayəsində Qurandan uzaqlaşanlar üçün

أُولَئِكَ يَلعَنُهُمُ اللّهُ وَيَلْعَنُهُمُ اللَّاعِنُونَ

«…bütün lənət edə bilənlər lənət edər» deyərək, aqibətin nə qədər ağır olduğunu vurğulayır. Onda çıxış yolu varmı? Əlbəttə ki, var və o da yenə də Quranda göstərilir.

«..İman sahibləri üçün qəlblərinin Allahın zikri və Haqqdan enən qarşısında yumşalması vaxtı gəlmədimi?...»

Maraqlıdır ki, sonradan buradakı «zikr» sözünün Quran mənasında deyil, Allahı anmaq mənasında bizə təqdim ediləjəyinin bilən Allah bu ayədə zikrin Quran mənası verdiyini güjləndirmək üçün «Haqqdan enən» sözünü yerləşdirmişdir. Ayənin davamında «…Onlar özlərindən əvvəl kitab verilənlər kimi olmasınlar. Aralarında uzun bir müddət keçmiş və qəlbləri sərtləhşmişdir…»

Deməli, kitab əhli kitablarından uzaq düşmüş və qəlbləri sərtləşmişdir. Sizin də onlar kimi qəlbləriniz sərtləşmişdir. Sərtləşmiş qəlbləri janlılıq və bərəkətə döndərən yeganə vasitə Quran nəfəsidir.

Ona görə də Allah həm möminlərə, həm də Rəsuluna durmadan «Qurandan  bərk yapışmağı» əmr edir.

---

[1] *Мцдяссир суряси, айя 48*

Sonda son zamanlar aktual məsələlərdən biri olan «vəhy bütünlüyü» məsələsinə Quranın münasibəti haqqında mülahizələrimi bildirmək istərdim. İlk önjə Quranın özündən əvvəlki kitabları təsdiq etməsi «vəhyin bütünlüyünə» işarədir. Quran özünü bir kitab olaraq adlandırdığı kimi vəhyi də kitab olaraq adlandırır. Deməli, hər peyğəmbərin kitabı, böyük vəhy kitabından bir parçadır.

Bizə Tövrat və İnjil haqqında deyilənlər ilə Quranın bu kitablar haqqında dedikləri arasında çox böyük fərq vardır. Qurani-Kərimə görə Tövrat Həzrət Musaya(ə) verilən, vəhy edilən İlahi sözlərdir. Yəhudilər o kitabın tamını qoruya bilməmişlər, bir qismini unutmuşlar:

وَنَسُواْ حَظًّا مِّمَّا ذُكِّرُواْ بِهِ

***«Onlara verdiyimiz öyüdlərin bir qismini unutdular…»[1]***

أَلَمْ تَرَ إِلَى الَّذِينَ أُوْتُواْ نَصِيبًا مِّنَ الْكِتَابِ

***«Kitabdan özlərinə bir hissə veriləni görmədinmi?»[2]***

ayələri yəhudilərin Musaya verilən kitabın tamına deyil, anjaq bir qismini qoruya bildiklərini göstərir.

Yenə də buna baxmayaraq, Quran onların əllərində olan Tövratın Allahın kitabı olduğunu qəbul edir və özünün də onun söylədiklərinə uyğun olduğunu vurğulayır. Çünki nə qədər unudulmuş, yazılmamış qismləri olsa da, yenə Tövratdakı mövjud olan sözlər Həzrət Musaya gələn vəhydir.

İndiyədək bizə təqdim edilən Tövrat və İnjil haqqında fikirləri bir tərəfə qoyub özümüz Quranın bu kitablar barəsində bildirdiyi bəyanları düşünsək, belə nətijələrə gələ bilərik: Quran Tövrat və İnjili qəbul edir.

---

[1] *Маидя суряси, айя 13*
[2] *Али-Имран суряси, айя 23*

Burada bəzilərinin söylədiyi «Quran gəlsə də olurdu, gəlməsə də» iddiası səhvdir. Belə ki, Quranın özündən əvvəlki kitabları təsdiq etməsi əvvəlki vəhylərə heç bir şey gətirilməməsi mənasını daşımır.

Quran «Əhli kitabdan eləsi vardır ki, ona yüzlərlə əmanət buraxarsan onu sənə verər…»

وَمِن قَوْمِ مُوسَى أُمَّةٌ يَهْدُونَ بِالْحَقِّ وَبِهِ يَعْدِلُونَ

***«Musa qövmündən elə bir toplu vardır ki, həqiqəti götürər və ədaləti tutarlar.»*** [1]

وَلَوْ أَنَّهُمْ أَقَامُواْ التَّوْرَاةَ وَالإِنجِيلَ وَمَا أُنزِلَ إِلَيهِم مِّن رَّبِّهِمْ لأكَلُواْ مِن فَوْقِهِمْ وَمِن تَحْتِ أَرْجُلِهِم مِّنْهُمْ أُمَّةٌ

***«Əgər onlar Tövratı, İnjili və özlərinə endirilənə əməl etsəydilər, mütləq ki, üstlərindən və ayaqlarının altından yeyərdilər. İçlərində elmli bir ümmət var…»*** [2]

لَّكِنِ الرَّاسِخُونَ فِي الْعِلْمِ مِنْهُمْ وَالْمُؤْمِنُونَ

***«Onlardan elmbə dərinləşmiş alanlar və möminlər…»*** [3] ayələri kitab əhlinin içində həqiqəti axtaran səmimi elm sahiblərinin və möminlərin olduğunu söyləyir.

Vəhy və nübuvvət məsələsində böyük ehtimalla səhvə yol verdiyimiz məsələlərdən biri «ümmilik» və «Peyğəmbərlərin bilikli, hətta dövrünün ən bilikli olmaları» iddialarıdır. «Ümmilik» məsələsində isə «Peyğəmbərin yazıb-oxumağı bajarmadığı» iddiasıdır.

Quran məntiqi bu iddiaların tam əksini göstərir.

Həzrət Peyğəmbərin oxuyub-yazmağı bajarmaması iddiası, onun bütün bilikləri Allah tərəfindən alması fikrini

---

[1] *Яраф суряси, айя 159*
[2] *Маидя суряси, айя 66*
[3] *Ниса суряси, айя 162*

qüvvətləndirmək üçün hər zaman müdafiə edilmişdir. Sanki oxuyub-yazmağı bajarması bilikləri Allahdan almasına əngəl olurdu. Lakin bunu iddia edənlər Həzrət Peyğəmbəri yüksəltmək istəsələr də, əslində kiçiltmişlər. Aldığı vəhyin ilk əmri «oxu» olan, ən böyük düşmənlərini səhabələrinə oxuyub-yazmağı öyrətmələri qarşılığında azad etməyi qəbul edən, oxuyub-yazmağa, qələmə və kağıza andla dolu olan bir kitabı insanlığa təbliğ edən bir Allah elçisinin 23 illik peyğəmbərlik dövründə yazıb- oxumağı öyrənməmiş və ya öyrənə bilməmiş olduğunu iddia etmək eyibdir.

Eyni zamanda Quran varlığın düşünjə və elm yolu ilə təsdiq və tədqiq edilməsinə təklif deyil, israr edir. Bu fikri Quranda Allahın insanla danışması yollarndın biri olan «pərdə arxasından» dialoqu təsdiq edir ki, bu heç də bizim bildiyimiz pərdə deyildir. Varlığın düşünjə və elm yolu ilə təsdiq edilməsi, pərdənin arxasındakı Allahla bir yaxınlaşma, bir dialoqdur. Məhz bu baxmdan biz Quran adına bir prinsipi hər zaman təkrarlamalıyıq: Təfəkkür və elmi fəaliyyət, Allahla danışma ən mükəmməl dua şəklidir. İnsanlığa üfüq açmış və mərhələ aşdırmış böyük elmi kəşflər də insan üçün vəhy deməkdir.

Bütün elmlərin mənbəyi Allahdır:

قُلْ إِنَّمَا الْعِلْمُ عِندَ اللَّهِ وَإِنَّمَا أَنَا نَذِيرٌ مُّبِينٌ

***«Heç şübhəsiz, elm Allahın qatındandır.»***[1] Elm Allahın zatı işığının uzantısıdır. Məhz bu prizmadan baxdıqda yaradılışın ən önəmli sirlərindən biri olan azad iradə və elmə malik olan üsyankar insanın mələklərdən üstün tutulması məsələsi bizə bunu göstərə bilər.

Aydındır ki, azad iradə və elm insana yalnız yaradıjılıq qabiliyyəti verə bilər. Belə ki, bunlarsız yaradıjılıqdan söhbət gedə bilməz. Deməli, yaradıjılıq elm deməkdir, yaradıjılıq azad

---

[1] *Мцлк суряси, айя 26*

mənlik, azadlıq deməkdir. Elm və azadlıq bu mənada mövjud olana üsyan deməkdir. Üsyan, elm və azadlıqsevərlik insanı təkamülə aparan böyük qüvvə olduğundan Quran Adəmin üsyanını onun üçün bir əxlaqi nöqsan, ləkə saymır və Adəmin günahının bağışlanmasını göstərir.

Yaradıjılıq və ölümsüzlük fəaliyyəti ilə monotonluq, düzən və keçmişə bağlılıq (əjdadpərəstlik) arasında tərs mütənasiblik var. Ona görə də Quran əjdadpərəstliyi, təqlidi, keçmiş adətləri dəyişmək istəməməyi pisləyir.

Adəmin xətasını «üsyan» adlandıran Quran dolayı yoldan, üsyan ruhu ilə sonsuzlaşma istəyi arasında bir dağ olduğuna diqqət çəkir. Ona görə bütün yaradıjı ruhlar, asi, qabına sığmaz, düzən və sistem tanımaz mənliklərdir.

Quran insanın yaradıjı bir düşünjəyə malik olması baxımından bu məsələyə diqqət çəkərək ilk insanın günahına əxlaqsızlıq və üzüqaralıq gətirən bir günah nəzəri ilə baxmamış, tam əksinə, onu insanın inkişaf üfüqünü açan bir imkan kimi qiymətləndirmişdir. Bununla qənaətlənməyərək Yaradıjını insanın yanında olduğunu göstərmiş və Adəm oğullarının ümid üfüqlərini aydın tutmuşdur. Məhz bu yaradılış məsəlsində Quran insanın əbədi olaraq öyünə biləjəyi bir xasiyyəti, yəni «ismləri bilməsinin» yalnız insana xas edərək ona əbədi bir ümid və səadət qapısını o gündən bəri açmışdır.

# İslamın iki əsas mənbəyi: Quran və sünnə

Quran və sünnə İslamın əsas mənbələrindən sayılır. Müsəlman jəmiyyətinin qayda-qanunları, əxlaq normaları, mənəvi dəyərləri bu iki mənbə üzərində qurulur. Din məsələlərində hər hansı bir ixtilaf ilk növbədə Quran və sünnə əsasında həll olunmalıdır.

فَإِن تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللّهِ وَالرَّسُولِ

***«Əgər bir iş barəsində mübahisə etsəniz, onu Allaha (Qurana) və Peyğəmbəri (sünnəyə) həvalə edin.»[1]***

Birinji və əsas mənbə Qurandır. Qurani-Kərim Peyğəmbəri-əkrəmin (s) nübuvvətinin sənədi, İslami maarif və həqiqətlərin mənşəyi olan səmavi kitabdır. Quran Allah kəlamı, uja dərgahdan və əzəmət məqamından Peyğəmbərə(s) nazil olan təlimdir ki, onun vasitəstlə bəşəriyyətin səadət və xöşbəxtlik yolu göstərilmişdir.

Quran insanlara bir sıra elmi və əməli göstərişlər vermişdir ki, bəşər övladı onlrdan istifadə edərək həm bu dünyada, həm də axirət aləmində əbədi xöşbəxtliyə nail olsun. Qurani-Kərim Peyğəmbərin (s) risalətini əhatə edən 23 il ərzində tədriji şəkildə nazil olmuş və jəmiyyətlərin ehtiyajlarına javab vermişdir. Quran öz bəyanlarında xalqı xöşbəxtliyə, səadətə doğru hidayət etməkdən başqa bir məqsəd güdmür. Həm insan jəmiyyətlərinin,

---

[1] *Ниса суряси, айя 59*

həm də ayrı-ayrı fərdlərin xöşbəxtliyinin əsası olan düzgün etiqad, gözəl və bəyənilən əxlaq, layiqli əməli insanlara çox gözəl tərzdə öyrədir. Əhatəli həyat məramnaməsi sayılan Quranda insanı düşündürən bütün problemlərin həllini tapmaq mümkündür:

وَنَزَّلْنَا عَلَيْكَ الْكِتَابَ تِبْيَانًا لِّكُلِّ شَيْءٍ وَهُدًى وَرَحْمَةً وَبُشْرَى لِلْمُسْلِمِينَ

***«Biz Quranı sənə hər şeyi (dini hökmləri, halal-haramı, günahı və savabı) izah etmək üçün müsəlmanlara bir hidayət, mərhəmət və mücdə olaraq nazil etdik.»***[1]

وَلَقَدْ صَرَّفْنَا لِلنَّاسِ فِي هَذَا الْقُرْآنِ مِن كُلِّ مَثَلٍ فَأَبَى أَكْثَرُ النَّاسِ إِلاَّ كُفُورًا

***«Biz Quranda insanlar üçün hər jür məsəl çəkib mənasını onlara izah etdik.»***[2]

İslam alimləri Quran sözünün mənası və nejə tələffüz edilməsi haqqında mübahisə etmişlər. Quran ərəbjə «qarəə» - kökündən- «oxumaq» və ya bir çox hallard «ujadan ibarə ilə oxumaq» mənasına gələn söz kökündən əmələ gəlmişdir. Quran kəlməsi özü məsdər olaraq «toplamaq» və «əlavə etmək» mənasında da işlənmişdir, amma adətən «oxumaq» mənasında daha çox işlənir. Bu böyük kitab bir silsilə oxunan sözlərdən təşkil olunduğuna görə Quran (oxumalı, oxunmalı) adlandırılmışdır. Ola bilsin ki, Tanrı tərəfindən bu jür ad qoymanın injələnməsi ondan irəli gəlir ki, insanlar həmişə ona diqqət yetirərək davamlı surətdə onu oxusun və ondan ilham alsın. Bu ona işarədir ki, Quran olduqja ali bir həqiqətə malikdir. Amma bəzi alimlər iddia irəli sürmüşlər ki, Quran

---

[1] Нящл суряси, айя 89
[2] Исра суряси, айя 89

«qər» kökündən olub toplamaq mənasındadır. Çünki bu səmavi kitab bəşəriyyətin səadəti üçün lazım olan bütün həqiqətləri özündə jəmləşdirir və beləliklə Quran jame kitab mənasını alır.

Quran Allahın öz Peyğəmbəri Məhəmmədə (s) vəhy mələyi Jəbrayıl vasitəsilə nazil etdiyi vəhylərdir ki, ardıjıl olaraq ağızdan-ağıza ötürülmüş və müshəflərdə yazıya alınmışdır.

Quran bəzən əl-Hədis (hekayət), əl-Haqq (həqiqət), ət-Tənzil (nazil edilmiş), əl-Hikmə (hikmət), əz-Zikr (xatırlatma), əl-Furqan (haqqı batildən ayrıd etmə), əl-Kitab (kitab), ən-Nur (nur), ər-Ruh (ruh) adları ilə adlandırılmışdır. Mənbələrdə Quranın digər adları, məsələn, əl-Ayə (ayə,dəlil), əl-Müshəf (səhifələrdə toplanmış) və sair adları ilə qeyd edilir.

Quranın əsli lövhi-məhfuzdadır. Lövhi-məhfuz Allah dərgahında, yaxud mələk İsrafilin gözləri arasında, alnında, yaxud ərşin sağ tərəfində saxlanılan və ağ mirvaridən olan ana kitabdır ki, bu kitabla anjaq mələklər tanış ola bilər. Quran və digər səmavi kitablar ondan köçürülmüşdür. Quran lövhi-məhfuz üzərində yazılaraq göylərdə saxlanılan kitabın mətninin bəşər təfəkkürü anlaya biləjəyi qədərində olan bir surətidir.

## Quranın nazil olma forması

Quran iki formada nazil olubdur: bir dəfə Qədr gejəsində onun həqiqəti tam və bütövlükdə Həzrət Məhəmmədin (s) qəlbinə vəhy edilib, və bir də 23 il ərzində müxtəlif hadisələrlə əlaqədər və müxtəlif suallar qarşısında o həzrətin besətindən (peyğəmbərləiyə yetişməsindən), rehlətinədək (dünyasını dəyişənədək) nazil olmuşdur. Quranın bir neçə ayələri həmin fikri təsdiqləyir; Bir yerdə buyurur:

إِنَّا أَنزَلْنَاهُ فِي لَيْلَةِ الْقَدْرِ

***«Biz onu (Quranı) Qədr gejəsində nazil etdik.»[1]***

[1] Гядр суряси, айя 1

Bu ayədə Quranın həqiqətinin bütövlükdə nazil olmasını göstərir. Amma başqa bir ayədə buyurulur:

وَقُرْآناً فَرَقْنَاهُ لِتَقْرَأَهُ عَلَى النَّاسِ عَلَى مُكْثٍ وَنَزَّلْنَاهُ تَنزِيلاً

***«Biz Quranı sənə hissə-hissə göndərdik ki, onu hissə-hissə jamaata oxuyasan.»*** [1]

Bu ayədə isə Quranın hissə-hissə, yəni tədrijilə nazil olması bəyan edilir. Mərhum təfsir ustadı Məhəmməd Hüseyn Əllamə Təbatəbayi bu barədə buyurur: «Quranın ayələrinə diqqət etdikdə məlum olur ki, Ramazan ayında, Qədr gejəsində Quranın həqiqəti Həzrət Məhəmmədin (s) qəlbinə enib və sonra isə 23 il müddətində yazı və başqa formalarda nazil olub» Ustad öz fikrinə dəlil olaraq bu ayəni misal çəkir:

وَلَا تَعْجَلْ بِالْقُرْآنِ مِن قَبْلِ أَن يُقْضَى إِلَيْكَ وَحْيُهُ

***«Ey Məhəmməd! Sənə ayə nazil olanda vəhy qurtarıb sona çatmamış, Quranı oxumağa tələsmə.»*** [2]

Əllamə buyurur: « Peyğəmbərin Quranla əvvəl tanışlığı olubdur və elə ona görə də vəhy sona çatmamış Quran oxumaq ona qadağan olub. Əgər Həzrət Məhəmmədin (s) Qurandan heç xəbəri olmasaydı, onu vəhy başa çatmamışdan qabaq Quran oxumaqdan nəhy olunması mənasız olardı. Əllamə Təbatəbayinin dəlillərindən belə nətijə çıxır ki, RamAzan ayının Qədr gejəsində Quranın həqiqəti bütövlükdə və sonrakı dövrdə, yəni 23 il ərzində ayələr və surələr formasında hissə-hissə nazil olmuşdur. Sözsüz ki, bu hissə-hissə nazil olmada da faydalar var idi. Misal üçün Quran tədrijən nazil olduqda Peyğəmbər və möminlərə çətin günlərdə ürək-dirək verirdi, habelə onu əzbərləmək mümkün olurdu və o jümlədən Quranın göstərişlərinə hissə-hissə gəldikdə əməl etmək daha asan idi. Beləjə, əvvəldən

---

[1] *Исра суряси, айя 106*
[2] *Таща суряси, айя 114*

Quran bütövlükdə nazil olsaydı, bu işlərin heç biri mümkün olmazdı, nə əzbərləmək olardı, nə də göstərişlərlə dolu ayələrin hamısına əməl etmək olardı.

Peyğəmbər (s) vəhyləri aldıqja oxuyur və ətrafdakılarına təbliğ edərdi. Belə hesab olunur ki, vəhy ilk dəfə

اقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ

***«Oxu Rəbinin adı ilə ki, yaratdı»***[1] ayələri ilə nazil olmağa başlamışdır. Quranın son nazil olan ayəsi isə

الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ

***«Bu gün dininizi sizin üçün kamil etdim.»***[2], yaxud

وَاتَّقُواْ يَوْمًا تُرْجَعُونَ فِيهِ إِلَى اللّهِ

***«Allaha tərəf qaytarılajağınız gündən qorxun!»***[3] ayəsidir. İlk bütöv şəkildə nazil olan surə Fatihə və son bütöv şəkildə nazil olan surə Nəsr surəsi olmuşdur.

Qurani-Kərimin hissələri Quranın öz adqoyma üsuluna uyğun olaraq «ayə» və «surə» ilə adlanır. Qurani-Kərimin ayələrinin sayı barəsində müxtəlif nəzərlər vardır. Lakin Həzrət Əlidən (ə) söylənilən dir hədisə görə onların sayı 6236-dır. O jümlədən Misirin əl-Əzhər universitetinin çap etdiyi Quranlar əsasında aparılan sıralanma hesabına görə Quranda surələrin əvvəlindəki «bismillah»sız 6231ayə (birinji Həmd surəsindən başqa) və surələrin əvvəlindəki «bismillah»larla birlikdə 6343 ayə vardır. Müxtəlif hesablamalara görə Quranda 6204, 6226, 6232 və ya 6666 ayə vardır.

Ayə sözünün jəm forması «ayat»dır ki, lüğətdə onun mənası «nişanə» deməkdir və aşağıdakı hallar üçün işlənir:

1. Aydın, bariz və ifadəli nişanə.

---

[1] *Яляг суряси, айя1-5*
[2] *Маидя суряси, айя 3*
[3] *Бягяря суряси, айя 281*

2. Öyüd, nəsihət və ibrət mayası

3. Hündür və uja bina

Qurani-Məjiddə də bu söz həmin üç mənada işlənmişdir. Bir çox ayələrdə, məsələn, Ali-İmran murəsinin 49-ju ayəsində

وَرَسُولاً إِلَى بَنِي إِسْرَائِيلَ أَنِّي قَدْ جِئْتُكُم بِآيَةٍ مِّن رَّبِّكُمْ أَنِّي أَخْلُقُ لَكُم مِّنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ فَأَنفُخُ فِيهِ فَيَكُونُ طَيْرًا بِإِذْنِ اللّهِ

***«Bəni-İsrailə tərəf göndərilən İsa onlara dedi: Mən sizin üçün Allah tərəfindən möjüzə gətirmişəm, mən gildən quş müjəssəmi düzəldir və ona qüdsi nəfəs verirəm və Tanrı əmri ilə quş olur.»***

Ənam surəsi 109-ju ayədə buyurulur:

وَأَقْسَمُواْ بِاللّهِ جَهْدَ أَيْمَانِهِمْ لَئِن جَاءتْهُمْ آيَةٌ لَّيُؤْمِنُنَّ بِهَا قُلْ إِنَّمَا الآيَاتُ عِندَ اللّهِ وَمَا يُشْعِرُكُمْ أَنَّهَا إِذَا جَاءتْ لاَ يُؤْمِنُونَ

***«Və Allaha möhkəm and içirlər ki, əgər onlar üçün möjüzə gətirsələr, mütləq iman gətirərlər. (Ey Peyğəmbər) de: «Möjüzələr Allah yanındadır və onun tərəfindədir və əgər bir möjüzə nazil olarsa, iman gətirməyəjəklərini siz haradan bilirsiniz?»***

Yuxarıda qeyd olunan iki ayədə Peyğəmbərin möjüzələri ayə adlanır ki, belə hallarda «ayə» sözündən məqsəd aydın, bariz dəlil və nişanə deməkdir.

Yunis surəsi 92-ji ayədə firon barəsində oxuyuruq:

فَالْيَوْمَ نُنَجِّيكَ بِبَدَنِكَ لِتَكُونَ لِمَنْ خَلْفَكَ آيَةً

***«Bəs bu gün jismini (Sudan) xilas edirik ki, gələjəkdə olanlar üçün ibrət olasan.»*** «Ayə» burada və bu kimi hallarda öyüd və nəsihət qaynağıdır. Şuəra surəsi 128-ji ayədə hündür və uja bina «ayə» sözü ilə ifadə edilmişdir.

أَتَبْنُونَ بِكُلِّ رِيعٍ آيَةً تَعْبَثُونَ

***«Yerin hər yüksək hissəsində bihudə yerə hündür bina tikmisiniz.»***

Quranda «ayə» sözü hər bir xariqüladə hadisə barəsində, həmçinin Tanrı varlığının və vəsfinin nişanəsi olduğuna görə bütün dünya hadisələri haqqında bir nişanə mənasında da işlənmişdir. O jümlədən ayə və ayələrin işlənmə halları Quranda olan jümlələr və parçalara aid olur. Belə hallarda ayə Quranda bir jümlə və ya hissə (parça) mənasında olur ki, Tanrı və Onun vəsfinə bir dəlalət və hekayət olmasına, Peyğəmbər sözünün düzgünlüyünə dəlalət olmasına və Quranın Allah-Təala tərəfindən nazil olmasına görə ayə adlandırmışdır.

Quran məzmununda müxtəlif mövzular daşıması və bizə məlum olmayan sirli səbəblərə görə 114 surəyə bölünür. Bu bölüm onu əzbərləmək yolunu asanlaşdırır. Surə sözü müxtəlif mənalar daşıyır və bunlar aşağıdakılardn ibarətdir:

1. Qalmış hissə və bir şeyin qalığı («sərirə» kökündən alınmış olarsa)

2. Hasar-divar, başqa hissələrdən ayrılmış hissə və parça («sarə» kökündən olarsa)

3. Uja, qiymətli, fəzl, şərəf, məqam («səir» kökündən olarsa)

Əslində bu üç mənanın üçü də surə kimi işlənə bilər. Surə həm Qurandan bir hissədir və həm də hasar kimi bəzi ayələrin dövrəsini əhatə edir, o, həmçinin Allah-Təalanın kəlamı olduğuna görə uja və qiymətlidir. Quranda surə sözü tək və jəm halda (surə-suvər) işlənmişdir. Quranın 114 surəsi təkjə Tövbə surəsindən savayı «Bismillahir-Rəhmanir-Rəhim» jümləsi ilə əvvəlki və sonrakı ayələrdən ayrıd edildiyinə görə və bunların hər biri müəyyən və məlum bir hissə təşkil etdiyinə görə surə adlanır.

Quran tarixinə diqqət etdikdə məlum olur ki, Peyğəmbər (s) Quranın əzbərlənməsi və yazılmasına böyük əhəmiyyət verirdi. Peyğəmbərə ayə nazil olan kimi o, ayəni müsəlmanlara oxuyur, onlar da ayələri yazır, sonra isə əzbərləyirdilər. Peyğəmbər (s) müsəlmanlardan bir qrupunu kitabət (yazılması) işinə cəlb etmişdi. Müsəlmanlar ayələri «usub» (xurma ağajının qabığı), «ədib» (heyvanların dərisi), «əktab» (dəvə və qoyun sümüyü), «əqtab» (dəvənin taxtadan olan yəhəri), «əzla» (heyvanların enli dişləri), «hərir» (ipək parça), «qəratis» (kağızlar) kimi şeylərin üzərində yazırdılar. Ayə və surələrin tərtib və tənzimi Peyğəmbərin şəxsi göstərişləri vasitəsilə təyin olunurdu.

İbn Abbas (r) deyir: «Bəzi vaxtlar Peyğəmbər (s) əmr edirdi ki, yenijə nazil olmuş ayə əvvəllər nazil olmuş filan surənin ayələri arasında yerləşdirilsin.» Bu iş açıq-aşkar göstərir ki, ayə və surələrin tənzim işi Peyğəmbərin (s) şəxsi göstərişləri vasitəsilə ijra olunurdu. O, (İbn Abbas) yenə də deyir: «Müəyyən bir ayə toplusundan sonra «Bismillah…nazil olduqda, Peyğəmbər bildirirdi ki, bu surə sona çatıb və yeni bir surə başlmaqdadır.» Quranın ən böyük surəsi 186-ayəli Bəqərə surəsidir və ən kiçik surəsi 3- ayəli Kövsər surəsidir.

## Məkkə və Mədinə ayələri

Quranın bəzi surələri Məkkədə və bəzi surələri Mədinədə nazil olmuşdur. Bu da Peyğəmbərin (s) hijrəti ilə bağdıdır.

O Həzrət(s) 13 il Məkkədə peyğəmbərlik məmuriyyətini yerinə yetirdikdən sonra Mədinə şəhərinə köçməli olur. Nətijədə Quranın surələri məkan baxımından iki yerə bölünür: Məkki (Məkkədə nazil olan) və Mədəni (Mədinədə nazil olan) surələr. Hijrətdən qabaq (yəni Məkkədən Mədinəyə köçməmişdən qabaq) 13 il ərzində Məkkədə və Məkkə ətrafında nazil olan surələr Məkki və hijrətdən sonr 10 il ərzində Mədinə və onun

ətrafında nazil olan surələr isə Mədəni surələr adlanır. Surələrin hansının Məkki, hansının Mədəni olmasını iki yolla bilmək mümkündür.

1-Tarix və hədislərə diqqət etməklə

2- Məkki və Mədəni surələrin xüsusiyyətlərini bilməklə.

Məkki və Mədəni surələrdə müxtəlif xüsusiyyətlər vardır ki, bu da onları bir-birindən fərqləndirir. Əlbəttə, bu xüsusiyyətlərdə mövjud mühitin, şəraitin və müxatəblərin (xitab olunan şəxslərin) kimliyinin təsiri vardır. Yəni o xüsusiyyətləri həmin amillər doğurur. Məkkə şəhərində nazil olan surələrin məzmununun düz və doğru əqidələrə dəvət, bütpərəst və müşriklərlə mübarizə, habelə onlarla mübahisə və sair bu kimi mövzular təşkil edir. Çünki həmin dövr İslam dininin təbliğinin əvvəli idi. O vaxt təzə bir din yaranırdı və sözsüz ki, birinji olaraq onun nejə bir din olduğunun və insanları hansı əqidələrə dəvət etməsi bəyan edilməlidir. İman nuru hələ qəlblərə yol tapmamışdı, ona görə də hər bir mövzunun izahında, hər bir əqidəvi məsələnin bəyanında məqamın mühümlüyünü insanlara başa salmaq üçün çox and içmək lazım gəlirdi. Surələr həjmjə çox kiçik, lakin gözəl üslubda idi. Xitab zamanı: يَا أَيُّهَا النَّاسُ .(Ey insanlar) deyə mürajiət olunurdu, çünki o vaxt mömin, müsəlman çox az idi. Lakin Mədinə şəhərində artıq İslam hakimiyyəti qurulmuşdu. Müsəlmanlar qüdrətə çatmışdılar. Ona görə də burada nazil olan surələrin forması və xüsusiyyətləri Məkkə surələrindən fərqlənirdi. Mədinədə əsas İslami əqidələr geniş izah olunur və onlar müxtəlif dəlillərlə daha möhkəm surətdə isbat edilirdi. Artıq ayələrdə bütpərəstlikdən bir xəbər yox idi, o dövrdə digər iki dəstə özlərinin daha qabarıq şəkildə göstərirdilər: əhli-kitab və münafiqlər. Elə buna görə də surələr həmin iki zümrə ilə mübarizə, mübahisə və onların hərəkətlərinin batil olduğunu

sübut edən dəlillərlə doludur. Artıq müəyyən bir hakimiyyət yaranmışdı. Sözsüz ki, bu həkimiyyətin siyasi nizamı və ijtimai-iqtisadi mövqeləri aydın olmalı idi. Həmin vaxt müsəlmanlar neçə-neçə döyüşlərlə üzləşdilər. Quran burada sakit qalmırdı. Surələr həjmjə uzun və böyük formada nazil olurdu və onlar müxtəlif mövzuları və şəriət hökmlərinin əhatə edirdi. Sözsüz ki, bu fərqli xüsusiyyətlərə diqqət etsək, surələrin hansının Məkki, hansının Mədəni olmalrını çox asanlıqla aydınlaşdırarıq. Əlbəttə, bu işi dəqiq surətdə yerinə yetirmək müəyyən elmi dərəjə tələb edir.

## Şəni-nüzul

Quran ayələri özü dediyi kimi hissə-hissə və pərakəndə halda 23 il ərzində Məkkə və Mədinədə nazil olmuşdur. Ayələrin nazil olması və enməsi iki jürdür:

1)Quranın bir sıra ayələri heç bir hadisə baş vermədən və bir sual qoyulmadan yalnız bəşəriyyətin hidayəti üçün Peyğəmbərə(s) nazil olmuşdur.

2) Quranın bəzi başqa ayələri isə müəyyən hadisələrlə əlaqədar olaraq  və yaxud müəyyən sualların javabında nazil olmuşdur. Hər hansı ayənin nazil olduğu mühit, hadisə, sual və şərait Quran elmləri terminalogiyasında «şəni-nüzul» adlanır. Misal üçün bu ayədə Allah-Təala ümumi və xüsusi mövzulardan söz açır və bu barədə ayələr nazil edir.

وَأَطِيعُواْ اللّهَ وَرَسُولَهُ وَلاَ تَنَازَعُواْ فَتَفْشَلُواْ وَتَذْهَبَ رِيحُكُمْ وَاصْبِرُواْ إِنَّ اللّهَ مَعَ الصَّابِرِينَ

***«Allah və Onun Rəsuluna itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa zəifləyib güjdən düşərsininz! Səbr edin, həqiqətən Allah səbr edənlərlədir.»*** [1] Müəyyən suallara javab

---

[1] *Янфал суряси, айя 46*

vermək üçün nəzərdə tutulan ayələrin birinə misal olaraq İsra surəsinin 85-ji ayəsini nümunə kimi göstəririk: Kitab əhlindən bir dəstə Peyğəmbərin(s) yanına gəlib soruşdular: Ruh nədir? Allah-Təala bu sualın javabı kimi həmin ayəni nazil etdi:

وَيَسْأَلُونَكَ عَنِ الرُّوحِ قُلِ الرُّوحُ مِنْ أَمْرِ رَبِّي وَمَا أُوتِيتُم مِّن الْعِلْمِ إِلاَّ قَلِيلاً

***«(Ya Məhəmməd!) Səndən ruh barəsində soruşurlar: De ki, ruh Rəbbimin işlərindəndir. Sizə bu barədə yalnız çox az bilik verilib»*** Bu misaldan gördüyümüz kimi kitab əhlinin sualı o ayələrin nazil olmasına səbəb olub. Buna da şəni-nüzul deyilir; Amma bu o demək deyil ki, o ayələr yalnız həmin xüsusi hadisələrə məxsusdur və artıq göstərilən ayələrin bizim zamanımıza aidiyyatı yoxdur. O hadisələr ayələrin nazil olma səbəbidir, amilidir.

Ayələrin hökmləri və göstərişləri isə bütün insanlar üçündür. Bunun aydın olmasından ötrü başqa bir misala diqqət etmək pis olmazdı: Bir javan naməhrəm qadına pis gözlə baxdıqdan sonra tutduğu işdən peşman olur. Peyğəmbərin (s) yanına gəlir və öz günahını etiraf edir. Elə bu zaman vəhy mələyi yerə enərək Peyğəmbərə(s) ayə gətirir:

قُل لِّلْمُؤْمِنِينَ يَغُضُّوا مِنْ أَبْصَارِهِمْ

***«(Ya Məhəmməd!) Mömin kişilərə de ki, gözlərinin haram edilmiş şeylərdən çevirsinlər (naməhrəmlərə baxmasınlar)»***[1]

Doğrudur ki, bu hadisə həmin ayənin nazil olmasına səbəb olub. Amma həmin ayənin göstərişi ümumidir və Allah-Təala bütün dünya möminlərinə xitab edərək buyurur: «Möminlərə de ki, naməhrəmlərə baxmasınlar.»

---

[1] *Нур суряси, айя 30*

Bir sözlə, Quranın bəzi ayələri müəyyən hadisələrlə əlaqədar nazil olmuşdur, lakin onun göstərişləri bütün bəşəriyyətə şamildir. Bu xüsusiyyət hədislərdə «jəry» və ya «intibaq» adlanır. Jəry və intibaq dedikdə Quran ayələrindəki şəri qanunların zaman axarından keçərək hər bir dövrə (zamana və məkana) şamil olması nəzərdə tutulur. Quranın öz dili ilə desək:

وَمَا هِيَ إِلَّا ذِكْرَى لِلْبَشَرِ

***«Bu Quran bütün bəşəriyyət üçün öyüd və nəsihətdir.»*** [1]

## Möhkəm və mütəşabih ayələr

Quran ayələri möhkəm və mütəşabih olaraq iki yerə bölünür. Bu barədə Allah-Təala Ali-İmran surəsinin 7-ji ayəsində buyurur:

هُوَ الَّذِيَ أَنزَلَ عَلَيْكَ الْكِتَابَ مِنْهُ آيَاتٌ مُّحْكَمَاتٌ هُنَّ أُمُّ الْكِتَابِ وَأُخَرُ مُتَشَابِهَاتٌ فَأَمَّا الَّذِينَ في قُلُوبِهِمْ زَيْغٌ فَيَتَّبِعُونَ مَا تَشَابَهَ مِنْهُ ابْتِغَاء الْفِتْنَةِ وَابْتِغَاء تَأْوِيلِهِ وَمَا يَعْلَمُ تَأْوِيلَهُ إِلاَّ اللّهُ وَالرَّاسِخُونَ فِي الْعِلْمِ يَقُولُونَ آمَنَّا بِهِ كُلٌّ مِّنْ عِندِ رَبِّنَا وَمَا يَذَّكَّرُ إِلاَّ أُوْلُواْ الألْبَابِ

***«(Ey Məhəmməd!) Sənə kitab (Quran) nazil edən Odur. Onun (kitabın) bir hissəsi (Quranın əslini və əsasını təşkil edən) möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabih (mənası bir-birinə oxşar, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədi ilə mütəşabih ayələrə uyarlar. Halbuki onların həqiqi izahını Allahdan (yaxud Allahdan***

[1] *Мцдяссир суряси , айя 31*

***və elmdə qüvvətli olanlardan( başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə : «Biz onlara iman gətirdik, və onların hamısı Rəbbimiz tərəfindəndir»-deyərlər. Bunları anjaq ağıllı adamlar dərk edərlər.»***

Bu ayənin şəni-nüzulu «Nurus-səqəleyn» kitabında İmam Məhəmməd Baqirdən (ə) belə məzmunlu bir hədisdə nəql olunmuşdur: «Həyy ibn Əxtəb ilə birlikdə bir neçə yəhudi Peyğəmbərin (s) hüzuruna gəlib müqəttəə (əlif, lam, mim) hərflərinin bəhanə edərək dedilər: «Əbjəd hesabına görə əlif birlə, lam otuzla, mim isə qırx ilə bərabərdir. Buna əsasən xəbərvermisən ki, sənin ümmətin 71 ildən artıq həyat sürməyəjəklər.» İslam Peyğəmbəri onların pis niyyətlərinin qarşısını almaq üçün buyurdu: «Siz nə üçün təkjə əlif, lam, mim hərflərini hesablayırsınız? Məgər Qurani-Kərimdə «əlif, lam, mim, sad», «əlif, lam, ra» və sair müqəttəə hərflər yoxdur? Əgər dedikləriniz mənim ümmətimin neçə il həyat sürməsinə işarədirsə, bəs nə üçün müqəttəə hərflərinin hamısını hesablamırsınız?» Bundan sonra yuxarıdakı ayə nazil oldu.

Möhkəm və mütəşabih ayələrdən məqsəd nədir?

«Möhkəm» kəlməsi əslində «ehkam» kökündən olub «qadağan olunmuş» mənasındadır. Elə buna görə davamlı və əbədi şeylərə möhkəm deyilir. Çünki məhv olma amillərini özlərindən uzaqlaşdırır. Həmçinin hər hansı bir əks ehtimalları özlərindən uzaqlaşdıran qəti və aydın sözlərə də möhkəm deyilir. Beləliklə, möhkəm ayələrdən məqsəd heç bir şəkk-şübhə olmayan və məfhumu aydın olan ayələrdir. Məsələn,

قُلْ هُوَ اللَّهُ أَحَدٌ

***«(Ey Peyğəmbər!) De ki, Odur vahid Allah»***[1]

[1] *Ихлас суряси, айя1*

لَيْسَ كَمِثْلِهِ شَيْءٌ

***«Allaha bənzər bir şey yoxdur.»*[1]**

وَخَلَقَ كُلَّ شَيْءٍ...

***«Allah bütün şeyləri yaradandır.»*[2]**

Əqidələr, yaxud Allahın zaman etibarı ilə yaranmış şeylərə əsas sifətlərdən uja və pak olduğunu təsdiq edən ayələr; dini vajibata, əmr və qadağanlara, halal-harama dair hökmləri ehtiva edən və nasix olan ayələr; nəsihətlər və tarix barəsində olan digər ayələr möhkəm ayələr adlandırılmışdır. Bu ayələr (yəni möhkəm olan ayələr) Qurani-Kərimdə «Ummul-kitab» adlandırılmışdır. Yəni bu ayələr digər ayələri izah və təfsir edəndir.

«Mütəşabih» kəlməsi isə əslində «onun müxtəlif hissələri bir-birinə oxşar olan şey» mənasındadır. Buna görə mənası bəlli olmayan kəlmələrə və jümlələrə mütəşabih deyilir. Quranda mütəşabih ayələrdən məqsəd məhz budur. Yəni mənası bir-birinə oxşar, lakin onun barəsində müxtəlif ehtimallar verilən ayələrə «mütəşabih» ayələr deyilir. Mütəşabih ayələrə nəsx edilmiş, zahiri mənaları ilə nəzərdə tutduqları gizli mənaları ilə uyğun gəlməyən ayələri, Allahın sifətlərini və zahirən Allahın jəlalına layiq olmayan mənalar daşıyan ayələri, müqəttəə (surələrin əvvəlindəki qırıq-qırıq) hərfləri və məad barəsində olan ayələri misal gətirmək olar.

Məsələn ,

---

[1] *Шура суряси, айя 11*

[2] *Лоьман суряси, айя2*

يَدُ اللَّهِ فَوْقَ أَيْدِيهِمْ

***«Allahın əli onların əllərinin üstündədir.»***[1]

Bu ayə Allahın qüdrətinə işarədir.

وَاللّهُ سَمِيعٌ عَلِيمٌ

***«Allah hər şeyi bilən və eşidəndir.»***[2]-ayəsi Allahın elminə işarədir.

وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ

***«Qiyamət günündə ədalət tərəziləri qurajağıq.»*** [3] -ayəsi Qiyamət günündə əməllərin ölçülməsinə işarədir. Məlum olduğu kimi Allahın nə əli var, nə də Qiyamət günündə əməllərin ölçülməsi üçün dünya tərəzilərinə oxşar tərəzilər vardır. Əksinə bunların hamısı qüdrətin, elmin və ölçünün ümumi bir mənasına işarədir. İmam Rza (ə) mütəşabih ayələr barəsində buyurub: «Quranın mütəşabih ayələrini möhkəm ayələrlə müqayisəli şəkildə öyrənən şəxs düzgün yola hidayət olunar.» Sonra isə buyurur: «Quranda mütəşabih ayələr olduğu kimi bizim hədislərdə də mütəşabih olanlar vardır. Bu mütəşabihləri onların möhkəmləri ilə müqayisəli şəkildə öyrənin. Mütəşabihlərin özlərinə itaət etməyin ki, yolunu azmışlardan olarsınınz.»

Bir sıra şəri hökmləri əhatə edən ayələr nazil olduqdan sonra özlərindən əvvəl nazil olmuş ayələrin yerini tutaraq zaman etibarı ilə onların fəaliyyətinə son qoyur. Bu zaman əvvəljədən nazil olmuş və başqası ilə əvəz olunan ayə mənsux, nazil olduqdan sonra özündən qabaqkı ayənin yerini tutan ayə isə nasix adlanır.

---

*[1] Фятщ суряси, айя10*
*[2] Бягяря суряси, айя 224*
*[3] Гийамят суряси, айя 47*

Ayədəki şəri hökm (başqası ilə əvəz) olunduqdan sonra artıq nəsx olunmuş ayənin hökmü, yeni bir şəri hökmlə əvəz olunur. Məsələn; İslamın yarandığı ilk dövrlərdə aşağıdakı ayədən göründüyü kimi müsəlmanlara kitab əhli ilə sülh şəraitində yaşamaq əmr olunur.

وَدَّ كَثِيرٌ مِّنْ أَهْلِ الْكِتَابِ لَوْ يَرُدُّونَكُم مِّن بَعْدِ إِيمَانِكُمْ كُفَّاراً حَسَدًا مِّنْ عِندِ أَنفُسِهِم مِّن بَعْدِ مَا تَبَيَّنَ لَهُمُ الْحَقُّ فَاعْفُواْ وَاصْفَحُواْ حَتَّى يَأْتِيَ اللّهُ بِأَمْرِهِ إِنَّ اللّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

***«(Ey möminlər!) Kitab əhlindən başqa bir çoxu həqiqət onlara bəlli olduqdan sonra belə, təbiətlərindəki həsəd üzündən sizi, iman gətirmiş olduğunuz halda yenidən küfrə sövq etmək istərlər. Allahın əmri gəlinjəyə qədər (hələlik) həmin şəxsləri əfv edin və onları qınamayın.»***[1]

Qısa bir müddət keçdikdən sonra «sülh şəraitinə» son qoyulur və aşağıdakı ayə nazil olur:

قَاتِلُواْ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِاللّهِ وَلاَ بِالْيَوْمِ الآخِرِ وَلاَ يُحَرِّمُونَ مَا حَرَّمَ اللّهُ وَرَسُولُهُ وَلاَ يَدِينُونَ دِينَ الْحَقِّ مِنَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ حَتَّى يُعْطُواْ الْجِزْيَةَ عَن يَدٍ وَهُمْ صَاغِرُونَ

***«Kitab əhlindən Allaha və Qiyamət gününə iman gətirməyən, Allahın və Peyğəmbərin haram buyurduqlarını haram bilməyən və haqq dini (İslamı) qəbul etməyənlər zəlil vəziyyətə düşüb özləri ilə jizyə verinjəyə qədər vuruşun.»***[2]

Qurani-Kərimin vahid bir kitab formasında, yəni 2 jild arasında Peyğəmbərin öz zamanında toplanıb-toplanmaması barədə İslam alimləri arasında müxtəlif fikir ayrılıqları vardır.

---
[1] *Бягяря суряси, айя 109*
[2] *Тювбя суряси, айя 29*

Bir çox dəlillərə əsaslanaraq böyük Quran elmləri mütəxəssisi (Təfsirül-Mizanın müəllifi) Əllamə Təbatəbayi buyurub: «Mən qətiyyətlə deyə bilərəm ki, Quranın tədvini (yəni vahid bir kitab şəklində tərtib olunması) və bir kitab formasına düşməsi Peyğəmbərin vəfatından sonra baş tutmuşdur.»

Bununla kifayətlənmək olar ki, Quranın ayə və surələri Peyğəmbərin öz dövründə yazılmış, Əbu Bəkrin dövründə iki jild arasında qərar verilmiş, Osmanın dövründə isə vahid şəkildə saxlanmışdır.

Sünnə ərəb sözüdür, yol, üslub, nümunə deməkdir. Məsumun (yəni Həzrət Məhəmmədin (s) və onun Əhli-beytinin) gördüyü işlər və söylədiyi fikirlər və təsdiqlədiyi hadisələr, ijtimai həyat qaydalarının, Quranın, dini ayinlərin və hüquq təfsirinin mənbələrindən biridir. Sünnə hədislərdə təsbit olunmuşdur. Sünnə müsəlmanların əhkam, ibadətlər və etiqadlar mövzusu ilə bağlı Qurani-Kərimdən sonra mürajiət etdikləri ikinji mənbədir.

Quranın özündə də Peyğəmbərin deyimləri, fikirləri, əməlləri müsəlmanlara örnək, nümunə kimi təqdim edilir. Allah Quranı Peyğəmbərə nazil etmişdir ki,

وَأَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ

***«İnsanlar üçün müəyyən edilmiş əmr və qadağanları onlara izah etsin,[1]»***

وَمَا أَنزَلْنَا عَلَيْكَ الْكِتَابَ إِلاَّ لِتُبَيِّنَ لَهُمُ الَّذِي اخْتَلَفُواْ فِيهِ

***ixtilaflı olduqları məsələrdə onlara açıqlasın,[2]***

[1] Нящл суряси, айя 44
[2] Нящл суряси, айя 64

لَقَدْ مَنَّ اللّهُ عَلَى الْمُؤمِنِينَ إِذْ بَعَثَ فِيهِمْ رَسُولاً مِّنْ أَنفُسِهِمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ

***ayələri onlara oxusun, onları pis əməllərdən təmizləsin, onlara Quranı və hikməti öyrətsin.***[1]

وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ

Quran möminlərə əmr edir ki, ***«Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi qadağan edirsə, ondan çəkinin.»***[2] Çünki

لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِّمَن كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الْآخِرَ وَذَكَرَ اللَّهَ كَثِيرًا

***«Allahın Rəsulu öz daıranış tərzi ilə Allaha, Qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl nümunədir.»*** [3]

İbn Kəsir bu ayəni izah edərkən yazır ki, burada Peyğəmbərin dediklərində və keçirdiyi hallarda nümunə götürməyə çağırış vardır.

Odur ki, Quran müsəlmanları Allahdan sonra Peyğəmbərə itaət etməyə çağırır:

أَطِيعُواْ اللّهَ وَالرَّسُولَ

***«Allaha və Peyğəmbərə itaət edin!»***[4]

---

[1] *Али-Имран муряси, айя 164*
[2] *Щяшр суряси, айя 7*
[3] *Ящзаб суряси, айя 21*
[4] *Али-Имран суряси, айя 32*

مَّنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللّهَ وَمَن تَوَلَّى فَمَا أَرْسَلْنَاكَ عَلَيْهِمْ حَفِيظًا

*«Peyğəmbərə itaət edən kəs şübhəsiz, Allaha itaət etmiş olur.»*[1]

Peyğəmbərə müxaliflik Allaha müxaliflik kimi qiymətləndirilir. Qurana Peyğəmbərin göstərdiyi üslubdan fərqli üslubda əməl etmək Quranı bilməmək, dindən çıxmaq kimi səjiyyələndirilir.

Digər tərəfdən, İslam Peyğəmbərin öhdəsinə elə vəzifələr qoyur ki, başqa dinlərdə peyğəmbərə belə vəzifələr həvalə edilmir:

فَاحْكُم بَيْنَهُم بِمَا أَنزَلَ اللّهُ

*«Məhəmməd insanlar arasında Allahın nazil etdiyi Qurana əsasən hökm etmək*[2]*,*

فَلاَ وَرَبِّكَ لاَ يُؤْمِنُونَ حَتَّىَ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ

*ixtilafların həllində münsif olmaq*[3] *tapşırığı almışdır.»*

Peyğəmbərin bir sıra hədislərində onu təqlid etmək, onun kimi davranmaq, onun kimi ibadət müsəlmanlara vajib buyurulur. Sünnətdir deyə, müsəlman saqqal saxlayır, namazlarını bir jür qılır, oruju və digər ibadətləri bir jür yerinə yetirir.

Peyğəmbərin(s) Əhli-beytindən olan məsum imamlar da Peyğəmbərin(s) sünnəsini müstəqil şəkildə nəql edənlər olub onun elminin xəzinədarları kimi qələmə verilir. Əlbəttə, Peyğəmbərin (s) sözləri digər mötəbər yollarla gəlib çatsa da, şiələr tərəfindən qəbul olunur.

---

[1] *Ниса суряси, айя 80*
[2] *Маидя суряси, айя 48*
[3] *Ниса суряси, айя 65*

Şiə rəhbərləri öz ardıjıllarına, Qurana əməl etməyi tövsiyə etməklə yanaşı onlara Peyğəmbər sünnəsinə əməl etməyi də tapşırır. Onlar kitab və sünnəni bir-biri ilə yanaşı vəsf edirlər. İmam Sadiq(ə) buyurur:

***«Hər kəs Allahın kitabı və Peyğəmbərin sünnəsi ilə müxalifət etsə, şübhəsiz kafir olmuşdur.»***[1]

Şiələrin nəzərində bəşəriyyət üçün şəriət və qanun qoymağa yalnız aləmlərin Rəbbi olan Allahın haqqı vardır. Belə ki, müqəddəs şəriətin hökm və qanunları da Allahın öz Peyğəmbərinin vasitəsilə insanlara çatdırılır. Aydındır ki, Peyğəmbər yalnız vəhyin alınmasında və Allah ilə insanlar arasında şəriət qoyulmasına bir vasitədir. Deməli, şiələrin Əhli-beyt(ə) hədislərini öz fiqhi mənbələrindən biri hesab etmələrinin səbəbi bu deyildir ki, onun Peyğəmbər (s) sünnəsi müqabilində müstəqil bir yol olduğuna inansınlar; əksinə, Əhli-beytin hədisləri yalnız buna görə mötəbər sayılır ki, onlar Peyğəmbər (s) sünnəsinin bəyan edijisidirlər. Deməli, şiənin imamlarının özlərindən heç bir sözü yoxdur, hamısı Peyğəmbərin sünnəsindən ibarətdir.

Bu müddəanı isbat etmək üçün yaxşı olar ki, imamların öz sözlərini qeyd edək: İmam Sadiq (ə) ondan sual soruşan bir şəxsə belə javab vermişdir: «Sənə verdiyim hər bir javab Peyğəmbərdəndir. Biz özümüzdən heç bir rəy demirik.»[2]

Başqa bir hədisdə buyurur: «Mənim sözüm atamın (İmam Baqirin) sözü, atamın sözü babamın (İmam Əli ibn Hüseynin) sözü, babamın sözü Hüseyn ibn Əlinin, Hüseynin sözü Həsən ibn Əlinin, İmam Həsənin sözü Əmirəl-mömininin, onun sözü Peyğəmbərin(s) sözü, Peyğəmbərin(s) sözü də böyük Allahın kəlamıdır.»[3]

Qeyd olunan hədislərə əsasən şiələrin məsum rəhbərlərinin hədislərinin mahiyyəti, yəni Peyğəmbəri-Əkrəmin (s) sünnəsindən ibarət olması aydın olur.

---

[1] *Цсули-кафи, ж.1, щядис 6*
[2] *Жамиу ящадисуш-шия, ж.1, сящ.129*
[3] *Жамиу ящадисуш-шия, ж.1, сящ.129*

Sünni və şiə mühəddisləri inanırlar ki, Peyğəmbər özündən sonra iki dəyərli əmanət qoyub getmiş, bütün müsəlmanları onlara tabe olmağa çağırmış, insanların hidayət və səadətini o ikisinə sarılmaqda hesab etmişdir. Bunlardan biri Allahın kitabı Quran, digəri isə Peyğəmbərin Əhli-beyti və itrətidir. Burada nümunə olaraq bəzi hədisləri qeyd edirik: Jabir ibn Abdullah (r) Rəsuli-Əkrəmin (s) belə buyurduğunu nəql edir: «Ey insanlar, mən sizin aranızda iki şey əmanət qoyuram, əgər onlara sarılsanız, heç vaxt yolunuzu azmazsınız: Allahın kitabı Quran və mənim itrətim (əhli-beytim)1

Həzrət Məhəmməd(s) buyurur: «Mənim sünnəmə və məndən sonrakı hidayət olmuş Raşidi xəlifələrin (12 imamın) sünnəsinə tabe olun ki, kamala çatasınız.»2

Jabir ibn Səmrət Rəsuli-Əkrəmdən(s) belə nəql edir: «Allahın Rəsulunun(s) belə buyurduğunu eşitdim: «İslam on iki xəlifə ilə əziz olajaqdır.» Sonra bir söz dedi, amma mən onu başa düşmədim, atamdan «nə dedi?»- deyə soruşduqda javab verdi: Hamısı Qureyşdəndir»3

Həzrət Əli ibn Əbu Talib(ə) buyurur: «İmamlar Qureyşdən, Bəni-Haşim tayfasından qərar verilmişdir. Onlardan başqalarının insanlara vilayətə (rəhbərliyə) ləyaqəti yoxdur, digər hakimlərin rəhbərlikləri əsassızdır.»4

Hədislərdə qeyd olunan bu xüsusiyyətləri nəzərə almaqla aydın olur ki, Peyğəmbərin(s) «Əhli-beyt, itriət», dedikdə məqsədi o Həzrətin itrətindən olan on iki pak imamlardır ki, şiələrdə onlara tabe olaraq özünün fiqhi hökmlərini onlardan əxz etmələri ilə iftixar edirlər.

---

[1] *Сящищ-Тирмизи, Китабул-мянагиб, Мянагибул-ящли-бейт, Няби бабы, ж.5, сящ 662, щядис 3786, Бейрут чапы*

[2] *Ящмяд ибн Щянбял, Мцсняд, ж.4,сящ. 126; Сящищ-Тирмизи, ж. 5, сящ. 328; Сящищи-Мцслим, ж.2, сящ.362*

[3] *Сящищ- Мцслим, ж.6, сящ.3, Мисир чапы.*

[4] *Нящжцл-бялаья, хцтбя 144*

# Mündəricat

*İran İslam Respublikasının Azərbayjan Respublikasındakı Səfirliyinin Mədəniyyət Mərkəzinin sədri Seyyid Əli Əkbər Ojaqnecad*
" QURAN VƏ SÜNNƏT " KONFRANSINDA ÇIXIŞI" ...............3

*Məhəmməd Baqir Saivər*
Quran təfsirinin üsulları .................................................10

*Jeyhun Jəfərov*
Quranın elmi möcüzələri.................................................35

*Mirjəfər Əyyubzadə*
Quran və təcrübi elmlər .................................................44

*Ülkər Məhəmmədova*
İmam Rzanın(ə) bəyanatlarında Quranın təfsiri üslubu ...................64

*Şahin Həsənov*
Quran və sünnət əsasında həyat.......................................79

*Mirkazım Eyyubzadə*
Quranın təfsirində Quran və sünnət ...............................86

*Aygün Əlizadə*
Qurani-Kərimin təfsirləri ...............................................91

*Elşən Mahmudzadə*
Quran və sünnə sonsuz feyz mənşəyi ...............................97

*Jəmaləddin Gözəl*
Quranın insan ruhuna təsiri ..........................................110

*Jümşüd Kərimli*
Quran və sünnət .............................................................118

*Sirus Lətifi*
İslamın iki əsas mənbəyi: Quran və sünnə .......................141